RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 273 (10018) 27 dekabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir



## Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

**Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

2

## Ağdam ikinci doğum tarixini yaşayır

### Bu tarixin müəllifi İlham Əliyevdir




Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Dövlət başçısının iştirakı ilə bu kəndlər yenidən istifadəyə verilib. Kəngərli, Sarıcalı, Xıdırlı kəndlərində insanlar yaşayır və buraya köç prosesi davam edir. Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı oldu. Prezident İlham Əliyev dekabrın 24-də kompleksin açılışını edərək burada yaşayacaq insanların bir qrupu ilə görüşdü.

Ərazisi 13 hektardan çox olan həmin kompleksdə 11 məhəllə salınıb. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları və s. yaradılıb.

Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

9

## Qlobal nüfuzun təzahürü

### Dünya liderlərinin təbrikləri Prezident İlham Əliyevə göstərilən yüksək beynəlxalq etimadın göstəricisidir



Xalqımıza əbədi olaraq bütöv və qüdrətli Azərbaycan qazandıran Prezident İlham Əliyev beynəlxalq aləmdə etibarlı tərəfdaş, yüksək nüfuza malik dövlət başçısı kimi tanınır. Azərbaycan liderinin sərgilədiyi siyasi iradə, prinsipial mövqe və qətiyyətli qərarlar beynəlxalq ictimaiyyət tərəfindən etimadla qarşılanır və təqdir olunur. Doğum günü münasibətilə dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, tanınmış ictimai-siyasi xadimlərin ünvanladıqları təbrik məktubları və müraciətlər də Prezident İlham Əliyevə göstərilən yüksək etimadın və hörmətin növbəti təzahürü kimi qiymətləndirilməlidir.

Dövlətimizin rəhbərinə ünvanlanan bu təbriklərdə Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, müdrik və uzaqgörən rəhbərliyi sayəsində Azərbaycanın keçdiyi yüksək inkişaf yolu xüsusi vurğulanır.

9

## Xalqımız hər zaman yaddaşına sadiq qalacaq



Dövlət başçısının qürurla vurğuladığı kimi, beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi. Ermənistanın və himayədarlarının müxtəlif vasitələrlə vaxtı uzadaraq Azərbaycanı Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğalı ilə barışdırmaq kimi məkrli niyyətləri puça çıxdı. Azərbaycan Ordusu 2020-ci ildə Vətən müharibəsində və 2023-cü ildə antiterror əməliyyatında qazandığı qələbələrlə Qarabağı və Şərqi Zəngəzuru Ermənistanın əsarətindən xilas etdi. Beləliklə, ölkəmizin tam suverenliyinə nail olduq.

11

## Azərbaycanın regional liderliyini təmin edən uğurlu xarici siyasət

Tarixi Zəfərimiz nəticəsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpası ölkənin xarici siyasətində fundamental dönüş nöqtəsi yaradıb. Uzun illər beynəlxalq gündəmdə əsas mübarizə mövzusu olan Qarabağ məsələsinin həlli ilə Azərbaycan artıq postmünaqişə mərhələsinə qədəm qoyub və bu, diplomatik prioritetlərin mahiyyətini də köklü şəkildə dəyişib.

İlk növbədə xarici siyasətin gündəmi müdafiə və haqq mübarizəsindən inkişaf və təşəbbüskarlıq mərhələsinə keçib. Ərazi bütövlüyünün bərpasına qədər beynəlxalq platformalarda əsas məqsəd Azərbaycanın haqlı, ədalətli mövqeyinin tanıdılması idi. Bu gün isə rəsmi Bakı regional əməkdaşlıq, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və nəqliyyat-logistika layihələri ilə daha fəal və təşəbbüskar mövqedən çıxış edir.

Yeni reallıq Ermənistanla münasibətlərə də birbaşa təsir göstərib. Ermənistana göndərilən taxılın Azərbaycan üzərindən daşınmasına şəraitin yaradılması, Azərbaycanın neft



məhsullarının ilk partiyasının Ermənistana göndərilməsi tarixi Vaşinqton görüşündən sonra sülhə doğru nə qədər mühüm irəliləyişlərin əldə edildiyini göstərir.

Suverenliyin bərpası Azərbaycanın beynəlxalq legitimliyini də möhkəmləndirib. Rəsmi Bakı öz addımlarını beynəlxalq hüquq normaları əsasında quraraq, "yeni reallıqların qəbul edilməsi" tezisini xarici siyasətin əsas kommunikasiya xəttinə çevirib.

10

## "Orta dəhlizin, Çin səddindən Avropaya uzanan ticarətin taleyi Türkiyə və Azərbaycanın sarsılmaz ittifaqı ilə şəkillənəcək"



Azərbaycanla yanaşı, Türkiyə də Orta dəhlizdə mühüm əhəmiyyətə malik ölkə sayılır. Orta dəhlizdən yüklərin Avropaya daşınmasında keçid ölkə olduğu üçün maraqlarımız üst-üstə düşür. II Azərbaycan-Türkiyə İnvestisiya Forumunda logistika məsələlərinin geniş müzakirə olunması da bununla bağlıdır. Xüsusən Orta və Zəngəzur dəhlizləri ilə bağlı məsələlər iki ölkə nümayəndələri tərəfindən geniş müzakirə edilib.

Türkiyə ticarət nazirinin müavini Mustafa Tuzcu forumda deyib: "Zəngəzur dəhlizinin açılması bütün region tərəfindən gözlənilir və bu dəhliz təkcə Türkiyə ilə Azərbaycan arasında deyil, ümumiyyətlə, Asiya ilə Avropa arasında tədarük zəncirlərini birləşdirən kritik əhəmiyyət daşıyır. Avqust ayında Qarsda keçirilən açılışdan sonra Qars-Naxçıvan dəmir yolu layihəsinin icrası Zəngəzur dəhlizinin effektivliyini daha da artıracaq".

10

## 907-ci düzəlişin ləğv olunması ABŞ-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfələr verə bilər



"Azadlığa Dəstək Aktı" SSRİ-nin dağılmasından sonra Rusiya və müstəqil olmuş digər postsovet ölkələrində demokratik idarəetmə və azad bazar iqtisadiyyatının formalaşdırılmasına yardım etməyi nəzərdə tutur. Sonrakı illər bura humanitar, təhlükəsizlik və terrorizmlə mübarizə istiqamətləri də əlavə olunub. Təəssüflər olsun ki, elə həmin il Konqres akta Azərbaycanı yardım alan ölkələr siyahısından çıxarmağı nəzərdə tutan 907-ci düzəlişi əlavə edib. Bu düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə, həmçinin yerli özünüidarəetmə qurumlarına birbaşa yardımı qadağan edir. Düzəlişin ortaya çıxmasına, qəbul olunmasına səbəb isə inandırıcı olmayan bir arqument göstərilib. Guya ki, Azərbaycan hökuməti Qarabağda yaşayan erməniləri blokadada saxlayır. Heç bir əsaslı səbəb olmadan qəbul edilən 907-ci düzəliş 1992-ci ildən 2002-ci ilə qədər Azərbaycana ABŞ-dən birbaşa yardımın göstərilməsinin qarşısını alıb.

13

# Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir

## Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

## Prezident İlham Əliyevin çıxışı

- Əziz idmançılar. Əziz dostlar.

Ənənəvi olaraq ilin sonunda görüşürük, ilin yekunlarını müzakirə edirik, idmançıları, idman mütəxəssislərini mükafatlandırırıq. Bu il də istisna deyil. Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu, bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur və bu, yəqin ki, təbiidir. Çünki idmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqramlar icra edilmişdir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulmuşdur və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi başa çatmışdır - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.






Əlbəttə ki, bütün bunlar, eyni zamanda düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil ilk növbədə ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda uşaqlıqdan idmana göstərilən maraq, əlbəttə ki, gələcəkdə idman uğurlarına yol açır.

Bizim siyasətimizin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda tərbiyə etməkdir, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı daimi olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bu da çox müsbətdir. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər. İdmanın isə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində çox böyük önəmi var.






Hər dəfə bizim idmançılarımız Dövlət bayrağını beynəlxalq yarışlarda qaldıranda əlbəttə ki, hər birimiz qürur hissi keçiririk. Son 5 il ərzində bizim bayrağımız qalib ölkənin bayrağı kimi beynəlxalq arenalarda qaldırılır. Əminəm ki, idmançılar da beynəlxalq yarışlarda iştirak edən zaman bunu hiss edirlər. Ölkəmizə, xalqımıza olan münasibəti hiss edirlər və idman meydançalarına, idman arenalarına çıxarkən, yəqin ki, təbii olaraq qürur hissi ilə çıxırlar. Eyni zamanda bizim 5 il bundan əvvəl əldə etdiyimiz şanlı Qələbə idmançıların məsuliyyətini də böyük dərəcədə artırır. Çünki onlar müzəffər xalqın nümayəndələri kimi yarışlarda iştirak edirlər.

Təbii ki, bundan sonrakı illərdə bu siyasət davam etdiriləcək. İdmanla məşğul olan bütün qurumlar çox sıx əlaqəli şəkildə fəaliyyət göstərirlər. Azərbaycanda ənənəvi olaraq bir çox beynəlxalq idman yarışları keçirilir. Bəziləri ənənəvi xarakter alır, bəziləri xüsusilə çox böyük beynəlxalq idman yarışları ilk dəfə idi ki, Azərbaycanda keçirilmişdir. Bu ilin ölkəmizdə keçirilmiş əsas idman yarışı təbii ki, MDB ölkələrinin üçüncü Oyunları olmuşdur. Oyunlar çox yüksək səviyyədə keçirilmişdir. Bu Oyunların xüsusiyyəti ondan ibarət idi ki, onlar bölgələrdə - bir neçə şəhərdə keçirilmişdir. Yəni bu, özlüyündə bir göstəricidir. Təbii ki, Bakı şəhərində istənilən idman yarışını keçirmək olar. Ancaq minlərlə xarici qonağın iştirakı ilə bölgələrdə keçirilmiş MDB Oyunları, əlbəttə ki, bizim potensialımızı göstərir. Gəncə şəhəri mərkəz seçilmişdi. Yarışların bəziləri digər şəhərlərdə, o cümlədən Xankəndi şəhərində keçirilmişdir. Məndə olan məlumata görə, bütün qonaqlar çox böyük minnətdarlıqla həm bizim qonaqpərvərliyimizi qeyd ediblər, həm də bölgələrimizin gözəlliyi və yaradılmış şəraitlə tanış olublar. İdmançılarımız bu Oyunlarda yaxşı nəticə göstərmişlər, komanda hesabında ikinci yerə biz layiq görüldük. Əlbəttə ki, bütövlükdə bu kimi tədbirlər ölkəmizin imicini, idman potensialını bütün dünyaya göstərir.

Bu il ölkəmizdə ilk dəfə olaraq UFC üzrə beynəlxalq turnir keçirilmişdir. Bu da dünya miqyasında ən populyar idman yarışıdır və adətən bu yarışların əksər mərhələləri Amerikada keçirilir, yaxud da ki, ən inkişaf etmiş ölkələrdə. Bakını da bu siyahıya salmağımız ilk növbədə ölkəmizin potensialını göstərir. Eyni zamanda onu göstərir ki, biz artıq bu sahədə də öz fəaliyyətimizi göstəririk. Yenə də turnirin təşkilatçıları ilə görüşüm zamanı onlar da qeyd edirdilər ki, Bakının bu cür inkişaf etmiş şəhər olmasını, bu dərəcədə gözəl şəhər olmasını heç təsəvvür edə bilmirdilər, heç gözləmirdilər. Yəni minlərlə iştirakçının, xarici qonağın iştirakı ilə keçirilən və dünya mediası tərəfindən işıqlandırılan belə bir yarış ölkəmizin təqdimatının bir növüdür.

Ənənəvi olaraq "Formula-1" yarışı təbii ki, bu il də keçirilmişdir və bu yarış ölkəmizin dünyaya təqdimatında xüsusi rol oynamışdır. Təkcə onu demək kifayətdir ki, birinci "Formula-1" yarışından sonra ölkəmizə gələn xarici turistlərin sayı 20 faiz artmışdır və ondan sonra da artım davam edirdi, COVID-ə qədər. Sonra təbii ki, aşağı düşdü. İndi yenə də bərpa edilir və əminəm ki, gələn il daha çox xarici qonaq ölkəmizə gələcək, o cümlədən beynəlxalq idman yarışlarını izləmək üçün. Bu il keçirilmiş "Formula-1" yarışının özəlliyi onda idi ki, bütün biletlər əvvəlcədən satılmışdı və hətta əlavə tribunaların quraşdırılması da nəzərdə tutulmuşdu.

*Ardı 3-cü səh.*

# Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir

## Prezident İlham Əliyev 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib




*Əvvəli 2-ci səh.*

Halbuki şəhər yarışı olduğu üçün burada daha böyük sayda tribunaların quraşdırılması çox çətindir. Amma buna baxmayaraq, 20 min insan canlı olaraq bu yarışı izləyib. Ümumiyyətlə isə bu yarışın auditoriyası yarım milyard insana bərabərdir. Yəni bütün dünya bu yarışı izləyərkən ilk növbədə əlbəttə ki, həm yarışı, həm də şəhərimizin gözəlliyini görür. Təbii ki, bu da ölkəmizin təqdimatı kimi qəbul edilməlidir.

Onu da deməliyəm ki, son vaxtlar bir neçə aparıcı ölkənin şəhəri "Formula-1" yarışını keçirmək üçün təşkilatçılara müraciət etmişdir və xüsusilə şəhər yarışlarını daha çox xahiş etmişdir. Çünki Bakının timsalında hər kəs görür ki, şəhər yarışı böyük dərəcədə fərqlənir. Bir sözlə, bu kimi idman tədbirləri ölkəmizin imicini böyük dərəcədə ucaldır.

Ölkəmizdə yüzlərlə idman, beynəlxalq idman yarışları keçirilmişdir və gələn il də yarışların keçirilməsi gözlənilir. Xüsusilə mən ölkəmizdə ilk dəfə olaraq keçiriləcək Xizək üzrə Dünya Kubokunu qeyd etmək istərdim. Çünki bu, ilk dəfə olaraq keçiriləcək tədbirdir və ilk ildən dünya kuboku səviyyəsində Qusarda, Şahdağ Xizək Kurortunda keçiriləcək. Bu da Azərbaycanı və Şahdağı beynəlxalq xizək idmanının cədvəlinə salmış olur. Burada da ölkələrin sayı kifayət qədər məhduddur və Azərbaycanın burada da olması, qış idmanı növündə Dünya Kubokunun keçirilməsi əlbəttə ki, böyük hadisədir. Şahdağ Turizm Xizək Mərkəzinin inkişafı hər il təmin edilir. Hər il biz yeni traslar, yeni xizək zolaqları istifadəyə veririk. Əminəm ki, yaxın 1-2 ilə trasların uzunluğu 50 kilometri ötəcək, təqribən 55 kilometr olacaq. Gələcəkdə yeni mərhələnin inkişafı ilə bağlı da məsələlərə baxılacaq. Amma hazırda bu, bizim bölgəmizdə ən inkişaf etmiş xizək mərkəzidir və orada mövcud olan infrastruktur, hotellərin sayı və gələcək planlar, - indi özəl sektor tərəfindən oraya çox böyük maraq göstərilir, - bütövlükdə o bölgədə minlərlə iş yerinin yaradılmasına gətirib çıxarıb. Təkcə Şahdağ Xizək Mərkəzi bundan faydalanmır, bütün ətraf kəndlər, şəhərlər, orada işləyən, yaşayan insanların bir çoxu turizmin bu sektoruna da cəlb edilib.

Yəni bizim çox gözəl dəniz istirahət zonalarımız, xizək zonalarımız var. Güclü infrastruktur yaradılıbdır. Yollar, dəmir yolları, 9 beynəlxalq hava limanı, yeni şəhərlər arasındakı bağlantılar da müasirləşir. Qarabağda və Şərqi Zəngəzurda böyük infrastruktur işləri görülür. Artıq orada da - Köndələnçay su anbarında, Suqovuşan su anbarında yarışlar keçirilir. Gələcəkdə Sərsəng su anbarında da avarçəkmə üzrə yarışlar keçirilə bilər. Yəni ölkəmizin bu cür inkişafı, o cümlədən idman sektoruna da müsbət təsir göstərir.

Əlbəttə ki, bu il daha bir önəmli hadisə baş vermişdir. Bakı şəhəri "Dünyanın İdman Paytaxtı" seçilmişdir və bu da çox böyük hadisədir, bizim üçün böyük şərəfdir. Eyni zamanda Azərbaycanda idmanla bağlı görülən işlərə verilən qiymətdir. Mən əminəm ki, bu şərəfli adı biz ləyaqətlə daşıyacağıq.

Əlbəttə, idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması da qeyd etdiyim kimi, bir ənənəyə çevrilib. Bu, çox gözəl ənənədir, artıq 30 ilə yaxındır ki, davam edir və hər şey ədalətli olmalıdır. Azərbaycanın idman şöhrətini ucaldan insanlar əlbəttə ki, dövlət tərəfindən qiymətləndirilməlidir və onların fəaliyyətinə layiqli münasibət göstərilməlidir.

Mən sizi qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

* * *

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.

Prezident İlham Əliyev Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Mövlud Mirəliyevə, Ələkbər İmaməliyevə, Zöhrab Gözəlbəyliyə və İlahə Qədimovaya "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarının vəsiqələrini təqdim etdi.

Ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Elmira Aslanova, Vəfa Musayeva, Nurəddin Rəcəbov, Eduard Məmmədov, Azər Məhərrəmov, Yaqub Abdullayev, Cahangir Ağarəhimov, Fikrət Hüseynov, Cahangir Bayramov və Coşqun Əliyev "Tərəqqi" medalları ilə təltif olundular.

Dövlətimizin başçısı 2025-ci ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Şəmsi Səfərliyə, Böyükxanım Astanovaya, Morteza Validarviyə, Mehran Həmidzadəyə, Malik Həsənova, İmamverdi Məmmədova, Ramil Vəliyevə, Tofiq Əliyevə, Oqtay Abdullayevə, Nurəddin Məmmədova, Solmaz Adilovaya, Ülvi Qənizadəyə, Murad Məmmədova, Ramil Cəfərova, Aygül Abdullayevaya, Yelizaveta Rubana, Xəyyam Orucova, Elnur İbrahimə, Taleh Nağızadəyə, Nərmin Kazımovaya və Fərid Tağızadəyə yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Tərlan Həsənova, Asim Xudiyevə və Qərib Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev idmançılarla söhbət etdi.

## "İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 fevral tarixli 324 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsinin xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

"İcbari tibbi sığorta fondunun 2025-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 fevral tarixli 324 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 2, maddə 116) 3.4-cü bəndində aşağıdakı dəyişikliklər edilsin:

1. 3.4.1-ci yarımbənd üzrə:

1.1. "Məbləğ (manatla)" sütununda "1 720 956 292,00" rəqəmləri

"1 642 956 292,00" rəqəmləri ilə əvəz edilsin;

1.2. 3.4.1.1-ci abzasın "Məbləğ (manatla)" sütununda "6 000 000,00" rəqəmləri "3 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3.4.1.2-ci abzasın "Məbləğ (manatla)" sütununda "2 500 000,00" rəqəmləri "1 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

2. 3.4.2-ci yarımbənd üzrə:

2.1. "Məbləğ (manatla)" sütununda "464 765 000,00" rəqəmləri "497 765 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.2. 3.4.2.2-ci abzasın "Məbləğ (manatla)" sütununda "200 000 000,00" rəqəmləri "190 000 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.3. 3.4.2.3-cü abzasın "Məbləğ (manatla)" sütununda "25 000 000,00" rəqəmləri "21 300 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.4. 3.4.2.4-cü abzasın "Məbləğ (manatla)" sütununda "28 000 000,00" rəqəmləri "63 500 000,00" rəqəmləri ilə əvəz edilsin;

2.5. 3.4.2.6-cı abzasın "Məbləğ (manatla)" sütununda "10 000 000,00" rəqəmləri "21 200 000,00" rəqəmləri ilə əvəz edilsin.

3. 3.4.3-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "430 000 000,00" rəqəmləri "495 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

4. 3.4.4-cü yarımbəndin "Məbləğ (manatla)" sütununda "40 000 000,00" rəqəmləri "20 000 000,00" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

## Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 2535 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 4.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin İqtisadi siyasət məsələləri sektorunun müdiri.

2."Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3547 nömrəli Sərəncamının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 17 mart tarixli 2535 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 241(Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, möhtərəm İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti vəzifənizdə doğma ölkənizə və vətəndaşlarınıza daim yüksək qayğı göstərir, uğurlu sosial-iqtisadi siyasət həyata keçirir, beynəlxalq gündəliyin formalaşdırılmasına və ictimai asayişin qorunmasına mühüm töhfələr verirsiniz. Müasir mürəkkəb geosiyasi şəraitdə bu vəzifələrin icrası dövlət başçısından strateji düşüncə, yüksək məsuliyyət və xüsusi analitik yanaşma tələb edir.

Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının səmərəli əməkdaşlığının dəstəklənməsinə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Ümidvaram ki, formalaşmış mövcud qarşılıqlı münasibətlərin inkişafı gələcəkdə də insanların həyatında ənənəvi mənəvi dəyərlərin möhkəmlənməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı və rifah, Uca Allahdan kömək, Azərbaycan xalqının firavanlığı naminə gələcək fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***KİRİLL,***
***Moskvanın və Bütün Rusiyanın Patriarxı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Sizə ali dövləti vəzifənizdə bundan sonra da fəal və səmərəli iş, möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, həmişə əzizlərinizin və doğmalarınızın sevgisini arzulayıram.

Fürsətdən istifadə edərək, Rusiya və Azərbaycan xüsusi xidmət orqanları arasında əməkdaşlığın inkişafına göstərdiyiniz daimi diqqət və dəstəyə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu əməkdaşlıq bundan sonra da təhlükəsizliyin və ölkələrimizin milli maraqlarının müdafiəsinin təmin edilməsi, regionda sülhün və sabitliyin qorunub saxlanılmasının etibarlı qarantı olaraq xidmət göstərməyə davam edəcəkdir.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Doğum günü insanın sanki yenidən anadan olduğu, Uca Tanrının ona növbəti il üçün həyatını yenidən qurmaq imkanı verdiyi, yeni vəzifələr müəyyənləşdirdiyi, eyni zamanda həmin vəzifələri yerinə yetirmək üçün yeni güc bəxş etdiyi bir gündür.

Bu, xüsusilə Sizin kimi yüksək səlahiyyətlərə, böyük istedada və nüfuza malik insanlara aiddir.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik şəkildə inkişaf edir, həm keçmişdən qalmış problemləri, həm də Qafqaz regionunun və bütövlükdə dünyanın inkişaf xüsusiyyətlərinin diktə etdiyi yeni çağırışları uğurla həll edir. Siz zamanın çağırışlarına çevik reaksiya verir, ölkəni və onun əhalisini davamlı olaraq rifaha doğru aparırsınız.

Bu baxımdan xüsusi olaraq Azərbaycanda millətlərarası sülhün təmin edilməsi və dindarların hüquqlarına riayət olunması istiqamətində fəaliyyətinizə görə Sizə ən səmimi minnətdarlığımı bildirirəm. Əqidə yoldaşlarımın ölkənizdəki icması dövlətin köməyinə və dəstəyinə, vicdan və dini etiqad azadlığının müdafiəsi istiqamətində Sizin ardıcıl və prinsipial mövqeyinizə nə qədər çox borclu olduğunu yaxşı başa düşür. Azərbaycana son səfərim zamanı bunun növbəti əyani təsdiqinin şahidi oldum və şəxsi görüşümüzdə ürəkdən söylədiyim sözləri yalnız təkrar edə bilərəm: "Sizə sonsuz təşəkkürümü bildirirəm".

Qoy bu sevincli gündə Uca Yaradan Sizə xoşbəxtlik, uğurlar və sevinc hissi ilə dolu bir həyat bəxş etsin! Həyatınızın yeni ilində Sizə möhkəm cansağlığı, nailiyyətlər və Azərbaycan üçün olduqca zəruri olan çətin, lakin şərəfli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Berl LAZAR,***
***Rusiyanın baş ravvini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Uşaq Fondu və Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından doğum gününüz münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Uzun illərdir ki, uşaqların müdafiəsi işində birgə işləyirik və layiqli gələcək nəsil formalaşdırmaq kimi ali məqsədə doğru irəliləyirik. Şüarımız dəyişməz olaraq qalır: "Heç bir gün xeyirxah iş olmadan ötüşmür".

Sizə möhkəm cansağlığı, bol enerji və davamlı xeyirxah əməllər arzulayıram.

Qoy həmişə Sizi uşaqların təbəssümü əhatə etsin, doğmalarınız və yaxınlarınıza xoşbəxtlik və firavanlıq nəsib olsun!

*Hörmətlə,*

***Dmitri LİXANOV,***
***Rusiya Uşaq Fondunun sədri, Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, Rusiyanın Əməkdar jurnalisti***

❖ ❖ ❖

Çox hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz görkəmli dövlət xadimisiniz. Sizin çoxillik ali dövləti fəaliyyətiniz Azərbaycan Respublikasının suverenliyinin, beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, rifahının yaxşılaşdırılmasına yönəlib.

Həyatını idmanın inkişafına, gənc nəslin yetişdirilməsinə və sağlam həyat tərzinin gücləndirilməsinə həsr etmiş bir insan kimi mən Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafına göstərdiyiniz diqqətə dərin hörmətlə yanaşıram.

Sizin rəhbərliyinizlə ölkə genişmiqyaslı beynəlxalq yarışlardan tutmuş gənc istedadların sistemli şəkildə dəstəklənməsinə qədər əsl güclü idman dövlətinə çevrilib. Sizin müdrikliyiniz, qətiyyətiniz və ənənələrə sadiqliyiniz Azərbaycan xalqı üçün sabitliyi, tərəqqini və layiqli gələcəyi təmin edir. Ölkələrimiz arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, həmçinin əməkdaşlığın gənclər üçün geniş üfüqlər açdığı humanitar və idman sahələrinə verdiyiniz töhfələri xüsusi qeyd edirəm.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, sülh və firavanlıq arzulayıram. Qoy hər gününüz gözəl işlərlə, yaxınlarınızın dəstəyi ilə və sabaha inamla dolu olsun!

*Dərin hörmət və minnətdarlıqla,*

***İrina VİNER,***
***Rusiya Federasiyasının Əmək qəhrəmanı, Rusiyanın İctimai Palatasının Bədən Tərbiyəsi, İdman və Sağlam Həyat Tərzi üzrə Komissiyasının sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Mərmərə Qrupu Vəqfi adından zati-alinizi doğum gününüz münasibətilə təbrik edirəm. Bu il həm də Sizin xalqa bəxş etdiyiniz Zəfər Gününün beşinci ildönümünü qeyd etdik. Türk dünyası qarşısında göstərdiyiniz yüksək xidmətlərə görə Sizə təşəkkür edirik.

Zati-alinizə, həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbriklərimizi çatdırırıq.

Sizə, ailənizə və qardaş Azərbaycan xalqına qarşıdan gələn 2026-cı ildə cansağlığı, səadət, rifah, sülh və əmin-amanlıq arzulayırıq.

*Hörmətlə,*

***Akkan SUVER,***
***Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Sizin dövlət başçısı kimi fəaliyyətiniz bir liderin öz xalqına və ölkəsinə sadiqlik nümunəsidir. Siz Azərbaycan xalqında ruh yüksəkliyi yaratmış, onun birliyini gücləndirmisiniz.

Sizə möhkəm cansağlığı, bol enerji və yeni nailiyyətlər arzulayıram.

Mən 10 il əvvəl TÜRKPA-nın baş katibinin müavini kimi Bakıda işləmişəm və Azərbaycan hər zaman mənim qəlbimdədir.

*Dərin hörmətlə,*

***Mels SEMGALİYEV,***
***Türk Dövlətləri Parlament Assambleyasının baş katibinin sabiq müavini***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin müdrikliyiniz, uzaqgörənliyiniz, yorulmaz səyləriniz Azərbaycanın inkişafının etibarlı əsasını təşkil edir.

Sizə möhkəm cansağlığı, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə tükənməz enerji və yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Vladimir LİSİN,***
***Rusiya Federasiyası Atıcılıq İttifaqının Qəyyumlar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə və gözəl ailənizə möhkəm cansağlığı, rifah, qardaş Azərbaycan xalqının firavanlığı naminə gördüyünüz işlərdə böyük uğurlar arzulayıram. Siz və ailəniz dahi Heydər Əliyevin ideyalarını yaşadırsınız.

İstər Azərbaycanın inkişafı istiqamətində, istərsə də beynəlxalq miqyasda çoxşaxəli fəaliyyətinizdə əldə etdiyiniz mühüm nailiyyətlərdən qürur duyuruq.

*Dərin hörmət və ehtiramla,*

***David APTSİAURİ,***
***Gürcüstanın xarici işlər nazirinin sabiq müavini, fövqəladə və səlahiyyətli səfir, professor***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Britaniya Peşəkarları Assosiasiyası adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyiniz altında ölkəmiz çoxlu nailiyyətlər əldə etmişdir. Xüsusilə iqtisadiyyatın müxtəlif sahələrində inkişaf, eləcə də sosial infrastrukturun gücləndirilməsi Sizə olan inamı daha da artırmışdır. Uğurlu siyasətiniz beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu getdikcə gücləndirir.

Cənab Prezident, Sizə cansağlığı, xoşbəxtlik, gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq.

İnanırıq ki, Sizin rəhbərliyinizlə Azərbaycan daha da irəliləyəcək və xalqımızın rifahı üçün yeni gözəl imkanlar yaranacaqdır.

*Hörmətlə,*

***Azərbaycan Britaniya Peşəkarları Assosiasiyasının təşkilat komitəsi:***
***Dr. İlhamə CƏFƏRLİ (təsisçisi və sədr), akademik İradə HÜSEYNOVA, professor Səyyarə İBADULLAYEVA, professor Qərib MÜRŞÜDOV, professor Kamran MƏLİKOV, professor Atilla SENAYLI, dr. Rəşad HACIYEV, dr. Əsmər CÜMŞÜDOVA, dr. Ayna VERDİYEVA, dr. Aygün BƏDƏLOVA, Emin CƏFƏR***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ulu Öndərimizin adını daşıyan Dünya Boks Komitəsinin idmançıları adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimiyyətlə təbrik edir, zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan Respublikasının əldə etdiyi nailiyyətlər bizi olduqca sevindirir. İnanırıq ki, Siz hələ ölkəmizə və xalqımıza çox uğurlar qazandıracaq, yeni-yeni zəfərlər bəxş edəcəksiniz.

Fürsətdən istifadə edərək, Sizi həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik.

Sizə möhkəm cansağlığı, yorulmaz fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətə,*

***Yaşar NİFTƏLİYEV,***
***Almaniyada fəaliyyət göstərən Heydər Əliyev adına Dünya Boks Komitəsinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dayanıqlı inkişaf, beynəlxalq nüfuzun möhkəmlənməsi və milli maraqların ardıcıl şəkildə qorunması yolunda mühüm nailiyyətlər əldə etmişdir. Dövlətə və xalqa xidmətiniz, qətiyyətli mövqeyiniz və uzaqgörən siyasətiniz ölkəmizin bu gününü və gələcəyini formalaşdıran əsas sütunlardan biridir.

Bu təbriki Sizə dərin həmrəylik hissi ilə çatdıraraq, ətrafınızda sıx birləşmiş xalqımızın milli dəyərlərə sədaqətinin və daha güclü Azərbaycan naminə iradəsinin daim möhkəm olmasını arzulayırıq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, uzun ömür, xalqımızın rifahı naminə ali dövləti fəaliyyətinizdə davamlı nailiyyətlər arzu edirik.

*Dərin hörmət və ehtiramla,*

***Ağarəhim QULİYEV və Eldəniz ƏLƏKBƏRZADƏ,***
***Fransada fəaliyyət göstərən "Avey dueti" musiqi qrupunun yaradıcıları***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edir, zati-alinizə uzun ömür, möhkəm cansağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

Bu gün Sizin - öz xalqının müdrik liderinin, vətənpərvər və fədakar, görkəmli siyasi xadiminin rəhbərliyi ilə Azərbaycan şanlı zirvələr fəth edir, ölkənin beynəlxalq arenada nüfuzu, etibarı getdikcə artır. Siz xalqına zəfər sevinci bəxş etmiş, ölkəsinə qalib ölkə statusu qazandırmış tarixi şəxsiyyətlərdənsiniz və buna görə də yaddaşlarda, qəlblərdə əbədi yaşayacaqsınız.

Bütün həyatını xalqımızın hərtərəfli inkişafı naminə mübarizələrə həsr etmiş Ümummilli Liderimizin arzuları müdrik siyasi dühanız sayəsində çin olmuş, Azərbaycan dünyaya Günəş kimi doğmuşdur.

Qədirbilən xalqımız, bütün dünya azərbaycanlıları öz əvəzolunmaz liderinə, "dəmir yumruq"lu sərkərdəsinə güvənir və Azərbaycanın işıqlı sabahına, daha sürətli tərəqqisinə məhz Sizin rəhbərliyinizlə irəliləməyin mümkün olduğuna inanır.

Cənab Prezident, Sizinlə fəxr edirik. Allah Sizi qorusun!

*Hörmətlə,*

***Fəxrəddin YARIYEV,***
***Rusiyanın Stavropol vilayətində fəaliyyət göstərən Azərbaycan Milli Mədəniyyət Mərkəzi "Odlar Yurdu" diaspor təşkilatının rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Rusiyanın Primorsk vilayətində yaşayan azərbaycanlılar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin qətiyyətli liderliyiniz, uzaqgörən siyasətiniz və xalqa xidmət prinsipləriniz ölkəmizin inkişafına, sabitliyinin möhkəmlənməsinə və beynəlxalq nüfuzunun artmasına mühüm töhfələr verir.

Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

*Hörmətlə,*

***Ramiz ZEYNALOV,***
***Rusiyanın Primorsk vilayəti Azərbaycan Diasporu "Dostluq" İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyi adından ən səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirik.

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, ölkənin daha sürətli inkişafı, dünyada nüfuzunun artması istiqamətində apardığınız qətiyyətli siyasət bütün dünya azərbaycanlıları tərəfindən qürurla izlənilir.

Bu il biz Sizin müdrik rəhbərliyiniz və Ali Baş Komandanlığınızla qazanılan, uzun illər həsrətlə gözlənilən, tarixi ədalətin bərpasını təmin edən möhtəşəm Zəfərin beşinci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Zəfər Günü təkcə Azərbaycanın deyil, bütün türk dünyasının qürur günüdür.

Cənab Prezident, fürsətdən istifadə edərək Sizi hər bir azərbaycanlını bir amal, bir bayraq və bir ideya ətrafında birləşdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı bu birliyi dövlətə sədaqət, milli-mənəvi dəyərlərə bağlılıq və Vətən eşqi ilə qorumağa davam edir.

Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan Respublikasına davamlı inkişaf və əmin-amanlıq arzu edirik.

*Dərin hörmətlə,*

***Şəntürk XOŞGÜL,***
***Manisa Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi Antalya azərbaycanlıları adından doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə xoş arzularımızı və dərin ehtiramımızı çatdırıram.

Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə misilsiz nailiyyətlərə imza atmışdır. Vətən müharibəsində əldə edilən şanlı Zəfər tariximizin ən parlaq, qızıl hərflərlə yazılmış səhifələrindən biridir və xalqımızın milli qürurunu, sarsılmaz birliyini, dövlətə olan sonsuz inamını bütün dünyaya nümayiş etdirmişdir.

Bu tarixi Qələbə nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa edilmiş, bölgəmizdə yeni geosiyasi və geoiqtisadi reallıqlar yaranmışdır. Bu möhtəşəm nəticələr məhz Sizin uzaqgörən, qətiyyətli və prinsipial siyasətinizin məntiqi yekunudur. Sizin rəhbərliyinizlə aparılan kompleks və hərtərəfli islahatlar Azərbaycanın iqtisadi dayanıqlılığını, hərbi qüdrətini və beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə gücləndirmişdir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, dövlətimizə və xalqımıza xidmət yolunda daha böyük nailiyyətlər, yeni-yeni zəfərlər arzulayıram. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəyi daha parlaq, daha təhlükəsiz və daha firavan olacaqdır.

Fürsətdən istifadə edərək, Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirəm. Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş bu əlamətdar gün birliyimizin daha da güclənməsi prosesinə stimul verən, böyük ictimai-siyasi əhəmiyyət kəsb edən bayramdır. Sizin sayənizdə həmrəylik ideyası artıq təməl dövlətçilik prinsiplərindən birinə çevrilmişdir.

*Ən dərin hörmət və ehtiramla,*

***Azər İSMAYILOV,***
***Antalya Azərbaycan Mədəniyyət və Həmrəylik Dərnəyinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə İsveç-Azərbaycan Federasiyası adından səmimi-qəlbdən təbrik edirəm. Sizin müdrik və qətiyyətli rəhbərliyinizlə Azərbaycan dövləti böyük inkişaf yolu keçmiş, ölkəmizin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmışdır.

Dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması, xalqımızın rifahının yüksəldilməsi üçün gördüyünüz misilsiz işlər hər bir azərbaycanlıda böyük qürur hissi yaratmışdır. Sizin uzaqgörən siyasətinizin qarşıdakı illərdə Azərbaycana yeni-yeni nailiyyətlər, zəfərlər qazandıracağına inanırıq.

Sizə möhkəm cansağlığı, ailə səadəti, Azərbaycanın hər zaman yüksək zirvələr fəth etməsi, xalqın rifahının daha da yüksəldilməsi istiqamətində çoxşaxəli fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Sevda DADAŞOVA,***
***İsveç-Azərbaycan Federasiyasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Sizin Azərbaycan xalqının rifahı naminə misilsiz fəaliyyətinizi alqışlayırıq.

Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, torpaqlarımızın işğaldan azad edilərək ölkəmizin ərazi bütövlüyünün bərpa olunması, soydaşlarımızın azad edilmiş ərazilərə qayıdışının həyata keçirilməsi Sizin uğurlu daxili və xarici siyasətinizin nəticələridir.

Sizə cansağlığı, xoşbəxtlik, şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Tanrı Sizi qorusun!

*Hörmətlə,*

***Azər KƏRİMOV,***
***Çexiya-Azərbaycan Elm və Mədəniyyət Mərkəzinin sədri, professor***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam. Sizin rəhbərliyiniz altında Azərbaycanın qazandığı nailiyyətlər uğurlu fəaliyyətinizin sübutudur.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, bol enerji, irəliyə doğru addımlarınızda davamlı uğurlar arzulayıram. Zati-aliniz və əziz aiəniz daim sevinc dolu anlar yaşayasınız.

Qoy xidmətlərinizin uğurlu nəticələri Azərbaycan xalqına hər zaman fayda verməkdə davam etsin!

*Dərin hörmətlə,*

***Aaron FRENKEL,***
***israilli iş adamı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyi (AZEBİ) adından səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Biz Gürcüstanda yaşayan azərbaycanlılar Sizin qayğınızı və dəstəyinizi hər zaman hiss edir, bunu yüksək qiymətləndiririk.

Azərbaycan dövləti Sizin rəhbərliyinizlə böyük uğurlar qazanır, beynəlxalq arenada nüfuzunun artırılması yolu ilə irəliləyir. Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyi olaraq Sizin həyata keçirdiyiniz məqsədyönlü siyasəti dəstəkləyir və bundan sonra da dəstəkləyəcəyik.

Cənab Prezident, Sizə möhkəm cansağlığı və firavanlıq, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Ən dərin ehtiramımızı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Nəriman QURBANOV,***
***Gürcüstanın Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və Azərbaycan Respublikasının daha da inkişafı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

Sizin uzaqgörən, qətiyyətli və müdrik rəhbərliyinizlə Azərbaycan dövləti mühüm tarixi mərhələlərdən uğurla keçmiş, beynəlxalq aləmdə nüfuzunu və mövqeyini daha da möhkəmləndirmişdir. Xüsusilə Ali Baş Komandan kimi rəhbərliyinizlə şanlı Azərbaycan Ordusunun 44 gündə qazandığı Zəfər nəticəsində Qarabağın işğaldan azad edilməsi xalqımızın çoxəsrlik tarixində müstəsna yer tutan, qürurverici və taleyüklü hadisə olmuşdur.

Bu tarixi Qələbə milli birlik və həmrəyliyin, güclü dövlət iradəsinin və Sizin sarsılmaz liderliyinizin parlaq təzahürüdür. Azad edilmiş torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gələcəyinə olan inamı daha da gücləndirir.

Sizə bu şərəfli yolda tükənməz enerji və davamlı nailiyyətlər arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

***Rezo HƏSƏNOV,***
***Gürcüstanda fəaliyyət göstərən Qafqaz Hüquq və İnteqrasiya Mərkəzinin direktoru***

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Qardabani Təhsil və İnteqrasiya Mərkəzinin kollektivi adından Sizə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırım.

Sizin uzaqgörən və prinsipial rəhbərliyiniz Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artmasına, xaricdə yaşayan azərbaycanlıların milli kimliyinin, dilinin və mədəni dəyərlərinin qorunub saxlanılmasına güclü stimul vermişdir. Bu diqqət və qayğı Gürcüstanda yaşayan soydaşlarımız tərəfindən də böyük minnətdarlıq hissi ilə qarşılanır.

Gürcüstan və Azərbaycan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətləri regionda sülhün, sabitliyin və qarşılıqlı etimadın möhkəmlənməsində mühüm rol oynayır. Xüsusilə qeyd etmək istərdim ki, bu münasibətlər Gürcüstanda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının cəmiyyətə inteqrasiyası, multikultural dəyərlərin təşviqi və xalqlarımız arasında humanitar körpülərin qurulması baxımından mühüm əhəmiyyət daşıyır.

Əminik ki, Sizin rəhbərliyinizlə Gürcüstan-Azərbaycan münasibətləri gələcəkdə də yüksələn xətlə inkişaf edəcək, xaricdə yaşayan soydaşlarımızın birlik və həmrəyliyi daha da möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uzun ömür, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Çiçək HÜSEYNOVA,***
***Qardabani Təhsil və İnteqrasiya Mərkəzinin direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Sizi doğum gününüz münasibətilə "Azərbaycan Mərkəzi" İctimai Fondunun kollektivi adından səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımızı çatdırıram.

Zati-alinizin müdrik rəhbərliyi, xalqımıza göstərdiyiniz yüksək diqqət və qayğı, Vətənimizin siyasi, iqtisadi və mədəni inkişafı naminə yorulmaz fəaliyyətiniz hər bir azərbaycanlı üçün iftixar mənbəyidir.

Həyata keçirdiyiniz uzaqgörən siyasət, milli maraqlara sarsılmaz sədaqətiniz, Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmlənməsində əvəzsiz rolunuz Sizə dünya miqyasında böyük hörmət və ehtiram qazandırmışdır.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, ailə səadəti və Vətənimizin tərəqqisi naminə bütün işlərinizdə yeni uğurlar arzulayıram.

Zati-alinizin rəhbərliyi ilə doğma Azərbaycanımızın daha da qüdrətlənəcəyinə, xalqımızın rifahının daim yüksələcəyinə inamımız sonsuzdur.

*Hörmətlə,*

***İlkin ORUCOV,***
***Qazaxıstanda fəaliyyət göstərən "Azərbaycan Mərkəzi" İctimai Fondunun direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi Qırğız Respublikasında yaşayıb fəaliyyət göstərən azərbaycanlılar adından doğum gününüz münasibətilə dərin hörmət və ehtiramla təbrik edirik.

Sizin müdrik, uzaqgörən və qətiyyətli rəhbərliyinizlə Azərbaycan Respublikası son illərdə hərtərəfli inkişaf yolu keçmiş, dövlət müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmizin siyasi, iqtisadi və sosial sahələrdə qazandığı uğurlar beynəlxalq miqyasda yüksək dəyərləndirilmişdir.

Biz, Qırğızıstanda yaşayan azərbaycanlılar əminik ki, Qırğızıstan və Azərbaycan arasında siyasi, iqtisadi-ticari və mədəni-humanitar əməkdaşlıq bundan sonra da xalqlarımızın rifahı naminə möhkəmlənəcək və dərinləşəcəkdir.

Cənab Prezident, Sizin həyat yolunuz təkcə dövlət məsuliyyəti deyil, bu yol həm də xalqın etimadı, ümidləri, tarixi və gələcəyidir, onun sevgisidir.

Bu, çox ağır, eyni zamanda çox dəyərli bir məsuliyyətdir və Siz bunun öhdəsindən layiqincə gəlirsiniz.

Sizə doğum günü təbrikimizi çatdırmaqla yanaşı, həm də verdiyiniz dayaq hissinə, sabaha olan əminliyə və ədalətin hər zaman qalib gələcəyinə olan inama görə səmimi minnətdarlığımızı bildiririk.

Eyni zamanda Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirik.

*Hörmətlə,*

***Xansıvar BAXŞƏLİYEV,***
***Qırğızıstandakı "Birlik" Azərbaycanlıların İctimai Birliyinin sədri***

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564 (Cild I); 2024, № 7, maddə 771, № 8, maddə 932; 2025, № 1, maddə 16, № 2, maddə 94, № 6, maddə 523) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin birinci hissəsi üzrə:

1.1.1. 5-ci bəndə "motosikletlərin" sözündən sonra "və mopedlərin" sözləri əlavə edilsin;

1.1.2. 17-ci bənddən "(nəqliyyat vasitələri mexaniki və insanın, yaxud heyvanın əzələ enerjisi ilə hərəkətə gətirilən nəqliyyat vasitələrinə bölünür)" sözləri çıxarılsın;

1.1.3. 27-ci bəndə "iş" sözündən əvvəl "kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla elektrik mühərriki olan və ya" sözləri, "asma" sözündən əvvəl "bu Qanunun 27-ci, 29-cu, 33-cü, 34-cü və 37-ci maddələrinin tələbləri istisna olmaqla" sözləri əlavə edilsin;

1.2. 27-ci maddə üzrə:

1.2.1. I hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının ərazisində bütün mexaniki nəqliyyat vasitələri və onların qoşquları, habelə mopedlər bu Qanunla və bu Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiq etdiyi əsasnamə ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilərək uçota alınırlar.";

1.2.2. II hissə üzrə:

1.2.2.1. birinci abzasa "vasitələrinin" sözündən sonra "və mopedlərin" sözləri əlavə edilsin;

1.2.2.2. 1-ci bəndə "yarımqoşqularının" sözündən sonra ", habelə mopedlərin" sözləri əlavə edilsin;

1.2.3. IV hissənin 4-cü bəndinə "vasitəsini" sözündən sonra "və mopedi" sözləri əlavə edilsin;

1.3. 29-cu maddənin I hissəsinin birinci cümləsinə "motosikletlərdə," sözündən sonra "mopedlərdə," sözü əlavə edilsin;

1.4. 33-cü maddə üzrə:

1.4.1. II hissənin 2-ci bəndindən ", mopedi" sözü çıxarılsın;

1.4.2. IV hissədə ", asma mühərrikli velosiped və moped" sözləri "və asma mühərrikli velosiped" sözləri ilə əvəz edilsin;

1.5. 34-cü maddə üzrə:

1.5.1. II hissə üzrə:

1.5.1.1. birinci abzasda "Mexaniki nəqliyyat" sözləri "Nəqliyyat" sözü ilə əvəz edilsin;

1.5.1.2. 1-ci bəndə "motosikletləri," sözündən sonra "mopedləri," sözü əlavə edilsin;

1.5.2. IV hissənin 1-ci bəndinə birinci halda "mühərrikinin" sözündən əvvəl "mopedləri, habelə elektrik mühərriki olan və ya" sözləri əlavə edilsin;

1.6. 37-ci maddənin I hissəsinin 6-cı bəndində hər iki halda "motoşlemi" sözü "motodəbilqəni" sözü ilə əvəz edilsin;

1.7. 41-ci maddənin birinci hissəsinin 3-cü bəndində "isə motoşlem" sözləri "və mopeddə motodəbilqə" sözləri ilə əvəz edilsin;

1.8. 46-cı maddə üzrə:

1.8.1. I hissənin birinci cümləsində "və mopedlər" sözləri ", asma mühərrikli velosipedlər və oxşar xüsusiyyətli digər nəqliyyat vasitələri (mopedlər istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.8.2. II hissə üzrə:

1.8.2.1. birinci abzasda "və moped" sözləri ", asma mühərrikli velosiped və oxşar xüsusiyyətli digər nəqliyyat vasitəsi (moped istisna olmaqla)" sözləri ilə əvəz edilsin;

1.8.2.2. 2-ci bənddə "velosipedin və mopedin" sözləri "nəqliyyat vasitəsinin" sözləri ilə, "velosipedi, mopedi" sözləri "nəqliyyat vasitəsini" sözləri ilə əvəz edilsin;

1.8.2.3. 6-cı bənddə "velosipeddən" sözü "nəqliyyat vasitəsindən" sözləri ilə əvəz edilsin;

1.8.2.4. 7-ci bənddə "və ya mopedlə" sözləri ", asma mühərrikli velosiped və ya oxşar xüsusiyyətli digər nəqliyyat vasitələri (mopedlər istisna olmaqla) ilə" sözləri ilə, "və mopedləri, eləcə də velosipedlərlə və mopedlərlə" sözləri ", asma mühərrikli velosipedləri və oxşar xüsusiyyətli digər nəqliyyat vasitələrini (mopedlər istisna olmaqla), eləcə də həmin nəqliyyat vasitələri ilə" sözləri ilə əvəz edilsin;

1.8.3. III hissədən "və moped" sözləri çıxarılsın;

1.8.4. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

"IV. Mopedlər yol nişanları və ya yol nişanlanmasının tələblərinə riayət etməklə, mümkün qədər yolun sağ kənar zolağında hərəkət etməlidirlər. Bu Qanunun 37-ci maddəsinin I və IV hissələrində, V hissəsinin 2-4-cü bəndlərində, VI hissəsinin 2-ci bəndində nəzərdə tutulmuş tələblər moped sürücülərinə də şamil edilir.";

1.9. 55-ci maddənin VI hissəsinin 3-cü bəndinə "motosikletlərlə" sözündən sonra ", mopedlərlə" sözü əlavə edilsin;

1.10. 56-cı maddənin IX hissəsi üzrə:

1.10.1. 1-ci bənddə "və motosikletin" sözləri ", motosikletin və mopedin" sözləri ilə əvəz edilsin;

1.10.2. 2-ci bəndə "motosikletin" sözündən sonra "və mopedin" sözləri əlavə edilsin;

1.11. 57-ci maddəyə aşağıdakı məzmunda V-I hissə əlavə edilsin:

"V-I. Motosikletin və mopedin uzunu və ya eni üzrə qabaritlərindən 0,5 metrdən artıq kənara çıxan və ya motosikleti, mopedi idarə etməyə mane olan yük aparmaq qadağandır.";

1.12. 65-ci maddənin V hissəsinin üçüncü cümləsinə "motosikletlərin" sözündən sonra ", mopedlərin" sözü əlavə edilsin;

1.13. 73-cü maddənin VII hissəsinin "Qeyd"inin 3-cü bəndinə "motosikletlər" sözündən sonra "və mopedlər" sözləri əlavə edilsin.

**Maddə 2.** Bu Qanun dərc edildiyi gündən 3 (üç) ay sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Yol hərəkəti haqqında"Azərbaycan Respublikası Qanununun 27-ci maddəsinin I hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 27-ci maddəsinin I hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətindəAzərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542, № 11, maddələr 1018, 1036) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə (birinci halda)"1-ci hissəsində" sözləri "I hissəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bəndə (birinci halda) "ikinci cümləsində," sözlərindən sonra "27-ci maddəsinin I hissəsinin birinci cümləsində," sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326 (Cild I); 2024, № 2, maddə 155, № 5 (I kitab), maddə 529; 2025, № 6, maddə 552) ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nın" Qeydiyyata alınan əmlak növləri" sütununun 2-ci hissəsinə "yarımqoşquları" sözündən sonra ", habelə mopedlər" sözləri əlavə edilsin.

5. Bu Fərmanın 1-ci, 3-cü və 4-cü hissələri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli Qanunu ilə eyni gündə qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2025-ci il*

# "Azərbaycan diplomatiyası regional və Avrasiya səviyyəsində etibarlı aktor olduğunu təsdiqləyir"

**"Azərbaycanın son dövrlərdə həyata keçirdiyi diplomatiya yalnız müvəqqəti və ya dövri əlaqələr kimi qiymətləndirilməməlidir".**

Bu barədə AZƏRTAC-a açıqlamasında türkiyəli ekspert, Beynəlxalq Münasibətlər üzrə mütəxəssis Mehmet Emir Aksoy bildirib.

O qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan intensiv danışıqlar Bakının Qafqaz mərkəzli geosiyasi mövqeyini Asiya-Avropa xəttində davamlı və çoxşaxəli diplomatik körpüyə çevirmə strategiyasının təbii nəticəsidir: "Azərbaycan rəhbərliyi klassik diplomatik reflekslərin sərhədlərini aşaraq "eyni zamanda əlaqə - eyni zamanda tarazlıq" prinsipinə əsaslanır. Moskva, Ankara, Tehran, Brüssel və Mərkəzi Asiya paytaxtları ilə aparılan diplomatiya Azərbaycanın yalnız regional aktor olmadığını, müxtəlif güc mərkəzləri arasında tarazlıq qura bilən rasional dövlət düşüncəsinə malik olduğunu göstərir".

Mehmet Emir Aksoy bu diplomatik fəaliyyətin passiv vasitəçilik deyil, aktiv və yönverici diplomatik mexanizm kimi xarakterizə olunduğunu bildirib. Eyni zamanda Azərbaycanın diplomatiyası və hərbi potensialı arasında sistemli sinxronizasiyanın vacibliyini vurğulayan ekspert qeyd edib ki, 2020-ci il II Qarabağ müharibəsi sonrası ortaya çıxan vəziyyət göstərdi ki, Azərbaycan yalnız döyüş meydanında qalib gəlməklə kifayətlənmir, eyni zamanda əldə etdiyi nəticələri masada qorumağı bacarır.

Türkiyəli ekspertin sözlərinə görə, Azərbaycan ordusunun modernləşdirilməsi, texnoloji qabiliyyəti və nizam-intizamlı strukturu diplomatik görüşlərin arxa planında səssiz, lakin effektiv tarazlıq elementi rolunu oynayır. Bu, Azərbaycanı yalnız Qafqazda deyil, Xəzər hövzəsi, Orta Asiya və Cənubi Qafqaz bölgələrində də etibarlı və sabitlik gətirən aktora çevirir.

"Asiyadan Avropaya uzanan enerji, logistika və nəqliyyat xətlərinin mərkəzində yerləşən Azərbaycan bu strateji mövqeyini artıq yalnız coğrafi mövqeyi ilə deyil, ağıllı diplomatiya və güclü ordu potensialı ilə möhkəmləndirir. Prezident İlham Əliyevin son dövrdəki diplomatiyası bu bütüncül dövlət anlayışının real sahəyə tətbiqi kimi qiymətləndirilməlidir", - deyə Mehmet Emir Aksoy bildirib.

Ekspert əlavə edib ki, bu gün Bakı, böhranların ardınca sürüklənən deyil, balansları düzgün qiymətləndirən, zamanlamanı dəqiq seçən və gücü ilə diplomatiyanı səmərəli şəkildə sintez edən mərkəz kimi formalaşıb. Bu vəziyyət isə Azərbaycanı gələcəkdə yalnız regional deyil, Avrasiya miqyasında da önəmli aktor kimi təsdiqləyir.

# “İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 411** **Bakı şəhəri, 25 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Tədbirlər Planının 8.1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. Dövlət orqanları, dövlət adından yaradılan publik hüquqi şəxslər, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və digər büdcə təşkilatları (bundan sonra - dövlət qurumları) məsul olduqları informasiya məkanlarında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin qarşısının alınması məqsədilə 6 ay müddətində informasiya təhlükəsizliyi riskləri reyestrinin (bundan sonra - risklər reyestri) bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş "İnformasiya təhlükəsizliyi riskləri reyestrinin aparılma Qaydası"nın (bundan sonra - Qayda) tələblərinə uyğun formalaşdırılmasını təmin etsinlər.

3. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 8.1.1.1-ci yarımbəndinə əsasən hazırlanmış "İnformasiya məkanında informasiya təhlükəsizliyinə və kibertəhlükəsizliyə təhdidlərin kateqoriyalar üzrə təsnifatlaşdırılmış toplusu"nun daxil edilməsi və daim yenilənməsi məqsədilə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin internet informasiya ehtiyatında "Təhdidlər və həllər" kataloqu yaradılsın.

4. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

4.1. bu Qərarın 3-cü hissəsində nəzərdə tutulmuş "Təhdidlər və həllər" kataloqunun mütəmadi yenilənməsini təmin etsin;

4.2. dövlət qurumlarında risklər reyestri formalaşdırıldıqdan sonra onların Qaydanın tələblərinə uyğunluğunun qiymətləndirilməsini aparsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin yanvar ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı | 06 |
| 2. | **Ədliyyə naziri** Fərid Əhmədov | Salyan | Salyan, Neftçala, Biləsuvar, Şirvan, Hacıqabul | 09 |
| 3. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Şabran | Şabran, Siyəzən, Xızı | 09 |
| 4. | **Baş prokuror** Kamran Əliyev | Şirvan | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | 16 |
| 5. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Masallı | Masallı, Lerik | 16 |
| 6. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Cəlilabad | Cəlilabad, Masallı, Biləsuvar, Salyan | 16 |
| 7. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Neftçala | Neftçala, Salyan, Şirvan, Hacıqabul | 16 |
| 8. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Sumqayıt | Sumqayıt, Abşeron, Qubadlı, Zəngilan | 19 |
| 9. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | Hacıqabul | Hacıqabul, Şirvan | 21 |
| 10. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Tərtər | 22 |
| 11. | **Energetika naziri** Pərviz Şahbazov | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı, Cəlilabad | 23 |
| 12. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Sumqayıt | Sumqayıt, Qubadlı | 23 |
| 13. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Ağdam (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Laçın | 23 |
| 14. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Oğuz | Oğuz, Şəki, Qax, Zaqatala, Balakən, Qəbələ | 23 |
| 15. | **Mədəniyyət naziri** Adil Kərimli | Ağsu | Ağsu, Şamaxı, Qobustan, İsmayıllı | 23 |
| 16. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Şirvan | Şirvan, Hacıqabul | 23 |
| 17. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Xızı | Xızı, Siyəzən | 23 |
| 18. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Ucar | Ucar, Kürdəmir, Zərdab | 23 |
| 19. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | Balakən | Balakən, Zaqatala | 23 |
| 20. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Mingəçevir | Mingəçevir, Yevlax | 23 |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Qobustan | Qobustan, Şamaxı, Ağsu, İsmayıllı | 26 |
| 22. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Göyçay | Göyçay, Ağdaş | 29 |
| 23. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 29 |
| 24. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Kürdəmir | Kürdəmir, Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab | 30 |
| 25. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Şabran | Şabran, Siyəzən, Xızı | 30 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında" 2025-ci il 30 iyun tarixli 425 nömrəli və "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 412**

**Bakı şəhəri, 25 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında" 2025-ci il 30 iyun tarixli 425 nömrəli və "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidmətinin, Azərbaycan Respublikası müdafiə, daxili işlər, ədliyyə, fövqəladə hallar nazirliklərinin, gömrük orqanlarının, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin hərbi qulluqçularını, sıravi və rəis heyətinə mənsub şəxslərini ərzaq payı və pul vəsaiti ilə təmin etmək haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 19 may tarixli 271 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) adında və 6-cı hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 2, maddə 242, № 5 (II kitab), maddə 612, № 9, maddə 1101, № 11, maddə 1274) ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 1.2.6-cı yarımbəndində, 4.1-ci bəndinin üçüncü və dördüncü abzaslarında "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

3. "Azərbaycan Respublikası hərbi qulluqçularının və hərbi vəzifəlilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 17 fevral tarixli 67 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) 2-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

4. "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyət haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 12 aprel tarixli 66 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 273 (Cild I) ikinci hissəsində "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 2 sentyabr tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 682 (Cild I); 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Borcların icra qeydləri əsasında mübahisəsiz qaydada alınmasına əsas olan sənədlərin Siyahısı"nın 34-cü və 35-ci hissələrinin ikinci abzaslarında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I); 2024, № 7, maddə 930; 2025, № 5, maddə 507, № 9, maddə 870) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.5-ci, 1.7-ci və 1.12-ci bəndlərinin dördüncü abzaslarında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 809 (Cild I); 2025, № 8, maddə 802) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadəyə görə birinci dərəcəli istehlakçıların (elektrik enerjisi təchizatının dayandırılmasına icazə verilməyən təşkilatların) Siyahısı"nın "Büdcədən maliyyələşdirilən istehlakçılar" bölməsinin yeddinci abzasında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 12 avqust tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 539 (Cild I); 2024, № 9, maddə 1101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 19 noyabr tarixli 341 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hərbi qulluqçuların və onların ailə üzvlərinin (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ailələrindən başqa) sanatoriyalarda və istirahət evlərində sanatoriya-kurort müalicəsi, pansionatlarda və turist bazalarında istirahət üçün putyovkalarla (yollayışlarla) təmin olunması Qaydası"nın 2-ci hissəsində "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

9. "Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 658 (Cild I); 2024, № 4, maddə 446; 2025, № 5, maddə 507) 2-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 dekabr tarixli 230 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1230 (Cild I); 2024, № 1, maddə 116, № 2, maddə 208, № 5 (II kitab), maddə 612; 2025, № 4 (II kitab), maddə 406, № 5, maddə 520; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 oktyabr tarixli 316 nömrəli və 10 dekabr tarixli 385 nömrəli qərarları) ilə təsdiq edilmiş "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 4-cü kateqoriyanın "4A; 4D; 4E" bölməsinin 3-cü və 4-cü sütunlarında "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə"sözləri ilə əvəz edilsin;

10.2. "10 Hərbi təyinatlı mallar" kateqoriyası üzrə:

10.2.1. "ML1; ML2; PL5018; PL5020; PL5021; ML3; ML4; PL5030", "PL5002; PL5006; ML5; ML6" və "ML7" bölmələrinin 4-cü sütununda "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

10.2.2. "ML10" bölməsinin 4-cü sütununda (hər iki halda) "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

11. "Hərbi qulluqçulara (hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin ailəli kursantlarına) müvəqqəti mənzilin kirayəsi üçün pul kompensasiyası məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 iyul tarixli 171 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 638 (Cild I) 2-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə"sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 1 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 2, maddə 182 (Cild I); 2024, № 2, maddələr 209, 211, 233; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Radiotezliklərin ayrılması, qeydiyyatı, istifadəsi və ödənişlərin təyin olunması Qaydaları"nın 1.6-cı və 2.30-cu bəndlərində "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 iyun tarixli 96 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 701 (Cild I) ilə təsdiq edilmiş "Milli nişanların və qeydiyyat nişanlarının hava gəmisində təsviri Qaydası"nın 1.2-ci bəndinin ikinci abzasında "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 20 avqust tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 855 (Cild I) ilə təsdiq edilmiş "Tərkibində dövlət sirri təşkil edən məlumatlar olan elektron sənədlərin tərtibi, emalı və mübadiləsi üçün istifadə olunan informasiya sistemlərinin ekspertizasının keçirilməsi Qaydası"nın 2.1-ci bəndinin ikinci abzasında "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

15. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 860 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 oktyabr tarixli 322 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın 1-ci və 7-ci hissələrində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 861 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 467, № 9, maddələr 1090, 1100; 2025, № 8, maddə 802, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli və 2 dekabr tarixli 365 nömrəli qərarları) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın II bölməsinin 44-cü hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 dekabr tarixli 367 nömrəli və 3 dekabr tarixli 371 nömrəli qərarları) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 1.2-ci bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə"sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 437, 449, 467, № 9, maddə 1100; 2025, № 9, maddə 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 1 dekabr tarixli 356 nömrəli, 2 dekabr tarixli 365 nömrəli və 16 dekabr 394 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"nın "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Aparatı" sətrində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 dekabr tarixli 198 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1073 (Cild I); 2024, № 5 (II kitab), maddə 612, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Hərbi-tətbiqi və xidməti-tətbiqi idman növlərinin Siyahısı"nın "İdman növlərinin inkişafına rəhbərlik edən mərkəzi icra hakimiyyəti orqanı (aidiyyəti üzrə)" sütununda (hər iki halda) "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 noyabr tarixli 220 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1047 (Cild I) ilə təsdiq edilmiş "Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası"nın 2.1.5-ci yarımbəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 27 aprel tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 375 (Cild I) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "İnsanın immun çatışmazlığı virusu ilə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələrin Siyahısı"nın 2.4-cü bəndində "Azərbaycan Respublikası Prezidentinin təhlükəsizliyi" sözləri "dövlət mühafizəsi" sözləri ilə əvəz edilsin.

22. "Təqvim ilində, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illərində növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etməyən hərbi qulluqçuya (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin təqvim ili, habelə həqiqi hərbi xidmətdə olduğu dövrün digər təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 28 sentyabr tarixli 217 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 943 (Cild I) 2-ci hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 82; 2025, № 2, maddə 187, № 5, maddə 504) ilə təsdiq edilmiş 7 nömrəli əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı dəstələrinin, Azərbaycan Ordusunun əməliyyat (komando) briqadalarının ərzaq payı Normaları"nın "Qeydlər" hissəsinin 1.1-ci bəndində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 14 oktyabr tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1223 (Cild I); 2024, № 2, maddə 217, № 3, maddə 314, № 4, maddə 468, № 9, maddə 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 dekabr tarixli 385 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların gömrük sərhədindən keçirilməsinin güzəştli və sadələşdirilmiş Qaydaları"na 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasının müvafiq dövlət orqanları tərəfindən verilmiş icazə sənədləri təqdim edilməklə sadələşdirilmiş qaydada gömrük sərhədindən keçirilən və beynəlxalq poçt göndərişləri vasitəsilə alınan (göndərilən) mallar"ın 2-ci hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 iyul tarixli 215 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 905 (Cild I); 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş "Dövlətin müdafiəsi və təhlükəsizliyi sahəsində fəaliyyətin həyata keçirilməsi məqsədi ilə ölçmələrin vəhdətinin təmin edilməsinin xüsusiyyətləri"nin 1.1-ci bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

26. "1994-cü il fevralın 1-dən 2010-cu il iyunun 12-dək həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin dövrün təqvim illərində istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 26 dekabr tarixli 399 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 12, maddə 1675 (Cild I) 3-cü hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211 (Cild I) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nın 3.1-ci bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 20 oktyabr tarixli 333 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1246 (Cild I); 2024, № 2, maddə 233) ilə təsdiq edilmiş "Azərbaycan Ordusu və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələr üçün vətəndaşların xüsusi hərbi ixtisaslar üzrə hazırlığının təşkil edilməsi və keçirilməsi Qaydası"nın 2.3-cü və 5.1-ci bəndlərindən ", Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri çıxarılsın.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 4 aprel tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 799 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1090; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 27 noyabr tarixli 347 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mühafizə olunmalı həyat təminatlı, mühüm əhəmiyyətli obyektlərin fiziki mühafizəsi və mühəndis təhlükəsizlik sistemləri ilə təchiz edilməsi üzrə Xüsusi Tikinti Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

29.1. 1.1-ci bənddə "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

29.2. 3.1-ci bənddə "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I); 2024, № 5 (II kitab), maddə 592, № 11, maddə 1246) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin "Komissiyanın üzvləri:" hissəsinin on ikinci abzasında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

31. "Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiram göstərilən şəxslərin valideynlərinə (yaxın qohumlarına və ya qanuni nümayəndələrinə) yas mərasimlərinin təşkili üçün maliyyə yardımının göstərilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 29 sentyabr tarixli 374 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1599 (Cild I); 2024, № 5 (II kitab), maddə 612) 3-cü hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

32. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 294 nömrəli, 7 noyabr tarixli 333 nömrəli, 1 dekabr tarixli 357 nömrəli və 10 dekabr tarixli 385 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 55-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

33. "Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə Komissiyanın yaradılması barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 yanvar tarixli 24 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 107 (Cild I) "Komissiyanın üzvləri:" bölməsinin on birinci abzasında "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

34. "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan Azərbaycan Respublikasının vəzifəli şəxslərinin Siyahısı"nın, "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın və "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 322 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1189 (Cild I); 2024, № 1, maddə 112, № 3, maddə 319, № 4, maddə 443; 2025, № 2, maddə 201; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli və 3 dekabr tarixli 370 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

34.1. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarının xidmətlərindən istifadə hüququ olan xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələrinin Siyahısı"nın 1-ci hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

34.2. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının hava limanlarında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonlarından istifadə Qaydaları" üzrə:

34.2.1. 1.5-ci bənddə "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin;

34.2.2. 3.4-cü və 3.7-ci bəndlərdə "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

35. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 969 (Cild I); 2024, № 2, maddə 242, № 3, maddə 297) ilə təsdiq edilmiş "Müharibə veteranlarının reyestrinin aparılması Qaydası"nın 6.2-ci bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

36. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 5 avqust tarixli 281 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 970 (Cild I); 2024, № 2, maddə 242, № 3, maddə 297) ilə təsdiq edilmiş "Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması Qaydası"nın 6.2-ci bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

37. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddələr 448, 469, № 7, maddələr 895, 915, № 8, maddə 996, № 12 (I kitab), maddə 1326, (II kitab), maddə 1428; 2025, № 3, maddələr 273, 294, № 7, maddə 707, № 9, maddə 854) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı"nın 3-cü hissəsinin qırx üçüncü abzasında "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

38. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli 153 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 720 (Cild I); 2024, № 4, maddə 449) ilə təsdiq edilmiş "Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu Qaydası"nın 1.2.1-ci yarımbəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

39. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 avqust tarixli 297 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1280 (Cild I); 2024, № 1, maddə 95, № 3, maddə 305; 2025, № 2, maddə 204, № 9, maddə 887; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 359 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin qazpaylayıcı şəbəkəyə qoşulması və ya əlavə qaz həcmi alması Qaydası"na 5 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan qurumların Siyahısı"nın 16-cı hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

40. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I); 2024, № 3, maddə 305, № 4, maddə 450; 2025, № 2, maddə 204) ilə təsdiq edilmiş "İstilik enerjisindən istifadə qaydaları"na 5 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) Siyahısı"nın 5-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

41. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 242 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 580; 2025, № 8, maddə 802; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 dekabr tarixli 356 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların Siyahısı"nın 17-ci hissəsində "Prezidentinin Təhlükəsizlik" sözləri "Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

42. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 iyun tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 723, № 11, maddə 1255; 2025, № 5, maddə 504) ilə təsdiq edilmiş "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyaclarının meyarları və onlarla bağlı satınalmaların keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

42.1. 3.1.8-ci yarımbəndə "şəxslərin" sözündən sonra "və qorunan obyektlərin" sözləri əlavə edilsin;

42.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları üçün malların, işlərin və xidmətlərin satın alınmasını həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı"nın 9-cu hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

43. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 20 iyun tarixli 305 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 725) ilə təsdiq edilmiş "Tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması Qaydası"na 4 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan qurumların Siyahısı"nın 6-cı hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

44. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 25 iyun tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 734; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 oktyabr tarixli 316 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Elektrik şəbəkəsinə dair Qaydalar"a 12 nömrəli əlavə - "Trassanın (yolun) razılaşdırılması ilə bağlı rəyinin alınması tələb olunan orqanların (qurumların) Siyahısı"nın 7-ci hissəsində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

45. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 24 aprel tarixli 136 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 423) ilə təsdiq edilmiş"Daimi və ya müvəqqəti coğrafi zonaların təyin edilməsi ilə bağlı meyarlar"ın 4.4-cü bəndində "Respublikası Prezidentinin Təhlükəsizlik" sözləri "Respublikasının Dövlət Mühafizə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Milli Məclisin iclasında

# Patent hüquqlarının əsasları təkmilləşdirilir

**Dekabrın 26-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova iclasın əvvəlində diqqətə çatdırıb ki, dekabrın 25-də Azərbaycan sərnişin təyyarəsinin faciəli şəkildə qəzaya uğramasının ildönümü tamam oldu.**





25 dekabr tarixi xalqımızın yaddaşında milli hüzn günü kimi qalacaq. Bu faciə insan həyatının ali dəyər olduğunu və mülki aviasiyanın təhlükəsizliyi üçün dövlətlərin və beynəlxalq qurumların daşıdığı böyük məsuliyyəti bir daha xatırladır. Biz təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət, onların ailələrinə və yaxınlarına səbr diləyirik.

Sonra iclasda cari məsələlər müzakirə olunub. Müzakirələr zamanı parlamentin komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Ceyhun Məmmədov, Nizami Səfərov, Bəhruz Məhərrəmov, Naqif Həmzəyev, Müşfiq Cəfərov, Vasif Qafarov, Zaur Şükürov və Elman Nəsirov çıxış ediblər. Çıxışlarda 25 dekabr 2024-cü ildə Bakı-Qroznı reysini yerinə yetirən AZAL təyyarəsinin kənar müdaxilə nəticəsində Aktau şəhəri yaxınlığında qəzaya uğraması hadisəsi xatırlanıb. Vurğulanıb ki, baş verən faciədə Azərbaycan tərəfinin irəli sürdüyü tələblər birbaşa beynəlxalq hüquqdan qaynaqlanır və dövlətimizin milli maraqlarımızın və vətəndaşlarımızın hüquqlarının etibarlı formada təmin edilməsi ilə bağlı qətiyyətli mövqeyinə əsaslanır.

İclasda həmçinin Prezident İlham Əliyevin bu günlərdə Qarabağ səfəri çərçivəsində Ağdamda etdiyi çıxış ölkəmizin ideoloji prinsiplərinin və tarixi yaddaşının əsas istiqamətlərini əks etdirən yol xəritəsi kimi qiymətləndirilib.

Deputatlar Cənubi Qafqazda kommunikasiyaların açılmasının regional əməkdaşlığın dərinləşməsi və iqtisadi inkişafın sürətlənməsi baxımından strateji əhəmiyyətini də vurğulayıblar, uşaqların və yeniyetmələrin internet mühitində zərərli təsirlərdən qorunmasının vacibliyinə diqqət çəkiblər. Millət vəkilləri həmçinin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqinin və tətbiqinin genişləndirilməsinə xidmət etdiyini bildiriblər. Deputatlar digər aktual mövzularla bağlı da fikirlərini açıqlayıblar, bəzi təkliflərini səsləndiriblər.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri isə ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 2 məsələsinin birinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov "Patent haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, beynəlxalq təcrübəyə uyğun olaraq qanuna bir sıra yeni anlayışların daxil edilməsi təklif olunur. Layihədə ixtiraya, faydalı modelə və sənaye nümunəsinə patent alınması üçün iddia ərizəsinin verilməsi, qeydiyyatı, o cümlədən iddia sənədinin ekspertizası üzrə prosedurların asanlaşdırılması ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

Sənəddə patent almaq istəyən hüquqi və fiziki şəxslərə göstərilən xidmətlərin çevikliyinin artırılması və ekspertizanın sürətləndirilməsi məsələləri tənzimlənir. Habelə qeyd olunur ki, ixtiraların patentləşdirilməsi üçün xarici iddiaçılar özləri bir sıra prosedurları birbaşa Azərbaycanın milli patent ofisinə müraciət etməklə həyata keçirə biləcəklər.

Dəyişikliklərdə iddiaçıların iddia sənədlərinin tərtib olunmasında və verilməsində üzləşdikləri texniki çətinliklərin azaldılması ilə bağlı məsələlər də ehtiva olunur.

Qanun layihəsində işəgötürənin xidməti tapşırığı əsasında ixtira, faydalı model və sənaye nümunəsi yaradan müəllifə ədalətli qonorarın ödənilməsi üçün hüquqi bazanın formalaşdırılması nəzərdə tutulur. Belə ki, ixtiranın müəllifi patentin alınmasına və onun qüvvədə saxlanılmasına görə patentdən gəlirin əldə edildiyi tarixədək işəgötürənin çəkdiyi xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizini qonorar kimi ala biləcək.

Sənəddə habelə ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəriciləri əhatə edən sənaye mülkiyyəti sahəsində qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmasına dair dəyişiklik də nəzərdə tutulur. Qeyd olunub ki, qanun layihəsinin qəbulu ölkədə ixtira və patent fəallığını yüksəldəcək. Habelə patent alınması ilə bağlı prosedurlar sadələşdiriləcək, ixtiranın yaradıcısı olan müəllifə ödənilməli olan qonorarın məbləği əhəmiyyətli dərəcədə artacaq, əqli mülkiyyət qanunvericiliyi daha da təkmilləşəcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim olunan layihənin rəhbərlik etdiyi komitə tərəfindən dəstəkləndiyini söyləyib. Ölkəmizdə elmin və texnoloji inkişafın prioritet istiqamət kimi müəyyən edildiyini, intellektual mülkiyyətin etibarlı qorunmasının aktual olduğunu bildirib. O, Prezident İlham Əliyevin bununla bağlı səsləndirdiyi "Hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir", "Elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır", "Bu gün bizim elmimizin praktik nəticələri olmalıdır" fikirlərini bir daha xatırladıb.

Komitə sədri qeyd edib ki, patent hüquqlarının gücləndirilməsi və onun əsaslarının təkmilləşdirilməsi müəyyən edilmiş innovativ inkişaf xəttinin iqtisadi mexanizmlə tamamlanmasını təmin edir, elmin, intellektual mülkiyyətin real iqtisadi dəyər yaratmasına imkan verir. O diqqətə çatdırıb ki, qanun layihəsinin mühüm istiqamətlərindən biri terminoloji və institusional dəqiqləşmələrdir. Yeni anlayışların qanunvericilikdə təsbit edilməsi hüquqi müəyyənliyi artırır, patent prosedurlarında şəffaflığın gücləndirilməsinə xidmət edir. O, eyni zamanda patent obyektlərinin sərhədlərinin daha dəqiq müəyyən edilməsinin əhəmiyyətindən söhbət açıb. Sosial-iqtisadi baxımdan mühüm yeniliklərdən olan xidməti ixtiralarla bağlı münasibətlərin dəqiqləşdirilməsindən danışıb. Komitə sədri patent qanunvericiliyinin təkmilləşdirilməsinin elmi-innovativ inkişafın istehsalatla uzlaşdırılması üçün hüquqi və institusional çərçivə yaratdığını bildirib.

Müzakirələr zamanı deputatlar Vasif Qafarov, Hikmət Məmmədov, Samir Vəliyev çıxış edərək, layihənin ölkəmizdə innovativ inkişafa, elmi-texniki tərəqqiyə və əqli mülkiyyətin qorunmasına mühüm töhfə verəcəyini söyləyiblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumatı nəzərə çatdırıb. O bildirib ki, müzakirəyə təqdim olunan qanun layihəsinə əsasən, asbest və tərkibində asbest olan materiallar mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısına daxil edilir. Qeyd olunub ki, elmi araşdırmalar nəticəsində asbest və tərkibində asbest olan məhsulların insan sağlamlığı üçün ciddi təhlükə yaratdığı sübut edilib və onlar Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən kanserogen məhsullar kimi təsnifatlandırılıb.

Parlamentin komitə sədri Siyavuş Novruzov və deputat Qüdrət Həsənquliyev məsələ barədə bəzi qeydlərini səsləndiriblər. Deputat Nurlan Həsənov qaldırılan məsələlərə münasibət bildirib.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Xarici İşlər Nazirliyində cari ilin yekunlarına həsr olunan mətbuat konfransı keçirilib




**Dekabrın 26-da Azərbaycanın Xarici İşlər Nazirliyində 2025-ci ilin yekunlarına dair mətbuat konfransı keçirilib.**

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında yerli və xarici media nümayəndələri, habelə Xarici İşlər Nazirliyinin rəhbər heyəti və struktur bölmələrin rəhbərləri iştirak ediblər.

Mətbuat konfransında çıxış edən xarici işlər naziri Ceyhun Bayramov 2025-ci il üzrə xarici siyasətinin əsas istiqamətləri, milli maraqların təmin olunması məqsədilə həyata keçirilmiş diplomatik fəaliyyət və əldə olunmuş nəticələr barədə ətraflı məlumat verib.

Nazir bildirib ki, 2025-ci ildə beynəlxalq münasibətlər sistemində baş verən mürəkkəb geosiyasi proseslər fonunda Azərbaycan Respublikası müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasət kursunu uğurlu şəkildə davam etdirib, çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq nüfuzunu və təsir imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

C.Bayramov qeyd edib ki, əvvəlki illərdə olduğu kimi şanlı Zəfərin 5 illiyinin qeyd olunduğu 2025-ci ildə də regionda dayanıqlı və qalıcı sülhün təmin edilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri olub. Bu çərçivədə, Azərbaycan ilə Ermənistan arasında münasibətlərin suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında normallaşdırılması, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilmiş Zirvə görüşünün nəticələri, sülh sazişi layihəsinin paraflanması, eləcə də ATƏT-in Minsk prosesinin və əlaqədar strukturların bağlanması istiqamətində görülən işlər diqqətə çatdırılıb.

Həmçinin qonşu dövlətlər, Mərkəzi Asiya, Avropa, Asiya-Sakit okean, Yaxın Şərq, Afrika və Amerika regionu ölkələri ilə aparılan iş barədə məlumat verilib. İntensivləşən təmaslar istiqamətində 41 ölkə ilə müxtəlif sahələr üzrə 191 sənədin imzalandığı, 52 dövlət ilə siyasi məsləhətləşmələrin keçirildiyi diqqətə çatdırılıb. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv kimi qəbul olunmasının, habelə bir sıra ölkələrlə ikitərəfli münasibətlərin Strateji Tərəfdaşlığa yüksəldilməsinin ölkəmizin nüfuzunun və qarşılıqlı etimadın göstəricisi olduğu bildirilib.

Mətbuat konfransında Azərbaycanın 2025-ci il üzrə çoxtərəfli diplomatiya çərçivəsində fəaliyyəti barədə məlumat verən nazir, Türk Dövlətləri Təşkilatında sədrliyin Azərbaycana keçməsi, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyimizin davam etdirilməsi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında (QDİƏT) sədrliyimiz, Qoşulmama Hərəkatı Troykası çərçivəsində iştirak, COP29-a sədrliyimiz, eləcə də İqtisadi Əməkdaşlıq Təşkilatı və D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı platformaları üzrə irəli sürülmüş təşəbbüsləri xüsusi qeyd edib.

Azərbaycanın xarici ölkələrdə diplomatik təmsilçiliyinin genişləndirilməsi istiqamətində görülən tədbirlər barədə danışan nazir bu çərçivədə, cari ildə Azərbaycanın Tailand Krallığında və Oman Sultanlığındakı səfirliklərinin rəsmi açılışını, 13 illik fasilədən sonra cari ilin fevral ayında Azərbaycanın Suriyadakı səfirliyinin fəaliyyətinin bərpa edilməsini diqqətə çatdırıb.

Xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, 2025-ci ildə həyata keçirilən kompleks iqtisadi diplomatiya fəaliyyəti Azərbaycanın mühüm nəqliyyat, enerji, rəqəmsal və ticarət qovşağı kimi mövqeyinin daha da möhkəmləndirilməsinə, tərəfdaşlıq əlaqələrinin genişləndirilməsinə, eləcə də ölkəmizin regional və qlobal iqtisadi platformalarda təsir imkanlarının artırılmasına yönəlib.

Humanitar diplomatiya istiqaməti üzrə digər məsələlərlə yanaşı, mina təhdidi ilə mübarizə və itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması məqsədilə aparılan işlər diqqətə çatdırılıb.

İl ərzində ölkəmiz tərəfindən Ukraynaya və Suriyaya göstərilən humanitar yardım və ölkəmizin beynəlxalq yardım proqramları barədə iştirakçılar məlumatlandırılıb.

Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması istiqamətində 2025-ci il daxil olmaqla son illər ərzində İraqdan və Suriyadan 473-ü uşaq və 64-ü qadın olmaqla, ümumilikdə 537 vətəndaşımızın repatriasiyasının, cari ildə İsrail və İran arasında baş vermiş hərbi münaqişənin nəticəsi olaraq 9 minə yaxın Azərbaycan vətəndaşının və 82 xarici ölkə vətəndaşının ölkəmizə təxliyəsinin həyata keçirildiyi diqqətə çatdırılıb.

Xarici siyasətin informasiya təminatı sahəsində yerli və xarici media ilə əməkdaşlığın gücləndirildiyi, mətbuat konfransları, rəsmi açıqlamalar, sosial media fəaliyyəti, habelə analitik iş istiqamətində həyata keçirilən tədbirlər və Xarici İşlər Nazirliyinin kadr təminatı prosesinin təkmilləşdirilməsi məqsədilə görülən işlər vurğulanıb.

Daha sonra nazir Ceyhun Bayramov media nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb.

# Energetika naziri BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi ilə görüşüb

**Energetika naziri Pərviz Şahbazov BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva ilə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, Vladanka Andreyevanın ölkəmizdə diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar keçirilən görüşdə Azərbaycan ilə BMT arasında enerji və dayanıqlı inkişaf sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Görüşdə enerji səmərəliliyi və bərpaolunan enerjinin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) üzrə əməkdaşlığın, eyni zamanda nazirliyin fəaliyyətinin prioritet istiqamətlərindən olduğu vurğulanıb. Ölkəmizin COP29-a evsahibliyi ilə yanaşı, "yaşıl enerji" və enerji keçidi sahəsində ardıcıl siyasət və təşəbbüslərlə qlobal iqlim gündəliyində liderliyini möhkəmləndirdiyi qeyd olunub. Xüsusilə Azərbaycanın COP30-da elan etdiyi və emissiyaların 2035-ci ilə qədər 40 faiz azaldılması öhdəliyini nəzərdə tutan yeni "Milli Səviyyədə Müəyyən Edilmiş Töhfə"si (NDC) yüksək qiymətləndirilib.

Görüşdə həmçinin "DİM-in 7-ci hədəfi üzrə Azərbaycan üçün Yol Xəritəsi"nin hazırlanmasına toxunulub. Gələn ilin aprelində Bakıda keçirilməsi planlaşdırılan UNESCAP-ın 82-ci Sessiyası çərçivəsində enerji üzrə yan tədbirin təşkilinə hazırlıq məsələləri də müzakirə edilib.

Söhbət zamanı "UNIDO-İƏT Təmiz Enerji Mərkəzi"nin fəaliyyəti, Azərbaycanda bərpaolunan enerji mənbələrinin inkişafı, hidrogen konsepsiyası, regionlararası elektrik enerjisi üzrə interkonnektor layihələri, eləcə də neft-qaz sektorunun dekarbonizasiyası ilə bağlı fikir mübadiləsi aparılıb. BMT ilə əməkdaşlıq çərçivəsində planlaşdırılan tədbirlər nəzərdən keçirilib.

# Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib

## Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər





**Heydər Əliyev Fondu hər il olduğu kimi, bu il də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik təşkil edib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

"Yeni il möcüzəsi" adlı bayram şənliyinə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də Vətən uğrunda canlarından keçən şəhidlərimizin övladları dəvət alıblar.

Bayram ovqatı ilə bəzədilən "Gülüstan" sarayında uşaqları nağıl qəhrəmanları qarşılayıb. "Face Art" vasitəsilə uşaqlar özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı qazanıblar.

Uşaq bayramı videoçarxın nümayişi ilə başlayıb. Balacaların ən böyük dostu və himayədarı olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin vaxtilə yeni nəslə qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarını uşaqlarla birlikdə keçirməsindən bəhs edən görüntülər maraqla izlənilib. Videoçarxda Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlarla görüşlərindən də maraqlı anlar əks olunub.

Uşaqlara təqdim edilən əyləncələrlə dolu səhnəcik dostluq, xeyirxahlıq, qarşılıqlı kömək üzərində qurulub: xoşniyyətli insanların hər zaman qələbə çaldığı göstərilir.

Yeni il ovqatlı sarayda uşaqlar bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində rəqs edib, mahnı ifa edərək keçiriblər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarının problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu uşaqların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Fondun ənənəvi Yeni il şənlikləri də məhz həmin kateqoriyadan olan uşaqları sevindirmək məqsədilə təşkil edilir.

İyirmi bir il ərzində fondun keçirdiyi Yeni il şənliklərində qayğıya ehtiyacı olan minlərlə uşaq iştirak edib.

Əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

# Leyla Əliyeva "YAŞA" Mərkəzində yaşlı nəslin nümayəndələri ilə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İçərişəhərdə yerləşən "YAŞA" Mərkəzində yaşlı nəslin nümayəndələri ilə görüşüb.**



Mərkəzdə yaşlı insanlar müxtəlif əl işləri, dekorativ-tətbiqi sənət nümunələri və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olur, onlar üçün mütəmadi olaraq maarifləndirici və mədəni tədbirlər təşkil edilir.

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva yaşlılarla səmimi söhbət edib, səsləndirdikləri şeirləri dinləyib, onların hazırladıqları əl işlərinə baxıb, məşğələlərin məzmunu və mərkəzin gələcək fəaliyyət planları barədə məlumat alıb.

Qeyd edək ki, yaşlı insanların fəal, sağlam və mənalı həyat sürməsini dəstəkləmək üçün "YAŞA" mərkəzləri şəbəkəsi formalaşdırılıb. Hazırda bu mərkəzlər təkcə Bakıda deyil, eyni zamanda Mingəçevir və Şamaxı şəhərlərində də fəaliyyət göstərir, müxtəlif regionlarda yaşayan ahıllar üçün sosiallaşma, öyrənmə və fəal həyat imkanları yaradır.





# Leyla Əliyeva və Alena Əliyeva Uşaq İncəsənət Festivalının yekun mükafatlandırma mərasimində iştirak ediblər





**Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə növbəti Uşaq İncəsənət Festivalına yekun vurulub. Dekabrın 26-da Heydər Əliyev Mərkəzində festivalın yekun mükafatlandırma mərasimi keçirilib.**




AZƏRTAC xəbər verir ki, mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Əvvəlcə festival barədə məlumat verilib. Bildirilib ki, 2023-cü ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən festivalın məqsədi milli-mənəvi dəyərlərin gənc nəslə aşılanması, ənənəvi incəsənət sahələrinin qorunub yaşadılması və dövlətinə, vətəninə bağlı gəncliyin yetişdirilməsidir. Layihə, eyni zamanda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mədəniyyət və gənc istedadların dəstəklənməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin tərkib hissəsidir.

Uşaq İncəsənət Festivalı təkcə müsabiqə formatı ilə deyil, həm də uşaqların inkişafına yönəlmiş geniş yaradıcılıq platforması kimi çıxış edərək, onların komanda işi, səhnə mədəniyyəti, yaradıcı yanaşma və özünüifadə bacarıqlarının formalaşmasına töhfə verir. Bu platforma Uşaq İncəsənət Festivalını artıq müsabiqə formatından çıxararaq, ölkə üzrə istedad bankının formalaşdırılmasına xidmət edən bir mədəniyyət mexanizminə çevirib. Belə ki, Azərbaycanın bütün bölgələrindən olan 6-17 yaş aralığındakı uşaqları bir araya gətirən festival ötən müddətdə peşəkar və həvəskar kateqoriyalar üzrə yaradıcılıq mübadiləsi üçün geniş imkanlar yaradıb.

2025-ci ilin mart ayından start götürən builki festivala 27 mindən çox iştirakçı müraciət edib və bu göstərici layihənin geniş miqyasını, uşaqların incəsənətə artan marağını bir daha təsdiqləyir.

Seçim mərhələlərinin nəticələrinə əsasən 19 fərdi və 5 kollektiv nominasiya üzrə qaliblər müəyyənləşdirilib. Beləliklə, festival üzrə ümumi qalib sayı 512 nəfər olub.

Tədbirdə çıxış edən mədəniyyət naziri Adil Kərimli Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mədəniyyət siyasətinin əsas istiqamətlərindən birinin gənc kadrların, gənc istedadların üzə çıxarılmasına dövlət dəstəyinin göstərilməsi olduğunu bildirib. Nazirin sözlərinə görə, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu tərəfindən gənc istedadların müəyyən edilməsi, onların təhsilinin, eyni zamanda fərdi inkişafının dəstəklənməsi istiqamətində çoxsaylı layihələr həyata keçirilməkdədir.

"Bu illər ərzində bizim bir çox gənc istedadlarımız Heydər Əliyev Fondu, şəxsən Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyilə xaricdə təhsil proqramlarına cəlb olunublar, onların fərdi inkişafı istiqamətində müxtəlif addımlar atılıb. Uşaq İncəsənət Festivalı isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü və ideyası ilə keçirilir. Qarşıya qoyulan tapşırıqlardan biri də o idi ki, bütün ölkə ərazisində yaradıcı təfəkkürə malik gənc istedadların, xüsusi fitri istedada sahib olan uşaqların müəyyən edilməsi, onların üzə çıxarılması, onlarla fərdi inkişaf işinin aparılması istiqamətində bir mexanizm qurulsun. Bu layihə də məhz həmin ideya əsasında ərsəyə gəldi. Məzmununa və ideyasına görə çox mühüm bir layihə olan və ikinci dəfədir keçirilən Uşaq İncəsənət Festivalı sadəcə, bir tədbir deyil. Festivala paytaxtın rayonları da daxil olmaqla ümumilikdə 86 şəhər və rayondan uşaqlar və gənclər müraciət etdilər. Üçmərhələli seçim əsasında 24 nominasiya üzrə qaliblər müəyyənləşib. Bu, yaradıcı şəxslərin üzə çıxarılması üzrə əhatəli bir platformadır. Burada gənc istedadların kadr bankı formalaşmış olur. Yaradılan elektron analitik platforma əsasında hər bir bölgədə hansı istedadların olduğunu, incəsənətin müxtəlif növlərinə daha çox meyli olan bölgələri müəyyən edirik. Bilirik ki, hansı bölgədə hansı istedadlar mövcuddur. Bu, həm gələcəkdə mədəniyyət sahəsi üzrə data əsaslı idarəetməyə imkan verir, həm də peşəkar heyətin formalaşdırılması üçün ilkin mərhələdə onların müəyyən edilməsini və peşəkar təhsilə, sonra da peşəkar mədəniyyət sahəsində idarəetməyə gətirilməsi üçün geniş imkanlar yaradır", - deyə mədəniyyət naziri vurğulayıb.

Sonra festivalın qaliblərinin mükafatlandırılması mərasimi olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva qalibləri təbrik edib, onlara uğurlar arzulayıb.

Daha sonra isə qaliblərin ifasında konsert proqramı təqdim olunub. Proqram çərçivəsində qaliblər solo çıxışlarla yanaşı, tanınmış incəsənət xadimləri ilə duet nömrələri və xüsusi hazırlanmış musiqi-səhnə kompozisiyaları ilə çıxış ediblər.

Festivalın rəsm nominasiyası üzrə qalib olan 5 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin üzvü on yaşlı Melissa Quliyeva AZƏRTAC-a müsahibəsində qədim bazarlarımızı təsvir etdiyi əsərinin qalib seçildiyini bildirib: "Qaliblər arasında olduğum üçün çox sevincliyəm. Bundan sonra da üzərimdə çalışacağam və daha gözəl işlər ərsəyə gətirəcəyəm".

Akademik vokal üzrə birinci yer tutan on iki yaşlı Raul Hüseynov bəstəkar Fikrət Əmirovun əsərlərindən olan "Gülərəm, gülsən" mahnısı ilə qalib olub. O, rəqiblərinin kifayət qədər güclü olduğunu, lakin qələbə qazanmaqda çətinlik çəkmədiyini deyib. Raul üç ildir musiqi ilə məşğul olduğunu və ilk dəfə birinci yeri tutduğunu qeyd edib. R.Hüseynov gələcəkdə bu istiqamətdə fəaliyyətinə davam etməyi və Azərbaycanı beynəlxalq arenalarda təmsil etməyi düşünür.

Qeyd edək ki, Uşaq İncəsənət Festivalı inklüzivlik prinsiplərinə əsaslanaraq hər bir uşağın bərabər iştirakını təmin edir. Festival çərçivəsində qarmon ifaçılığı, dekorativ-tətbiqi sənət və rəssamlıq nominasiyaları üzrə sağlamlıq imkanları məhdud olan uşaqlar da iştirak edib və qalib olublar. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün yaradılmış əlçatan mühit onların istedadlarını sərbəst nümayiş etdirməsinə imkan verib. Festival mədəniyyət sahəsində bərabər imkanların və sosial inteqrasiyanın təşviqinə xidmət edir.

Layihənin növbəti illərdə daha geniş proqramla davam etdirilməsi və minlərlə uşağın yaradıcılıq yoluna dəstək olması nəzərdə tutulur.

# Leyla Əliyeva "ANİMAFİLM Studio"nun qonağı olub

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva "ANİMAFİLM Studio" yaradıcı heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüş zamanı Leyla Əliyeva studiyanın əməkdaşları ilə səmimi söhbət aparıb, yaradıcı şəxslərlə birlikdə ölkəmizdə animasiya sənətinin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi edib. Görüşdə studiyanın direktoru Rəşid Ağamalıyev, Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Elçin Hami Axundov və studiyanın əməkdaşları iştirak ediblər.

Leyla Əliyevaya studiyada istehsal olunan yeni animasiya filmləri təqdim edilib. Azərbaycan və Özbəkistan animasiya ustalarının birgə istehsalı olan "Yer və Ay", eləcə də Azərbaycan, Polşa və Almaniya animasiya mütəxəssislərinin əməkdaşlığı ilə ərsəyə gələn "Yulaf dönərgə" qısametrajlı animasiya filmlərinə baxılıb.

Bununla yanaşı, Leyla Əliyeva "ANİMAFİLM Studio" tərəfindən istehsalına başlanmış "İsi və Piti" adlı yeni uşaq animasiya serialının ilk iki seriyasının ilkin variantları ilə tanış olub. Təqdimat zamanı bildirilib ki, serial uşaqlara Azərbaycanı, onun milli-mədəni dəyərlərini, eləcə də müasir dövrdə inkişaf edən sənət sahələrini tanıtmaq baxımından mühüm maarifləndirici əhəmiyyət daşıyır.

# Leyla Əliyevanın təşəbbüsü ilə Gəncədə uşaq evində və Yevlax şəhərində uşaqlar üçün Yeni il tədbiri keçirilib





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yeni il ərəfəsində Gəncə şəhər 4 saylı uşaq evində yaşayan azyaşlılar üçün bayram şənliyi təşkil olunub.

Bu barədə IDEA İctimai Birliyindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, bayram tədbirində IDEA İctimai Birliyinin könüllüləri uşaqlara hədiyyələr təqdim edib, balacalarla birlikdə müxtəlif əyləncəli oyunlar və fəaliyyətlər həyata keçiriblər. Bu təşəbbüs balacalara yeni il ərəfəsində xoşbəxtlik və bayram əhvali-ruhiyyəsi bəxş edib.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Xüsusilə bayram günlərində uşaq evlərində, internat müəssisələrində, eləcə də müalicə və qayğıya ehtiyacı olan uşaqlar üçün bayram tədbirlərinin təşkili bu təşəbbüslərin əsas istiqamətlərindən biridir. Himayədən məhrum olmuş, qayğıya daha çox ehtiyac duyan uşaqların sevindirilməsi, onların bayram ab-havasını hiss etmələri məqsədilə bu cür tədbirlər mütəmadi olaraq təşkil edilir.

* * *

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Yeni il ərəfəsində Yevlax şəhərində yaşayan uşaqlar üçün Yeni il tədbiri keçirilib.

IDEA-dan AZƏRTAC-a bildirilib ki, bayram tədbiri çərçivəsində müxtəlif yaş qruplarına aid 30 uşağa velosipedlər, eləcə də təhlükəsizlik ləvazimatları hədiyyə olunub. Bu təşəbbüs balacalara Yeni il ərəfəsində xoşbəxtlik və bayram əhvali-ruhiyyəsi bəxş edib.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Xüsusilə bayram günlərində uşaq evlərində, internat müəssisələrində, eləcə də müalicəyə və qayğıya ehtiyacı olan uşaqlar üçün tədbirlərin təşkili bu təşəbbüslərin əsas istiqamətlərindən biridir. Himayədən məhrum olmuş, qayğıya daha çox ehtiyac duyan uşaqların sevindirilməsi, onların bayram ab-havasını hiss etmələri məqsədilə bu cür tədbirlər mütəmadi təşkil olunur.



# Ağdam ikinci doğum tarixini yaşayır

## Bu tarixin müəllifi İlham Əliyevdir

**30 ilə yaxın yağı tapdağı altında qalan torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyev bəyan etdi ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Bununla da düşmən əsarətindən xilas edilən ərazilərimizdə qısa müddətdə geniş bərpa, tikinti-quruculuq işlərinə start verildi.**

Ötən beş ildə görülən işlər bir daha sübut etdi ki, müdrik Prezidentimizin hər bir sözü imzası qədər etibarlı, dəyərli, keçərlidir. Bu gün Qarabağda və Şərqi Zəngəzurdakı quruculuq bütün dünyanı heyrətə gətirir. Bərpa olunan, yenidən qurulan yaşayış məntəqələrində insan yenidən məskən salır, tədricən hər yanda həyat qaynayır.

Bütün bunlar dövlət başçısının rəhbərliyi ilə həyata keçirilir, şəxsi nəzarəti altındadır. Qarabağa və Şərqi Zəngəzura elə bir səfəri olmur ki, Prezident orada yeni tikililərin açılışını etməsin, növbəti evlərin, iqtisadi və sosial infrastruktur obyektlərinin təməlini qoymasın. Görülən işləri Ağdam rayonunun da timsalında aydın görmək mümkündür.

"Böyük qayıdış" proqramının əyani təzahürləri burada da görünür. Məlumdur ki, mənfur düşmən Ağdamı yerlə yeksan etmişdi. Bu gözəl, abad bölgənin düşmən tərəfindın Qafqazın Xirosimasına çevrildiyini dünyanın hər tərəfindən buraya gələn nümayəndə heyətləri, adi turistlər də gördülər.

Bu gün Ağdam rayonunda artıq həyat bərpa edilir. Üç kənddə insanlar yaşayır. Dövlət başçısının iştirakı ilə bu kəndlər yenidən istifadəyə verilib. Kəngərli, Sarıcalı, Xıdırlı kəndlərində insanlar yaşayır və buraya köç prosesi davam edir. Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı oldu. Prezident İlham Əliyev dekabrın 24-də kompleksin açılışını edərək burada yaşayacaq insanların bir qrupu ilə görüşdü.

Ərazisi 13 hektardan çox olan həmin kompleksdə 11 məhəllə salınıb. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla ümumilikdə 1268 mənzil var. Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları və s. yaradılıb.

Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.

Onu da vurğulamaq lazımdır ki, ümumiyyətlə, yurd yerinə dönən bütün insanların məşğulluq probleminin həlli də dövlətin diqqət mərkəzindədir. Ağdam sakinləri ilə görüşərkən Prezident İlham Əliyev demişdir: "Təkcə Ağdamda deyil, azad edilmiş bütün başqa ərazilərdə genişmiqyaslı quruculuq işləri gedir, "Böyük qayıdış" proqramı uğurla icra edilir. Ağdam rayonunda isə artıq bir neçə önəmli infrastruktur obyekti, mədəni obyekt istismara verilmişdir. Mən dünən Ağdam Sənaye Məhəlləsində yeni müəssisələrlə tanış olmuşam. Artıq 30-dan çox rezident qeydə alınıb. Onların bəziləri fəaliyyətə başlayıb, bəziləri isə yaxın gələcəkdə fəaliyyətə başlayacaq. Ağdam ölkəmizin böyük sənaye şəhəri olacaq. Bakı, Sumqayıt və Gəncədən sonra yəqin ki, dördüncü sənaye mərkəzi olacaq".

Məlum olduğu kimi, Ağdamda Sənaye Parkı fəaliyyət göstərir. Parkın təməli 2021-ci il mayın 28-də qoyulub. Belə bir parkın yaradılmasını işğaldan azad olunmuş bu bölgəmizin əlverişli coğrafi mövqeyi, sosial-iqtisadi inkişaf imkanları, yük axınlarının gələcək təmərküzləşməsi və digər mühüm logistika potensialının mövcudluğu gündəmə gətirmişdir.

190 hektar ərazidə yaradılan Ağdam Sənaye Parkının məqsədi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Qarabağın sənaye potensialının inkişafı, sahibkarlığın dəstəklənməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılmasıdır. Sənaye Parkının prioritet istiqamətləri tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət, süd, yem, gübrə istehsalının və emalının, xidmət sahələrinin, soyuducu kameraların təşkilidir.

Sənaye Parkının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar. Sənaye Parkının rezidentlərinə əlavə güzəştlərin (xüsusi güzəştli bank kreditlərinin təmin olunması, sosial sığorta ödənişlərin subsidiyalaşdırılması, kommunal xidmətlərin endirimli tariflə təklif edilməsi, xammal idxalında gömrük və ya ƏDV güzəştləri) də verilməsi nəzərdə tutulub.

Sənaye parkında artıq bir sıra müəssisələr fəaliyyət göstərir. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizə budəfəki səfərində də yeni obyektlərin açılışlarını etmək, təməlini qoymaq ənənəsinə sadiq qaldı. Belə ki, dekabrın 23-də Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoydu.

Bu müəssisə bir hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq.

Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq.

Başlıca məsələlərdən biri də odur ki, burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev həmin gün Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib. Sənaye Parkının bir hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixraca yönəldiləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb. Qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,2 milyon manat zəmanətli kredit ayrılıb. Bununla yanaşı, müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanıb. Həmçinin texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 443 min manat dəyərində ƏDV və gömrük rüsumlarına güzəşt əldə olunub.

Bütün bunlar göstərir ki, Ağdam Sənaye Parkında sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət tərəfindən əlverişli investisiya mühiti yaradılıb. Parkda ümumi investisiyaların həcmi 312 milyon manatdan çox olan 32 sahibkarlıq subyektinə rezidentlik, 5 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Artıq investorlar tərəfindən Sənaye Parkına 142 milyon manat sərmayə yatırılıb, 970-ə yaxın daimi iş yeri yaradılıb. İşlə təmin edilənlərin çoxu Ağdam və ətraf rayonların sakinləridir. Sənaye Parkının rezidentləri tərəfindən istehsal olunmuş 945 milyon manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 39,5 milyon manatlıq hissəsi ixrac edilib.

Bunlar xoş müjdələrdir. Deməli, Ağdamın ölkəmizin sənaye mərkəzlərindən birinə çevrilməsinə o qədər də çox qalmayıb.

Yeri gəlmişkən, Prezident növbəti səfərində Ağdamda böyük bir hotelin açılışında da iştirak edib. Bu da gərəkli bir infrastrukturdur. Çünki Ağdam yenə də qonaqlı-qaralı, çal-çağırlı bölgəmiz olacaq. Ağdam əvvəlkindən də gözəl olacaq!

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Qlobal nüfuzun təzahürü

## Dünya liderlərinin təbrikləri Prezident İlham Əliyevə göstərilən yüksək beynəlxalq etimadın göstəricisidir

**Güclü siyasi iradəyə, çevik liderlik bacarığına, dəmir məntiqə və beynəlxalq nüfuza malik Prezident İlham Əliyevin uzaqgörənliklə yürütdüyü inkişaf strategiyası Azərbaycanı son 22 il ərzində regionun liderinə, dünyanın diqqətlə izlədiyi qüdrətli ölkəyə çevirib. Dövlətimizin rəhbəri İlham Əliyevin qəbul etdiyi qətiyyətli qərarlar və ortaya qoyduğu prinsipial mövqe sayəsində ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam təmin edib və indi uzun illər işğal altında qalaraq talana, dağıntılara məruz qalan Qarabağ və Şərqi Zəngəzurda dirçəliş və quruculuq zəfərləri yaşanır, "Böyük qayıdış" proqramı uğurla icra edilir.**

Xalqımıza əbədi olaraq bütöv və qüdrətli Azərbaycan qazandıran Prezident İlham Əliyev beynəlxalq aləmdə etibarlı tərəfdaş, yüksək nüfuza malik dövlət başçısı kimi tanınır. Azərbaycan liderinin sərgilədiyi siyasi iradə, prinsipial mövqe və qətiyyətli qərarlar beynəlxalq ictimaiyyət tərəfindən etimadla qarşılanır və təqdir olunur. Doğum günü münasibətilə dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin, tanınmış ictimai-siyasi xadimlərin ünvanladıqları təbrik məktubları və müraciətlər də Prezident İlham Əliyevə göstərilən yüksək etimadın və hörmətin növbəti təzahürü kimi qiymətləndirilməlidir.

Dövlətimizin rəhbərinə ünvanlanan bu təbriklərdə Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, müdrik və uzaqgörən rəhbərliyi sayəsində Azərbaycanın keçdiyi yüksək inkişaf yolu xüsusi vurğulanır.

Eyni zamanda bir sıra ölkələrin dövlət və hökumət başçıları, nüfuzlu ictimai-siyasi xadimlər Prezident İlham Əliyevlə telefon əlaqəsi saxlayaraq onu doğum günü münasibətilə şəxsən təbrik ediblər, ölkəmizə rifah və tərəqqi arzularını çatdırıblar.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Serbiya Prezidenti Aleksandar Vuçiç, Rusiya Prezidenti Vladimir Putin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, İran Prezidenti Məsud Pezeşkian doğum günü münasibətilə Prezident İlham Əliyevə zəng vuraraq ona səmimi təbriklərini çatdırıblar.

### S.CİNPİN: "Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm"

Tarixi dostluq münasibətlərinə malik olan Azərbaycan və Çin arasındakı əlaqələr hazırda özünün ən yüksək səviyyəsindədir. Pekinlə münasibətlərə xüsusi əhəmiyyət verən və yürütdüyü məqsədyönlü siyasət nəticəsində yerləşdiyi strateji coğrafi bölgəni nəqliyyat, enerji qovşağına çevirən Azərbaycanla hərtərəfli əlaqələr qurmağa dünyanın nəhəng siyasi və iqtisadi güc mərkəzi Çin də böyük maraq göstərir. İki ölkə liderləri İlham Əliyev və Si Cinpin arasındakı qarşılıqlı etimada dayanan səmimi dostluq münasibətləri Azərbaycan-Çin əlaqələrinin daha da möhkəmlənməsinə və əməkdaşlıqlarının dərinləşməsinə əhəmiyyətli töhfələr verir.

Dekabrın 19-da ad günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda Çin Xalq Respublikasının Sədri Si Cinpin bu mühüm məqama vurğu edərək yazır: "Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır".

Çin lideri qeyd edir : "Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir.

Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram".

### R.T.ƏRDOĞAN: "Can Azərbaycanın davamlı şəkildə güclənməsi bizim üçün qürur mənbəyidir"

Təməl gücünü ortaq tarixi köklərimizdən, gündən-günə inkişaf edən qardaşlıq əlaqələrindən alan Türkiyə-Azərbaycan birliyi dünya üçün unikal nümunədir. İki qardaş ölkə arasındakı əzəli əlaqələr dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın arasındakı şəxsi dostluq və qardaşlıq münasibətləri sayəsində daha da inkişaf edir və möhkəmlənir.

Hər zaman Prezident İlham Əliyevə "Əziz qardaşım" deyə müraciət edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan liderinə yazdığı təbrik məktubunda vurğulayır: "Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsi, regional və beynəlxalq siyasətdə nüfuzunun artması bizim üçün böyük məmnunluq və qürur mənbəyidir".

Türkiyə Prezidenti daha sonra yazır: "Beşinci ildönümünü birlikdə qeyd etdiyimiz şanlı Vətən müharibəsi Zəfərindən sonra həyata keçirilən sülh prosesinin davamlı bir razılaşma ilə nəticələnməsini arzu etdiyimi bir daha vurğulamaq istəyirəm. İnanıram ki, Qafqazda sabitliyin hökm sürdüyü sülh mühiti bütün regionun inkişafına xidmət edəcəkdir".

Təbrik məktubunda R.T.Ərdoğan "Türkiyə və Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklərə malik qardaşlıq və həmrəylik əlaqələri Ümummilli Lider Heydər Əliyevin bizə miras qoyduğu "Bir millət, iki dövlət" prinsipi ilə hər gün daha da güclənir. Möhkəm təməllər üzərində qurulmuş müttəfiqlik münasibətlərimiz və hər sahədə nümayiş etdirdiyimiz yüksəksəviyyəli əməkdaşlıq sayəsində regionumuzun taleyini və gələcəyini formalaşdıran birgə layihələrimizi həyata keçirmək üçün güclü iradəyə malik olduğumuz birmənalıdır", - deyə qeyd edir.

### V.PUTİN: "Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq aləmdə mövqelərini ardıcıl olaraq möhkəmləndirir"

Azərbaycan ilə Rusiya arasında qarşılıqlı etimada əsaslanan münasibətlər mövcuddur və iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Rusiya Prezidenti Vladimir Putin dekabrın 24-də doğum günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubunda bildirir: "Sizin rəhbərliyinizlə Azərbaycan sosial və iqtisadi sahələrdə böyük uğurlar qazanıb, beynəlxalq aləmdə mövqelərini ardıcıl olaraq möhkəmləndirir. Ölkələrimiz arasında münasibətlər möhkəm dostluq, mehriban qonşuluq və qarşılıqlı hörmət ənənələrinə əsaslanır. Əminəm ki, bu münasibətlər bundan sonra da strateji tərəfdaşlıq və müttəfiqlik ruhunda inkişaf edəcək, bu da şübhəsiz ki, Rusiya və Azərbaycan xalqlarının mənafelərinə cavab verir".

### V.ORBAN: "Zati-alinizin şəxsi töhfələri sayəsində xalqlarımız arasında münasibətlərdə yeni bir dövr başlanmışdır"

Macarıstanın Baş naziri Viktor Orbanın dekabrın 24-də Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda iki qardaş və dost ölkə arasında olan etimada və güvənə dayanan yüksək münasibətlərdən söz açılır: "Macarıstanın həm sülh dövründə, həm də son onilliklərdəki böhran dövründə Azərbaycana güvənə bilməsinə görə minnətdarlığımı bildirirəm. İkitərəfli münasibətlərimiz ildən-ilə daha da güclənməkdə davam edir. Əməkdaşlığımız genişlənərək bir çox əsas sahəni, xüsusilə də enerji sektorunu əhatə edir. Zati-alinizin şəxsi töhfələri sayəsində xalqlarımız arasında münasibətlərdə yeni bir dövr başlanmışdır və buna görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizi əmin etmək istərdim ki, hökumətim tərəfdaşlığımızın dərinləşməsinə və xalqlarımızın ortaq maraqlarının irəliləməsinə sadiqdir".

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Prezident İlham Əliyevə göndərdiyi 23 dekabr tarixli təbrik məktubunda yazır: "Qazaxıstanda Sizi görkəmli, müasir dövlət xadimi, qlobal miqyaslı təcrübəli və səriştəli siyasətçi kimi tanıyırlar və hörmət edirlər. Sizin çoxillik səmərəli ali dövləti fəaliyyətiniz haqlı olaraq Azərbaycanın tarixi nailiyyətləri, suverenliyinin möhkəmlənməsi, beynəlxalq nüfuzunun artması və dinamik sosial-iqtisadi inkişafı dövrü ilə əlaqələndirilir".

Ukraynanın Prezidenti Volodimir Zelenski 19 dekabr tarixli məktubunda Prezident İlham Əliyevin liderliyi sayəsində Azərbaycanın müasir və uğurlu bir dövlətə çevrildiyini, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla gücləndirərək, dövlət üçün mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün bərpasına və möhkəmləndirilməsinə nail olduğunu qeyd edir: "Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm".

### Ş.MİRZİYOYEV: "Sizi beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yüksək qiymətləndiririk"

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif dövlətimizin başçısı İlham Əliyevə göndərdiyi təbrik məktubunda başa çatmaqda olan ilə nəzər saldıqda ikitərəfli münasibətlərin müsbət inkişafından böyük məmnunluq duyduğunu bildirir: "Bu münasibətlər bu ilin fevral və may aylarında ikitərəfli görüşlər keçirmək, həmçinin iyul ayında Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısında, noyabr ayında Bakıda şanlı Zəfər Gününə həsr olunmuş paradda iştirak etmək məqsədilə gözəl ölkənizə etdiyim səfərlərlə daha da möhkəmlənmişdir. Azərbaycana etdiyim hər səfərim zamanı ölkənizin gözəlliyinə və zəngin təbiətinə daha çox heyran oldum, dost və qonaqpərvər qardaş xalqınıza olan məhəbbətim daha da artdı".

Özbəkistanın Prezidenti Şavkat Mirziyoyev ölkəmizin rəhbərinə ünvanladığı təbrik məktubunda yazır: "Sizi əzəli qardaşımız olan Azərbaycan xalqının əsl vətənpərvər və fədakar övladı, müdrik və sədaqətli rəhbəri, dövrümüzün görkəmli dövlət xadimi, beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yaxşı tanıyır və yüksək qiymətləndiririk".

Ş.Mirziyoyev əlavə edir: "İdarəçilik sahəsindəki zəngin bilik və təcrübəniz, uzaqgörən, müdrik və səmərəli siyasətiniz nəticəsində doğma Vətəninizin təkcə ərazi bütövlüyü bərpa olunmayıb, həm də onun beynəlxalq arenadakı mövqeyi və nüfuzu ildən-ilə daha da möhkəmlənib ki, bütün bunlar bizi sonsuz dərəcədə sevindirir.

Bu məqamda Sizin irəli sürdüyünüz mühüm regional və qlobal təşəbbüslərin dünya ictimaiyyəti tərəfindən geniş dəstək görməsini də xüsusi vurğulamaq istərdim".

Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov təbrik məktubunda vurğulayır: "Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun yüksəldilməsində və xalqın rifahının yaxşılaşdırılmasında əhəmiyyətli uğurlar qazanıb".

Qırğızıstan Prezidenti Sadır Japarov Prezident İlham Əliyevə göndərdiyi təbrik məktubunda yazır: "Sizin rəhbərliyinizlə qardaş Azərbaycan Respublikası siyasi və iqtisadi inkişafda böyük uğurlara nail olmuş və beynəlxalq aləmdə xüsusi nüfuz qazanmışdır".

Bolqarıstan Prezidenti Rumen Radev, Belarus Prezidenti Aleksandr Lukaşenko, Xorvatiya Prezidenti Zoran Milanoviç, Tacikistan Prezidenti Emoməli Rəhmon, Gürcüstanın Baş naziri İrakli Kobaxidze və Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili, İordaniyanın Kralı II Abdullah, Moldova Prezidenti Maya Sandu, Slovakiya Prezidenti Peter Pelleqrini doğum günü münasibətilə Prezident İlham Əliyevə təbrik məktubları göndəriblər.

Həmçinin ölkəmizin rəhbərinə beynəlxalq təşkilatların rəhbərləri, tanınmış xadimlər təbriklərini çatdıraraq ən xoş arzularını bildiriblər.

Dövlət və hökumət başçılarının, nüfuzlu təşkilatların rəhbərlərinin, tanınmış ictimai-siyasi xadimlərin doğum günü münasibətilə Prezident İlham Əliyevə ünvanladıqları çoxsaylı təbrik məktubları Azərbaycan liderinə göstərilən beynəlxalq etimadın və qlobal nüfuzun təzahürüdür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın regional liderliyini təmin edən uğurlu xarici siyasət

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin uğurlu mövqeyinin formalaşması səmərəli və balanslaşdırılmış xarici siyasətdən asılıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət ölkəmizin milli maraqlarının qorunmasına, suverenliyinin möhkəmləndirilməsinə və beynəlxalq nüfuzunun artırılmasına yönəlib. Bu siyasət praqmatizm, çoxvektorlu yanaşma və qarşılıqlı fayda prinsipləri əsasında qurulub.**

Azərbaycan Prezidentinin dekabrın 17-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə rəsmi səfəri, səfər çərçivəsində keçirilən yüksəksəviyyəli görüşlər və aparılan danışıqlar da bunu bir daha nümayiş etdirdi və iki ölkə arasında formalaşmış strateji tərəfdaşlığın növbəti mühüm göstəricisi kimi yadda qaldı. Belə ali səviyyədə qarşılıqlı səfərlər, mütəmadi siyasi dialoqlar etimada, uzunmüddətli maraqlara əsaslanan Azərbaycan-BƏƏ münasibətlərini daha da möhkəmləndirir.

Bu münasibətlərin əsas gücü onların çoxşaxəli xarakterindədir. Siyasi əməkdaşlıqla yanaşı, iqtisadiyyat, enerji və xüsusilə bərpaolunan enerji sahələrində tərəfdaşlıq hər iki ölkənin gələcək inkişaf strategiyaları ilə üst-üstə düşür. Azərbaycan üçün BƏƏ qabaqcıl texnologiyalar, investisiya imkanları və qlobal bazarlara çıxış baxımından mühüm tərəfdaşdırsa, Birləşmiş Ərəb Əmirlikləri üçün Azərbaycan Cənubi Qafqazda etibarlı tərəfdaş, enerji və nəqliyyat-logistika baxımından strateji mövqeyə malik ölkədir.

Humanitar, mədəni və idman sahələrində əməkdaşlıq isə münasibətlərin "yumşaq güc" komponentini gücləndirir. Prezident İlham Əliyevin "Gələcəyin Oyunları 2025" kimi innovativ və qlobal miqyaslı bir tədbirin açılışında iştirakı Azərbaycanın yalnız regional deyil, qlobal təşəbbüslərə açıq olduğunu göstərir. Eyni zamanda BƏƏ-nin bu turnirə evsahibliyi etməsi ölkənin gələcək, rəqəmsallaşma və gəncləryönümlü strategiyasını əks etdirir ki, bu da Azərbaycanla ortaq baxışların mövcudluğunu göstərir.

Bu baxımdan Azərbaycan-BƏƏ münasibətləri klassik diplomatik əlaqələr çərçivəsindən kənara çıxaraq, qarşılıqlı faydaya əsaslanan strateji tərəfdaşlıq modelinə çevrilib. Bu model həm regional sabitliyə töhfə verir, həm də hər iki ölkənin qlobal səviyyədə mövqelərinin möhkəmlənməsinə xidmət edir.

Səfər bir daha göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasət ölkəmizə hörmətlə yanaşan, milli maraqlarımızı nəzərə alan bütün ölkələrlə qarşılıqlı etimada və uzunmüddətli əməkdaşlığa əsaslanan münasibətlərin qurulmasına yönəlib.

### Regional və qlobal balans siyasəti

Ümumən, Prezident İlham Əliyevin xarici siyasət kursunun əsasını milli maraqların prioritetliyi, ölkəmizin suverenliyi və ərazi bütövlüyünün qorunması, bərabərhüquqlu əməkdaşlıq və qarşılıqlı hörmət, daxili işlərə qarışmama, çoxşaxəli və balanslı diplomatiya prinsipləri təşkil edir. Bu prinsiplər Azərbaycanın həm regional, həm də qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınmasına şərait yaradır.

Azərbaycan Prezidentinin həyata keçirdiyi xarici siyasət modeli "balanslaşdırılmış siyasət" kimi xarakterizə olunur. Azərbaycan eyni zamanda Avropa İttifaqı ilə strateji tərəfdaşlığa, qardaş Türkiyə ilə müttəfiqlik əlaqələrinə malikdir, ABŞ və digər Qərb ölkələri ilə əməkdaşlığı gücləndirir, islam dünyası və Qoşulmama Hərəkatı çərçivəsində fəal diplomatiya aparır, Türk Dövlətləri Təşkilatının sədri kimi bu qurumun inkişaf edərək qlobal gücə çevrilməsi üçün ardıcıl çalışır, eyni zamanda Rusiya ilə konstruktiv münasibətlərin təmin olunması yönündə müvafiq addımlar atır. Bütün bunlar Azərbaycanın heç bir güc mərkəzindən asılı olmayan müstəqil siyasət yürütməsinə şərait yaradır, heç bir xarici ölkənin, beynəlxalq qurumun ölkəmizin daxili işlərinə qarışmasına imkan vermir.

Prezident İlham Əliyevin xarici siyasətində enerji amili xüsusi yer tutur. Azərbaycan "Cənub qaz dəhlizi", TANAP və TAP, Bakı-Tbilisi-Ceyhan əsas-ixrac neft kəməri strateji layihələr vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bu layihələr yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi əhəmiyyət daşıyaraq Azərbaycanın beynəlxalq mövqeyini gücləndirir.

### Xarici siyasətdə yeni mərhələ

Tarixi Zəfərimiz nəticəsində Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpası ölkənin xarici siyasətində fundamental dönüş nöqtəsi yaradıb. Uzun illər beynəlxalq gündəmdə əsas mübarizə mövzusu olan Qarabağ məsələsinin həlli ilə Azərbaycan artıq postmünaqişə mərhələsinə qədəm qoyub və bu, diplomatik prioritetlərin mahiyyətini də köklü şəkildə dəyişib.

İlk növbədə xarici siyasətin gündəmi müdafiə və haqq mübarizəsindən inkişaf və təşəbbüskarlıq mərhələsinə keçib. Ərazi bütövlüyünün bərpasına qədər beynəlxalq platformalarda əsas məqsəd Azərbaycanın haqlı, ədalətli mövqeyinin tanıdılması idi. Bu gün isə rəsmi Bakı regional əməkdaşlıq, iqtisadi inteqrasiya, enerji təhlükəsizliyi və nəqliyyat-logistika layihələri ilə daha fəal və təşəbbüskar mövqedən çıxış edir.

Yeni reallıq Ermənistanla münasibətlərə də birbaşa təsir göstərib. Ermənistana göndərilən taxılın Azərbaycan üzərindən daşınmasına şəraitin yaradılması, Azərbaycanın neft məhsullarının ilk partiyasının Ermənistana göndərilməsi tarixi Vaşinqton görüşündən sonra sülhə doğru nə qədər mühüm irəliləyişlərin əldə edildiyini göstərir.

Suverenliyin bərpası Azərbaycanın beynəlxalq legitimliyini də möhkəmləndirib. Rəsmi Bakı öz addımlarını beynəlxalq hüquq normaları əsasında quraraq, "yeni reallıqların qəbul edilməsi" tezisini xarici siyasətin əsas kommunikasiya xəttinə çevirib. Bu isə ölkənin beynəlxalq təşkilatlar və tərəfdaş dövlətlərlə dialoqunda mövqelərini daha inamlı şəkildə müdafiə etməsinə imkan yaradır.

Eyni zamanda regional və qlobal səviyyədə Azərbaycanın manevr imkanları genişlənib. Münaqişə faktorunun aradan qalxması çoxvektorlu xarici siyasətin daha çevik icrasına şərait yaradıb. Enerji diplomatiyası, "yaşıl enerji" layihələri, Orta dəhliz kimi nəqliyyat təşəbbüsləri ölkəmizin xarici siyasətinin əsas alətlərinə çevrilib və dövlətimizi etibarlı tərəfdaş kimi ön plana çıxarıb.

Bu mənada Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası yalnız hərbi-siyasi qələbə deyil, eyni zamanda xarici siyasətin keyfiyyətcə yeni mərhələyə keçididir. Bu mərhələ Azərbaycanın regional liderlik ambisiyalarını gücləndirir, beynəlxalq nüfuzunu artırır və ölkəni postmünaqişə dövrünün aktiv oyunçusuna çevirir.

### Etibarlı tərəfdaş

Bu kontekstdə son dövrlərdə Azərbaycan-ABŞ münasibətlərində müşahidə olunan dinamika da xüsusi diqqət çəkir. Vaşinqtonla dialoqun yenidən intensivləşməsi Azərbaycanın postmünaqişə dövründə artan geosiyasi çəkisinin göstəricisi kimi qiymətləndirilməlidir. Enerji təhlükəsizliyi, regional kommunikasiyalar, "yaşıl enerji" və Orta dəhliz kimi mövzular ABŞ ilə münasibətlərdə əsas əməkdaşlıq istiqamətlərinə çevrilir. Bu, Azərbaycanın Qərb üçün etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş statusunu daha da möhkəmləndirir.

Eyni zamanda ABŞ ilə münasibətlərin inkişafı Prezident İlham Əliyevin çoxvektorlu xarici siyasət xəttinin mühüm elementidir. Azərbaycan nə bir qütbə bağlanır, nə də geosiyasi qarşıdurmaların tərəfinə çevrilir. Əksinə, rəsmi Bakı Şərq-Qərb, Şimal-Cənub əməkdaşlıq oxlarında balansı qoruyaraq, milli maraqlara əsaslanan praqmatik siyasət yürüdür. ABŞ ilə əməkdaşlığın dərinləşməsi də məhz bu balanslı yanaşmanın tərkib hissəsidir.

### Multilateral diplomatiya

Ölkəmiz multilateral diplomatiya xəttini də uğurla həyata keçirir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövrü (2019-2023) cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin multilateral diplomatiyada qazandığı ən mühüm nailiyyətlərdəndir. Bu dövrdə Azərbaycan inkişaf etməkdə olan ölkələrin maraqlarını fəal şəkildə müdafiə etmiş, qlobal ədalət, bərabərlik və beynəlxalq hüquq prinsiplərinin təşviqində aparıcı rol oynamışdır. Bu isə Azərbaycanın beynəlxalq arenada etibarlı və məsuliyyətli aktor kimi mövqeyini daha da gücləndirmişdir.

Prezident İlham Əliyevin həyata keçirdiyi, dövlətin milli maraqlarına əsaslanan, praqmatik və strateji baxımdan düşünülmüş xarici siyasət xətti nəticəsində Azərbaycan regional liderliyini daha da möhkəmləndirmiş, qlobal səviyyədə söz sahibi olan dövlətə çevrilmiş, müstəqil və balanslı xarici siyasət modeli ilə nümunə göstərilən ölkələrdən biri olmuşdur. Prezident İlham Əliyevin xarici siyasət kursu Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi gələcəkdə də ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinə xidmət edəcəkdir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

## "Orta dəhlizin, Çin səddindən Avropaya uzanan ticarətin taleyi Türkiyə və Azərbaycanın sarsılmaz ittifaqı ilə şəkillənəcək"

**Bu gün Azərbaycan dünyanın vacib logistika mərkəzinə çevrilib. Orta dəhliz və "Şimal-Cənub" marşrutunda qovşaq ölkə olan Azərbaycan Avropa ilə Asiya arasında ticarət yolunun keçdiyi coğrafiyadır. Bu səbəbdən də ölkəmizin dünya ticarətindəki rolu diqqətlə öyrənilir, dəyərləndirilir.**




Logistika sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlar son dövrlər Azərbaycanda bu sahədə görülən işləri və yüklərin daşınmasında olan fəal dinamikanı yüksək qiymətləndirirlər. Məsələn, Azərbaycan Beynəlxalq Nəqliyyat Forumunun (BNF) statistik bülletenində 22 ölkə arasında konteyner yüklənməsi göstəricilərinə görə ikinci ən yüksək artıma (150 faiz) nail olub. BNF-nin 2014-2024-cü illər üzrə qlobal nəqliyyat tendensiyalarının müqayisəli təhlilinə dair statistik bülletenində isə Azərbaycanla bağlı məlumatlar forumun hazırkı sədr ölkəsi olaraq xüsusi bölməsində təqdim edilib. Bildirilib ki, son 10 ilin göstəricilərində Azərbaycanda müsbət dinamika qeydə alınıb. Xüsusən dəniz nəqliyyatı ilə yük daşınmasında əhəmiyyətli artım müşahidə olunub. 2014-2024-cü illər qlobal konteyner daşımaları ölkəmiz üçün yüksəliş dövrü kimi xarakterizə edilib.

Azərbaycanla yanaşı, Türkiyə də Orta dəhlizdə mühüm əhəmiyyətə malik ölkə sayılır. Orta dəhlizdən yüklərin Avropaya daşınmasında keçid ölkə olduğu üçün maraqlarımız üst-üstə düşür. II Azərbaycan-Türkiyə İnvestisiya Forumunda logistika məsələlərinin geniş müzakirə olunması da bununla bağlıdır. Xüsusən Orta və Zəngəzur dəhlizləri ilə bağlı məsələlər iki ölkə nümayəndələri tərəfindən geniş müzakirə edilib.

Türkiyə ticarət nazirinin müavini Mustafa Tuzcu forumda deyib: "Zəngəzur dəhlizinin açılması bütün region tərəfindən gözlənilir və bu dəhliz təkcə Türkiyə ilə Azərbaycan arasında deyil, ümumiyyətlə, Asiya ilə Avropa arasında tədarük zəncirlərini birləşdirən kritik əhəmiyyət daşıyır. Avqust ayında Qarsda keçirilən açılışdan sonra Qars-Naxçıvan dəmir yolu layihəsinin icrası Zəngəzur dəhlizinin effektivliyini daha da artıracaq".

Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov vurğulayıb ki, Azərbaycan ərazisində orta dəhlizin inşası ilə bağlı əsas hissələrdən biri olan Horadiz-Ağbənd layihəsi artıq 69 faiz icra edilib. Eyni zamanda avtomobil yolunun icrası 95 faizə çatıb. Hər iki yolun gələn ilin sonunadək tam istifadəyə verilməsi planlaşdırılıb. Naxçıvan Muxtar Respublikasında da artıq nəqliyyat infrastrukturuna modern dəstək edilməsi işlərinə başlanılıb.

İqtisadiyyat nazirinin müavini Səməd Bəşirli də bildirib ki, Orta dəhlizin rəqəmsal həllərlə gücləndirilməsi və ticarətin asanlaşdırılması üzrə addımlar həm ölkələrimizin, həm də regionun tranzit imkanlarını genişləndirir. "Yaxın illərdə buraxılış qabiliyyəti ildə 25 milyon tona çatacaq Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, 9 beynəlxalq hava limanı, regionun ən böyük yük aviaşirkəti və digər amillər Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirib. Bununla yanaşı, gələcəkdə Zəngəzur dəhlizi beynəlxalq daşımalar üçün tranzit imkanların genişləndirilməsinə öz töhfəsini verəcək", - deyə nazir müavini qeyd edib.

Baş nazir Əli Əsədov isə II Türkiyə-Azərbaycan Birgə İnvestisiya Forumunda çıxışında deyib ki, ölkələrimizin ərazisindən keçən və təkcə regionumuz üçün deyil, həm də qlobal ticarət və nəqliyyat əlaqələrinin genişləndirilməsi baxımından strateji rol oynayan Orta dəhlizin önəmi getdikcə artmaqdadır: "Ticarətin asanlaşdırılması üzrə islahatlar Orta dəhlizin rəqəmsallaşdırılmasını artırır. Bu da öz növbəsində həm ölkələrimizin, həm də regionun yükdaşımaları və ticarət dinamikasına müsbət təsir göstərir. Son üç ildə Azərbaycan vasitəsilə Orta dəhliz üzrə yükdaşımaların həcmi 90 faiz artıb. Həmçinin Azərbaycanın əsas ərazisinin Naxçıvan ilə birləşdirilməsi barədə avqust ayında Vaşinqtonda əldə edilmiş razılaşmalar tarixi önəm kəsb edir. Zəngəzur dəhlizinin (TRIPP) açılması bütün region dövlətlərinə yeni iqtisadi və tranzit fürsətləri qazandırmaqla yanaşı, Orta dəhlizin ötürücülük qabiliyyətini artıracaq".

Forumda çıxış edən Türkiyə Cümhuriyyətinin vitse-prezidenti Cevdet Yılmaz vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsindən sonra Orta dəhlizin cəlbediciliyi və istifadə imkanları əhəmiyyətli dərəcədə artıb və bu baxımdan Orta dəhlizin əsas komponentlərindən biri olan Azərbaycanla münasibətlər daha dərin strateji xarakter alıb. C.Yılmaz vurğulayıb ki, Azərbaycan və Ermənistan arasında 8 avqust 2025-ci ildə imzalanmış və sülhün təmin olunmasına dair yol xəritəsini əhatə edən razılaşma regional sabitlik baxımından mühüm mərhələdir. Onun fikrincə, bu sülh prosesinin tezliklə reallaşması Cənubi Qafqazda sabitlik və rifah üçün möhkəm zəmin yaradacaq. Vitse-prezident əlavə edib ki, bu proses eyni zamanda Orta Asiya və türk dövlətləri ilə Türkiyə və Avropa arasında iqtisadi və nəqliyyat əlaqələrinin daha da dərinləşməsinə mühüm töhfə verəcək. Zəngəzur bağlantısının açılması isə Orta dəhlizin rəqabət qabiliyyətini daha da artıracaq.

C.Yılmaz eyni zamanda Azərbaycanın həm regional, həm də qlobal miqyasda artan roluna diqqət çəkərək ölkənin enerji sektorunda həyata keçirdiyi transformasiya proseslərinin diqqətlə izlənildiyini qeyd edib. O deyib ki, Orta dəhlizin, Çin səddindən Avropaya uzanan ticarətin taleyi Türkiyə və Azərbaycanın sarsılmaz ittifaqı ilə şəkillənəcək: "Azərbaycan və Türkiyə münasibətlərində 21-ci əsrin İpək yolu adlandırılan Orta dəhliz bu gün heç olmadığı qədər həyati bir önəm qazanıb. Gözlər Xəzərdən keçən Orta dəhlizə çevrilib. Ancaq bu potensialı logistik imkana çevirmək bizim əlimizdədir. Beləliklə, modern İpək yolunun bünövrə daşları yerinə oturacaq".

*Rüstəm KAMAL, "Azərbaycan"*

## Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq Azərbaycanın iqtisadi gücünün göstəricisidir

**Prezident İlham Əliyevin müntəzəm olaraq Qarabağa və Şərqi Zəngəzura səfərləri yeni istehsalat sahələrinin, təhsil ocaqlarının, yaşayış məntəqələrinin açılışları və bünövrələrinin qoyulması ilə yadda qalır. Dövlət başçısı bu səfərlər zamanı həm də doğma ocaqlarına dönmüş keçmiş köçkünlərlə görüşüb söhbət edir, quruculuq işlərinin daha da sürətləndirilməsi üçün dəyərli məsləhət və tövsiyələr verir.**

Prezident İlham Əliyevin Qarabağa növbəti səfəri də yeni istehsalat sahələrinin, təhsil ocaqlarının, yaşayış məntəqələrinin açılışları və təməlqoyma tədbirləri ilə tarixə yazıldı. Dövlətimizin başçısı Ağdam Sənaye Parkında "Saloğlu Qarabağ" MMC-nin istehsal müəssisəsinin təməlini qoydu. Prezidentə yeni yaradılacaq müəssisə haqqında məlumat verilərək bildirildi ki, "Saloğlu Qarabağ" MMC Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. O da bildirildi ki, müəssisənin istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində "Accurate Az" MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında da iştirak etdi. Dövlət başçısına məlumat verildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. O da bildirildi ki, hazırda burada 80 nəfər üçün daimi iş yeri yaradılıb. Növbəti mərhələlərdə isə 450 daimi iş yerinin yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev səfər zamanı Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini də qoydu. Ağdam şəhərində "Hilton Garden Inn Agdam" hotelinin, Xankəndi şəhərində "Azərenerji" ASC-nin "Xankəndi-1" elektrik yarımstansiyasının, Ağdam Sənaye Parkında "Construction" MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin, Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin əsas təmir olunan binasının, Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışlarında iştirak etdi.

Qarabağda sürətlə aparılan quruculuq və bərpa işləri bir daha onu göstərir ki, "Böyük Qayıdışa dair I Dövlət Proqramı" uğurla həyata keçirilir. Proqram çərçivəsində bütün layihələr yüksək səviyyədə və vaxtında reallaşdırılır. Yeni yollar çəkilir, su, elektrik, qaz təminatı və digər həyati vacib olan obyektlər tikilir.

Prezident İlham Əliyev Kərkicahan qəsəbəsində aparılan quruculuq və bərpa işləri ilə tanış olarkən buraya köçən sakinlərlə də görüşdü. Dövlət başçısı keçmiş köçkünlərlə söhbət zamanı dedi: "Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni "Böyük qayıdış" poqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün".

Sonra sözünə davam edən Prezident İlham Əliyev onu da bildirdi ki, 1991-ci il dekabrın sonunda Ermənistan dövləti azərbaycanlıları öz dədə-baba torpağından didərgin salmışdı: "Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzab-əziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur. Mən oktyabr ayında bu qəsəbəyə gəlmişdim. O vaxt göstəriş verdim ki, evlər, məktəb təmir olunsun, digər lazımi infrastruktur layihələri icra edilsin. Bu gün qəsəbə ilə tanış olarkən görürəm ki, hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır. Əlbəttə ki, bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki ilə yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var. Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız".

Qəsəbə sakini Prezident İlham Əliyevə dərindən minnətdarlıq etdi: "Cənab Ali Baş Komandan, çox minnətdarıq ki, Siz bizi bu gün doğma Kərkicahanımıza qaytardınız, Qarabağımıza qaytardınız. Bu günlərə şükürlər olsun. Ağlaya-ağlaya dekabrda tərk etmişdik, indi gülə-gülə qayıdırıq. Allah Sizi qorusun, ailənizi qorusun".

Məlum olduğu kimi, I Qayıdış Proqramının icrasının başa çatacağı 2026-cı ilədək 140 min keçmiş məcburi köçkünün doğma el-obalarına qayıdışı nəzərdə tutulub. İcra müddəti başa çatan bu proqram azad edilmiş ərazilərdə yeni infrastrukturun yaradılması, məskunlaşmanın təmini, biznes mühitinin formalaşdırılması, iş yerlərinin açılması və sosial-iqtisadi inkişafı əhatə edir. Bu proqram çərçivəsində Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağda, Şərqi Zəngəzurda sürətlə aparılan quruculuq və bərpa işləri Azərbaycanın artan iqtisadi gücünü, xalqın birliyini, əzmkarlığını dünyaya göstərir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

Yeni nəşrlər

# "İlham Əliyev və Böyük Qayıdış"

**Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Eldar Nuriyevin "İlham Əliyev və Böyük Qayıdış" kitabı nəşr olunub. Kitab dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin 5 illiyinə həsr olunub.**




Bu, Eldar Nuriyevin ilk kitabı deyil. Müəllifin 2011-ci ildə "Azərbaycanın inkişafında tikinti kompleksinin rolu", 2016-cı ildə "Müstəqil Azərbaycanda tikinti: 25 il misilsiz inkişaf yollarında", 2022-ci ildə "Azərbaycanda tikinti: reallıqlar və inkişaf istiqamətləri" kitabları işıq üzü görüb. Bu nəşrlərin adlarından da göründüyü kimi, müəllif ölkəmizin tikinti kompleksinə yaxından bələd olan mütəxəssisdir.

Eldar Nuriyev həqiqətən də uzun illərdir təcrübəli inşaatçı-mühəndis kimi Azərbaycanda tikinti sahəsində çalışır və ötən dövr ərzində bu kompleksdə bir sıra rəhbər vəzifələrdə işləyib. O, bu sahəyə bilik və təcrübəsini sərf edib. Vaxtilə Ulu Öndər Heydər Əliyevin respublikada prioritet elan etdiyi tikinti sahəsinə, geniş vüsət alan inşaat işlərinə var qüvvəsi ilə dəstək verib.

Müəllifin yeni kitabı çar Rusiyasının himayəsi altında Ermənistan dövlətinin yaradılması, Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi, bu köçürülmənin Qafqazın demoqrafik vəziyyətinə təsiri, tarixi Azərbaycan ərazisində "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması, Azərbaycanda ermənilər tərəfindən törədilmiş soyqırımı və terror aktları, azərbaycanlıların Qərbi Azərbaycan torpaqlarından çıxarılması, XX əsrin 90-cı illərində ictimai-siyasi vəziyyətin gərginləşməsi və Qarabağın işğalından bəhs edilir.

Ulu Öndər Heydər Əliyevin yenidən rəhbərliyə qayıdışı, ölkədə yaranmış parçalanma təhlükəsi, Qarabağ cəbhəsində müvəqqəti atəşkəs elan olunması, ordu quruculuğu, bazar iqtisadiyyatına keçid və sosial-iqtisadi islahatların aparılması da kitabda işıqlandırılan mövzulardandır. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin prezidentliyi illərində Azərbaycanda sosial-iqtisadi inkişafın yeni mərhələsi və idarəetmə strategiyası, beynəlxalq və regional layihələrin həyata keçirilməsi, müasir Azərbaycan Ordusu və Zəfər tarixi mövzularına da nəşrdə geniş yer verilib. Eyni zamanda erməni işğalından azad edilmiş doğma Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış, bu ərazilərin inkişaf perspektivləri, aparılan tikinti-quruculuq işlərindən, eləcə də Azərbaycanın mühüm əhəmiyyət kəsb edən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurla evsahibliyi etməsindən, alternativ enerji mənbələrindən və su ehtiyatlarından səmərəli istifadə yollarından ətraflı bəhs olunur.

Kitabda həmçinin 44 günlük Vətən müharibəsindəki Zəfərdən sonra Qarabağa və Şərqi Zəngəzura uğurlu Böyük Qayıdış Konsepsiyası həyata keçirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi - Qərbi Azərbaycana Qayıdış Konsepsiyası mövzusuna da toxunulub.

Bütün bunlar kitabda ayrı-ayrı başlıqlar altında dörd fəsildə yerləşdirilib. Onu da qeyd edək ki, kitab ingilis dilində də nəşr olunub.

***"Azərbaycan"***

# Qlobal proseslər 2025-ci ildə Azərbaycanın iqtisadi sabitliyinə necə təsir etdi?

**Hazırda qlobal iqtisadiyyatda ciddi təlatümlər və volatillik müşahidə olunur. Bir tərəfdən geosiyasi gərginliklər və müharibələr qlobal iqtisadi artıma mənfi təsir göstərir, digər tərəfdən dünya ticarət dövriyyəsinin azalmasına və strateji məhsulların qiymətlərində dalğalanmalara səbəb olur.**



Bu barədə AZƏRTAC-a açıqlamasında deputat Vüqar Bayramov bildirib. Onun sözlərinə görə, 2025-ci ildə həm neftin, həm də digər strateji məhsulların qiymətlərində dəyişkənlik müşahidə edilib.

"Belə ki, neft və qazın qiymətlərində azalmalar qeydə alındığı halda, qızılın qiymətində artım olub. Qızılın bahalaşması əsasən qlobal iqtisadiyyatda mövcud olan qeyri-müəyyənliklə bağlıdır. Qlobal risklər artdıqca investorlar qızıl bazarına daha çox sərmayə qoymaqda maraqlı olurlar ki, bu da qiymət artımına səbəb olur. Bütün bu qlobal çətinliklərə baxmayaraq, Azərbaycan iqtisadiyyatı 2025-ci ildə iqtisadi artım tempini qoruyub saxlayıb. Ən mühüm məqamlardan biri iqtisadi artımda qeyri-neft sektorunun payının artmasıdır. Belə ki, ilin ötən dövründə neft-qaz və ümumilikdə enerji sektorunda 1,8 faiz azalma qeydə alındığı halda, qeyri-neft-qaz sektorunda təxminən 4 faiz artım olub. Bu göstəricilər qeyri-neft sektorunun 2025-ci ildə iqtisadi inkişafın əsas drayverinə çevrildiyini göstərir", - deyə Vüqar Bayramov vurğulayıb.

Deputatın fikrincə, bu tendensiya iqtisadiyyatın diversifikasiyası və uzunmüddətli dayanıqlığın təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.




# Xalqımız hər zaman yaddaşına sadiq qalacaq

**Bu gün regionda sülh prosesi ilə bağlı müzakirələr aparılır, müxtəlif siyasi platformalarda gələcəyə dair nikbin fikirlər səsləndirilir. Azərbaycan dövləti hər zaman sülhün tərəfdarı olduğunu bəyan edib və bu mövqeyini əməli addımlarla sübut edib.**

Tarixinin ən ağır, ən çətin dönəmlərində, ədalətsizliklərlə üzləşəndə, beynəlxalq səviyyədə hüquqları pozulanda Azərbaycan öz haqqı uğrunda mübarizəsini bir an belə dayandırmadı, eyni zamanda işğal olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərinin azadlığının müharibə deyil, sülh yolu ilə reallaşmasına səy göstərdi.

Danışıqlar fayda vermədi, müharibə oldu. 2020-ci il sentyabrın 27-də işğalçılıq niyyətindən əl çəkməyən Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı İkinci Qarabağ müharibəsinin başlaması ilə nəticələndi. Ancaq Ermənistan və ona havadarlıq edənlər bu dəfə qarşılarında qüdrətli bir ölkənin olduğunu gördülər və tarixi dərslərini aldılar. Müzəffər Azərbaycan Ordusu 44 gün ərzində Ermənistanın otuz ilə yaxın davam etdirdiyi işğala son qoyaraq Qarabağ və Şərqi Zəngəzur torpaqlarını azad etdi. Bu, Qalib Azərbaycan üçün yeni bir tarixi mərhələnin başlanğıcı oldu.

Müharibədən qısa müddət sonra azad edilmiş torpaqlarımızda başlanılan, bu gün sürətlə davam etdirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin nəticələri sevindirici və qürurvericidir. Düşmənin xarabalığa çevirdiyi Qarabağda və Şərqi Zəngəzurda "Böyük qayıdış" proqramı çərçivəsində yeni kəndlər, qəsəbələr, şəhərlər salınır. Keçmiş məcburi köçkünlər tədricən öz yurdlarına qayıdır, yeni evlərinin işıqlarını yandırırlar.

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında iştirak etdi, buraya köçən sakinlərlə görüşərək onlarla sevinclərini bölüşdülər. Görüşdə çıxış edən dövlət başçısı işğal dövründə Ağdamın demək olar ki, urbisidə məruz qaldığını, yəni şəhərin Ermənistan dövləti tərəfindən tamamilə dağıdıldığını vurğuladı.

İşğalçıların xarabalığa çevirdikləri yurdlarımızı dövlətimiz abad etdikcə həmin yerlərdə həyat canlanmağa başlayır, tarix isə unudulmur...

Azərbaycan xalqı XX əsrin sonlarında ağır və ağrılı bir mərhələdən keçdi, dəhşətli faciələrə məruz qaldı. Ermənistanın ölkəmizə qarşı apardığı işğalçı siyasət nəticəsində torpaqlarımızın iyirmi faizi işğal olundu. Bu işğal həm də genişmiqyaslı humanitar fəlakətə səbəb oldu. Bir milyondan artıq soydaşımız doğma yurd-yuvasından didərgin salındı və məcburi köçkün vəziyyətinə düşərək uzun illər məşəqqətlər çəkməli oldu. Qəsbkar ermənilər minlərlə insanı işgəncələr verərək qətlə yetirdi. Yüz minlərlə ailə doğma yurd-yuvasından didərgin salındı. Mədəni irsimiz vandalizmə məruz qaldı. İşğalçılar şəhər və kəndlərimizi yerlə yeksan etdilər. Həmin ərazilərimizdəki dünya və ölkə əhəmiyyətli tarixi abidələri, məscidləri, qəbiristanlıqları məqsədli şəkildə dağıtdılar. Həmin dəhşətli faktları xatırlayanda istər-istəməz düşünürsən ki, bəli, bu, sadəcə münaqişə deyildi, planlı şəkildə həyata keçirilmiş etnik təmizləmə və insanlığa qarşı cinayətlər idi.

Prezident İlham Əliyevin Ağdam sakinləri ilə görüşündə diqqətə çatdırdığı kimi, bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi: "Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır".

Dövlət başçısının qürurla vurğuladığı kimi, beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi. Ermənistanın və himayədarlarının müxtəlif vasitələrlə vaxtı uzadaraq Azərbaycanı Qarabağ və Şərqi Zəngəzur ərazilərinin işğalı ilə barışdırmaq kimi məkrli niyyətləri puça çıxdı. Azərbaycan Ordusu 2020-ci ildə Vətən müharibəsində və 2023-cü ildə antiterror əməliyyatında qazandığı qələbələrlə Qarabağı və Şərqi Zəngəzuru Ermənistanın əsarətindən xilas etdi. Beləliklə, ölkəmizin tam suverenliyinə nail olduq. Prezident İlham Əliyevin dediyi kimi: "Bugünkü yeni reallıqlar dünyanın aparıcı ölkəsinin Prezidentinin iştirakı ilə avqust ayında təsdiqləndi, möhürləndi. Bizim Qələbəmizin çox böyük və güclü möhürü də vuruldu, onunla da separatçılığın, bizə qarşı ərazi iddialarının, anti-Azərbaycan qüvvələrinin bizə qarşı açıq "soyuq savaşı"nın artıq sonu gəldi, separatçılığın kitabı bağlandı və Azərbaycan xalqı artıq bir neçə aydır ki, sülh içində yaşayır".

Sülh anlayışı keçmişi unutmaq, tarixi yaddaşı kölgəyə salmaq və xalqın yaşadığı faciələri xatirələrdən silmək anlamına gəlmir. Əksinə, həqiqi və davamlı sülh yalnız tarixi reallıqların qəbul edilməsi üzərində qurula bilər. Çünki unudulan tarix gec-tez təkrarlanır.

Sülhsevər Azərbaycan xalqı da hər zaman öz tarixi yaddaşına sadiq qalacaq. 1980-ci illərin sonlarından başlayaraq Qarabağda, Şərqi Zəngəzurda günahsız azərbaycanlılara qarşı təcavüzkar ermənilərin törətdikləri qırğınları, qətliamları, soyqırımlarını unuda bilmərik. Bu faciələrin ən qanlı və dəhşətli səhifəsi - Xocalı soyqırımı yalnız azərbaycanlıların deyil, bütün insanlığın fəlakəti oldu. 1992-ci il fevralın 26-dan 27-nə keçən gecə azğınlaşmış işğalçılar Xocalı adlı bir şəhəri məhv etdilər, sakinlərinə amansızlıqla divan tutdular. Ermənilər yalnız azərbaycanlı olduqları üçün qadınlara, uşaqlara, qocalara işgəncələr verdilər, yüzlərlə soydaşımızı amansızlıqla qətlə yetirdilər və ya şikəst etdilər. Xocalıda dinc əhaliyə qarşı törədilmiş bu vəhşilik insanlığa qarşı cinayətlərin ən acı nümunəsidir. Xocalı soyqırımı Azərbaycan xalqının qan yaddaşına çevrilib. Xocalını unutmaq ədaləti unutmaq deməkdir.

Xocalı başda olmaqla, Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımlarını xatırlamaq ədaləti yaşatmaq və gələcək faciələrin qarşısını almaq üçün zəruridir. Çünki milli yaddaşa söykənməyən sülh cəmiyyəti yeni faciələrə sürükləyə bilər. Odur ki, tarixi həqiqətlər tanıdılmalı, törədilmiş cinayətlərə siyasi və hüquqi qiymət verilməli, qurbanların haqqı bərpa olunmalıdır.

Azərbaycan sülhün tərəfdarıdır. Prezident İlham Əliyev bildirdi: "Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq".

Tariximizi xatırlamaq, gələcək nəsillərə ötürmək bizim borcumuz və məsuliyyətimizdir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Başlıca məqsədimiz xarici auditoriyanın obyektiv məlumatlandırılmasıdır"

**"Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi tərəfindən ölkənin xarici siyasət gündəminin obyektiv və yığcam təsvirini əhatə edən 12 bülleten hazırlanıb".**

AZƏRTAC xəbər verir ki, bu barədə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev mətbuat konfransında məlumat verib.

O qeyd edib ki, 2025-ci ildə Azərbaycan dilində bir kitab nəşr edilib. "Yaxın Şərqdə erməni diasporu" adlı kitabda sözügedən regionda erməni icmasının ən geniş yayıldığı 5 ölkə üzrə erməni diasporunun tarixi konteksti, siyasi, ictimai və mədəni fəaliyyət istiqamətləri, təsir dairələri, potensial imkanları təhlil edilib.



"Qeyd etmək istərdim ki, başlıca məqsədimiz xarici auditoriyanın obyektiv və düzgün məlumatlandırılması olduğu üçün kitab və hesabat xarakterli nəşrlərimiz əsasən ingilis dilində hazırlanıb. Ümumilikdə ingilis dilində 6 kitab hazırlanıb, "İlham Əliyev Xarici Siyasət Uğurları 2003-2023" broşürünü də ingilis dilinə tərcümə etmişik", - deyə F.Şəfiyev vurğulayıb.

# Sekuta: "2025-ci il Azərbaycan-ABŞ münasibətləri üçün çox vacib bir il oldu"

**"2025-ci il Azərbaycan-ABŞ münasibətləri baxımından çox vacib bir il oldu".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında ABŞ-nin Azərbaycandakı keçmiş səfiri Robert Sekuta deyib.

O bildirib ki, Azərbaycanla Ermənistan arasında razılaşmanın nə qədər vacib olduğu yüksək qiymətləndirilməlidir. "Düşünürəm ki, burada vacib olan məsələ əvvəlcə Azərbaycan və Ermənistanın sülh razılaşmasının bağlanması üçün bir-biri ilə bağlı gördüyü işlər, ikincisi isə ABŞ-nin Azərbaycan və Ermənistana bu işdə irəliləməkdə kömək etmək üçün çox fəal, müsbət rol oynamasıdır. Burada əsas məqam kimi avqustun 8-də imzalanmış razılaşmalar, həm də Azərbaycanın və Ermənistanın narahatlıqlarının həlli üçün yol tapmaq baxımından Trampın Beynəlxalq Sülh Və Rifah Marşrutu ideyası qeyd olunmalıdır. Əsas odur ki, biz bu işi davam etdirməliyik, Azərbaycan və Ermənistan bunu davam etdirməlidir. Mən artıq bunun əlamətlərini görürəm", - deyə keçmiş səfir əlavə edib.

Sekuta bildirib ki, ABŞ-nin Mərkəzi Asiyaya artan marağı var və Azərbaycan Cənubi Qafqaz ölkəsi olsa da, Mərkəzi Asiyanın təhlükəsizliyinin, Orta dəhlizin və bütün bunların inkişafının ayrılmaz bir hissəsidir.

# Moskva Bakı ilə İrəvan arasında dialoqda müsbət dinamika görür

**"Rəsmi Moskva Azərbaycanla Ermənistan arasındakı dialoqda müsbət dinamika, eləcə də region daxilində əlaqələrin bərpası və qurulması istiqamətində perspektivlər görür".**



AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib. O, Rusiya tərəfinin nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması prosesinin başlanmasını alqışladığını vurğulayıb.

Mariya Zaxarova Rusiyaya məxsus taxılın Azərbaycan ərazisindən tranzit yolu ilə keçməklə Ermənistana tədarükünü qeyd edərək, bunun regional "3+3" əməkdaşlıq formatının inkişafının aktuallığını təsdiqlədiyini bildirib.

O həmçinin Moskvanın bu platformanın iclaslarında gürcü həmkarlarını da iştirakçılar arasında görmək istədiyini qeyd edib.

# "Azərbaycan tərəfdaşlıqların diversifikasiyasına üstünlük verir"

**"Azərbaycan tərəfdaşlıqların diversifikasiyasına, texnoloji modernləşməyə və özünün müdafiə imkanlarının inkişafına üstünlük verir".**



Bu barədə AZƏRTAC-ın "Azərbaycan və dünya" proqramının aparıcısı Tamilla Məmmədovaya ABŞ-nin milli təhlükəsizlik və beynəlxalq münasibətlər sahəsində eksperti İrina Tsukerman söyləyib.

Onun qiymətləndirməsinə görə, ABŞ-nin rolu tamamilə aradan qalxmasa da, bunun nisbi şəkildə azalması Azərbaycanı Türkiyə, İsrail və bir sıra Asiya dövlətləri ilə daha balanslaşdırılmış münasibətlər sisteminə yönəldir. Bu yanaşma Azərbaycanın bir güc mərkəzindən asılılıqdan yayınmasına və öz təhlükəsizlik sisteminin dayanıqlılığını artırmasına imkan verir.

Ekspertin fikrincə, diplomatik müstəvidə isə Bakı regional məsələlər üzrə danışıqlarda tonallıq və tempin seçilməsində daha böyük azadlıq əldə edir. Bu, dəyişən beynəlxalq vəziyyətə çevik reaksiya verməyə və sərt xarici bağlılıq olmadan öz gündəliyini irəli sürməyə imkan yaradır.

İ.Tsukerman onu da vurğulayıb ki, ABŞ-nin Avropa təhlükəsizliyinin əsas təminatçısı rolundan tədricən geri çəkilməsi Azərbaycan üçün gözlənilməz olmayıb, lakin artıq əvvəlcədən inkişaf mərhələsində olan prosesləri sürətləndirib.

Onun sözlərinə görə, Bakı ənənəvi olaraq Vaşinqtonla münasibətləri praqmatik şəkildə qurub və bu əlaqələri yeganə xarici siyasət dayağı kimi dəyərləndirməyib. Nəticədə Trans-Atlantik təminatların zəifləməsi şok effekti yaratmayıb, lakin Qərb üçün xarakterik olan regional münaqişələrə xarici təzyiqləri azaldıb.

Ekspert bildirib ki, mövcud bu vəziyyət Azərbaycanın özünü daha inamlı hiss etdiyi ikitərəfli və çoxtərəfli regional formatlar üçün geniş imkanlar yaradır. Enerji müstəvisində ABŞ-nin ikinci plana keçməsi Azərbaycanın Avropa üçün etibarlı enerji resursları təchizatçısı kimi əhəmiyyətini artırır. Bununla yanaşı, İrina Tsukerman vurğulayıb ki, Bakı enerji tərəfdaşlığının siyasi asılılığa çevrilməsinə yol verməməyə çalışır.

Ekspertin söylədiyinə görə, Cənubi Qafqazda xarici təminatların zəifləməsi fonunda daha muxtar geosiyasi məkan formalaşır və Azərbaycan bu prosesin əsas hərəkətverici qüvvələrindən biri kimi çıxış edir.

O hesab edir ki, Azərbaycanın iqtisadi resursları, enerji potensialı və fəal diplomatiyası regional müstəqilliyin əsasını formalaşdırır. Ölkənin coğrafi mövqeyi onu Şərqlə Qərb arasında təbii qovşağa çevirir və bu da Bakının nəqliyyat, logistika və enerji layihələrində rolunu gücləndirir.

Onun qiymətləndirməsinə görə, siyasi müstəvidə Azərbaycan postmünaqişə reallığını idarə etmək qabiliyyətini nümayiş etdirir və bərpa ilə inteqrasiyanın məhdud xarici dəstək şəraitində daxili proses kimi həyata keçirilə biləcəyini sübut edir. Regionda qarşılıqlı iqtisadi asılılıq tədricən xarici təzyiqləri üstələməyə başlayır və Bakı bundan istifadə edərək eyni vaxtda bir neçə tərəf üçün faydalı olan layihələr təklif edir.

İ.Tsukermanın sözlərinə görə, ümumilikdə Cənubi Qafqaz daha böyük geosiyasi müstəqilliyə doğru irəliləyir və Azərbaycan bu prosesdə yalnız sabitləşdirici deyil, həm də təşəbbüskar rol oynayır, üstünlük əldə etməyə deyil, regional sistemin dayanıqlılığına can atır.

# Baş Prokurorluqda Kollegiya iclası keçirilib

**Dekabrın 26-da baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə cari il ərzində görülmüş işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilib.**

Kollegiya iclasında giriş nitqi ilə çıxış edən baş prokuror Kamran Əliyev cari ilin xalqımız, o cümlədən hüquq ictimaiyyəti üçün əlamətdar hadisələrlə zəngin bir il olduğunu bildirib.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin Konstitusiyanın qəbulunun 30 və Vətən müharibəsində qazanılmış Qələbənin 5 illiyinə təsadüf etməsi ona xüsusi mənəvi mahiyyət qatmışdır. Bildirilib ki, bu ilin qeyd olunması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinə ehtiramın ifadəsi olmaqla, Ulu Öndərin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Konstitusiya əsasında dövlət suverenliyi, qanunun aliliyi və insan hüquq və azadlıqlarının təmin edilməsi, eləcə də Azərbaycanın hüquqi dövlət kimi formalaşmasını əks etdirir.



Çıxış zamanı həmçinin vurğulanıb ki, Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə dövlət idarəçiliyinin təkmilləşdirilməsi, hüquqi islahatların dərinləşdirilməsi, vətəndaşların sosial rifahının yüksəldilməsi və Azərbaycanın beynəlxalq nüfuzunun daha da möhkəmləndirilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunmuş, bu sahədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva da yaxından iştirak etmiş, bu siyasətin məntiqi davamı olaraq işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri yüksək sürətlə davam etdirilir.

Eyni zamanda qeyd edilib ki, Prezident İlham Əliyevin uğurlu xarici siyasət kursu mürəkkəb qlobal proseslər fonunda Azərbaycanın beynəlxalq mövqelərini gücləndirmiş, xüsusilə ABŞ və Çin Xalq Respublikası ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə imkan yaradıb. Vurğulanıb ki, bu uğurlu xarici siyasət ölkədə siyasi sabitliyin möhkəmlənməsi və daxili inkişaf üçün əlverişli şəraitin formalaşmasını təmin etmişdir.

Prokurorluq orqanlarının fəaliyyətinə toxunarkən Kamran Əliyev tərəfindən ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan prokurorluğunun rolu qeyd edilməklə, prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlər və statistik göstəricilər kollegiya üzvlərinin diqqətinə çatdırılıb, ümumən qeydə alınmış cinayətlərin sayında azalmanın müşahidə edildiyi, bu nailiyyətlərin əldə olunmasında digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə həyata keçirilən preventiv, operativ və istintaq tədbirlərinin effektivliyi vurğulanıb.

Eyni zamanda prokurorluq orqanlarının vətəndaşların hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi və ictimai təhlükəsizliyin möhkəmləndirilməsi sahəsində davamlı və sistemli fəaliyyət göstərdiyi diqqətə çatdırılıb.

Həmçinin çıxışda baş Prokuror qeyd edib ki, 2025-ci ilin prokurorluq orqanlarının fəaliyyəti baxımından mühüm beynəlxalq hadisələrlə yadda qalmışdır. Bu çərçivədə Baş Prokurorluğun təşkilatçılığı ilə bir sıra beynəlxalq tədbirlər, konfranslar keçirilib.

İclasda həmçinin Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklərin edilməsi, həmçinin "Prokurorluq orqanlarının 2026-cı ildə ictimaiyyətin maarifləndirilməsinə dair Yol Xəritəsi" layihəsinin müzakirəsi və təsdiqi məsələsi ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunmuş vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov məruzələrlə çıxış ediblər.

Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirib, sonda bir sıra məsələlər üzrə Kollegiyanın qərarı qəbul olunub.

İclasa yekun vuran baş prokuror Kamran Əliyev Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bundan sonrakı fəaliyyəti zamanı da dövlət və xalqımızın mənafeyi naminə qanunla üzərinə qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Dövlət Təhlükəsizliyi Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyinin birgə məlumatı

**03 dekabr 2025-ci il tarixində Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) növbəti layihələri üzrə ümumilikdə 627 mənzilin "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" sistemi vasitəsilə satışı zamanı Dövlət Təhlükəsizliyi Xidməti (DTX), Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və MİDA tərəfindən tətbiq edilən informasiya təhlükəsizliyi mexanizmləri ilə sistemin təhlükəsiz fəaliyyəti nəzarətdə saxlanılmış və təmin edilmişdir.**




Mənzil seçimi prosesinə nəzarət və informasiya təhlükəsizliyi tədbirləri həyata keçirilərkən müxtəlif kiberhücum cəhdləri müşahidə edilmiş və operativ şəkildə aşkarlanaraq neytrallaşdırılmışdır.

Qeydə alınan müvafiq faktlarla bağlı DTX-də cinayət işi başlanılmışdır.

Müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşları - C.Süleymanlı və T.Abdulov onlara müraciət etmiş müxtəlif vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etmələri prosesini sürətləndirmək, bu prosesdə həmin vətəndaşlara qanunsuz üstünlük qazandırmaq məqsədilə əvvəlcədən əldə etdikləri və informasiya texnologiyaları sahəsində xüsusi texniki imkanlardan istifadə edərək uyğunlaşdırdıqları xüsusi proqram təminatını MİDA-nın "Güzəştli mənzil" informasiya sistemində mənzil seçimi prosesini təmin edən istifadəçi səhifəsinə və ona inteqrasiya edilmiş mühafizə mexanizminə qanunsuz tətbiq etməklə, 03 dekabr 2025-ci il tarixində saat 11:00-da kompüter infrastrukturunun normal fəaliyyətinə qəsdən ciddi maneə yaratmağa yönələn hərəkətlər etmişlər.

Qeyd olunan şəxslər DTX tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci (kompüter sisteminə qanunsuz müdaxilə - hüququ olmadan kompüter məlumatlarını qəsdən daxil etmə yolu ilə kompüter sisteminin işləməsinə təkrar qəsdən maneə törətməyə yönələn hərəkətlər) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmişlər.

Hazırda əlaqəli xüsusatlarla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir.

İlə yekun vurulur

# 2025-ci ildə Azərbaycan 22 ölkəyə neft, 14 ölkəyə qaz ixrac edib

**Yekunlaşmaqda olan 2025-ci ildə Azərbaycanda neft və qaz hasilatı ahəngdar gedib. Bu, ixracın da fasiləsizliyinə imkan verib. Beləliklə, dünya bazarlarına ölkəmizdə hasil olunan karbohidrogenlərin ixracı davam edib.**

Əvvəlcə "qara qızıl"ımızın ixracı barədə. Cari ilin yanvar-noyabr aylarında Azərbaycandan 22 ölkəyə 22 milyon 132 min 445,56 ton həcmində neft ixrac olunub. Bu barədə Dövlət Gömrük Komitəsinin statistikasında bildirilir.

Hesabat dövründə Azərbaycanın neft ixrac etdiyi TOP-5 ölkə sırasına İtaliya, Çexiya, Xorvatiya, Rumıniya və Almaniya daxil olub. Ötən 11 ayda İtaliyaya 6 milyard 524 milyon 604,65 min dollar dəyərində 12 milyon 670 min 719,72 ton, Çexiyaya 742 milyon 159,08 min dollar dəyərində 1 milyon 59,25 ton, Xorvatiyaya 666 milyon 587,01 min dollar dəyərində 1 milyon 255,21 min ton xam neft ixrac edilib. Rumıniyaya 559 milyon 691,19 min dollar dəyərində 1 milyon 43,111 min ton və Almaniya 502 milyon 18,65 min dollar məbləğində 956 min 716 ton neft göndərilib.

Xatırladaq ki, Azərbaycan neftini əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri nəql edir. 1768 kilometrlik bu kəmər başlanğıcını Bakı yaxınlığındakı Səngəçal terminalından götürür, Azərbaycanın və Gürcüstanın ərazisindən keçərək Türkiyəyə çatır. Orada da xeyli məsafə qət etdikdən sonra Ceyhan limanında marşrutunu başa vurur. Azərbaycan neftinin dünya bazarlarına yolu da məhz Ceyhandan başlayır.

Ölkəmizin mavi yanacaq ixracı coğrafiyası da ildən-ilə genişlənir. Belə ki, bu il Azərbaycandan 14 ölkə qaz alıb. Bunlar Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriyadır.

Bu ilin yanvar-noyabr aylarında Azərbaycan 22 milyard 804 milyon kubmetrdən artıq təbii qaz ixrac edib. Bu rəqəmlər Dövlət Gömrük Komitəsinin məlumatlarına əsaslanır. Göstərilən həcmdə qazın dəyəri 8,1 milyard dolları keçib. Məlumatlarda Avropa bazarına ixracın artdığı göstərilir.

Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi məlumatlar əsasında apardığı təhlilə görə, son 5 ilin yanvar-sentyabr ayları üzrə ölkənin qaz ixracında əvvəlcə ardıcıl artım, daha sonra isə pik göstəricinin ardınca nisbi sabitləşmə müşahidə olunub.

Son məlumatlara əsasən, 2025-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanın təbii qaz ixracının coğrafi bölgüsü əsasən iki ölkənin üzərində cəmləşib. Bu dövrdə ixracın ən böyük payı qardaş Türkiyəyə məxsus olub. Belə ki, Türkiyəyə 6,64 milyard kubmetr təbii qaz satılıb və bu, ümumi ixracın 40,3 faizini təşkil edir.

Azərbaycan qazının ikinci ən iri alıcısı İtaliya olub. Həmin ölkəyə 6,25 milyard kubmetr qaz ixrac edilib və bu göstərici ümumi ixrac strukturunda 38 faiz paya malikdir. Bununla da yalnız Türkiyə və İtaliya birlikdə Azərbaycanın qaz ixracının üçdəikisindən çoxunu formalaşdırıb.

Qaz ixracının qalan hissəsi digər ölkələr arasında paylanıb. Məsələn, Gürcüstana 1,55 milyard kubmetr (9,4 faiz), Bolqarıstana 1,23 milyard kubmetr (7,5 faiz), Yunanıstana isə 0,6 milyard kubmetr (3,6 faiz) qaz göndərilib. Siyahının sonrakı pilləsində Serbiya qərarlaşıb. Bu ölkə 0,18 milyard kubmetr qaz alıb ki, bu da ümumi ixracın cəmi 1,18 faizinə bərabərdir.

Ümumilikdə, statistik göstəricilər Azərbaycanın qaz ixracının əsasən Türkiyə və Avropa İttifaqı ölkələri üzrə cəmləşdiyini, ölkənin regional və qlobal enerji bazarlarında strateji rolunun getdikcə artdığını nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycan qazı Gürcüstana 2006-cı ildən Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə çatdırılır. Türkiyə ölkəmizdən qazı 2007-ci ildən Bakı-Tbilisi-Ərzurum xətti, 2018-ci ildən həmçinin TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) alır. Avropaya isə qaz TANAP-a birləşən TAP-la (Trans-Adriatik Qaz Boru Kəməri) - "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti ilə ixrac edilir. Yeri gəlmişkən, bu günlərdə ölkəmizin Avropaya qaz ixrac etməsinin 5 ili tamam olacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*







# Keçmiş məcburi köçkünlər yurdlarında yeni mənzillərinə yerləşiblər









**Ağdam**

Dünən yola düşən növbəti köç karvanı rayonun Xıdırlı kəndinə çatıb. Xıdırlıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub. AZƏRTAC-ın verdiyi məlumata görə, dünən Xıdırlı kəndində 278 nəfərdən ibarət 64 ailəyə mənzillərin açarları təqdim olunub. Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Köçürülən ailələr üçün Xıdırlı kəndində rahat yaşayış şəraiti yaradılıb. Onlar sevinc hissi ilə mənzillərin açarlarını qəbul edərək yeni evlərində yerləşiblər.

**Xocalı**

Dünən rayonun Seyidbəyli kəndinə daha bir köç prosesi baş tutub. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu mərhələdə kəndə 48 nəfərdən ibarət 11 ailə köçürülüb. Köç edən ailələr dünən yeni mənzillərinə yerləşiblər. Mənzillərin açarlarının təqdimatı mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri iştirak ediblər.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşı Xasay Cahangirov sakinlərə Seyidbəyli kəndində görülən işlər barədə ətraflı məlumat verib. Bildirib ki, kənddə müasir tələblərə cavab verən fərdi yaşayış evləri bərpa olunub, qaz, elektrik və su xətləri tam yenilənib, eyni zamanda digər sosial infrastruktur obyektləri yenidən qurulub.

**Xocavənd**

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, rayonun Hadrut qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, yola salınan ailələr doğma yurdlarına qovuşublar.

AZƏRTAC xəbər verir ki, Hadrut qəsəbəsi dünən 13 ailə olmaqla, 51 nəfərə qucaq açıb. Qəsəbədə sakinlərin məskunlaşması üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və kommunikasiya xətləri bərpa edilib.

Köç karvanı ilə Hadrut qəsəbəsinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

AZƏRTAC xəbər verir ki, Hadruta köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr açarları sevinclə qəbul edərək, evlərində məskunlaşıblar.

Qeyd edək ki, hər üç rayona qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər, azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər. Onlar vurğulayıblar ki, bu gün doğma yurdlarında başlanan yeni həyat həm də şəhid və qazilərimizin bizə əmanət etdiyi Zəfərin bəhrəsidir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## ABŞ-nin Lemkin İnstitutu təxribatla məşğuldur

### Azərbaycan QHT-ləri bu qurumun Prezident Donald Trampın təşviq etdyi sülh gündəliyini pozmağa yönəlik iddialarından narahatdır

**ABŞ-nin Lemkin İnstitutunun bu ölkənin Prezidentinə Ruben Vardanyan da daxil olmaqla, müharibə cinayətlərində ittiham olunan erməniəsilli şəxslərin Milad bayramı münasibətilə azadlığa buraxılması üçün Azərbaycana təzyiq göstərməyə dair müraciətinə cavab olaraq, Azərbaycanın QHT nümayəndələri dekabrın 25-də Donald Trampa açıq məktub yazıblar.**

Bundan əvvəl, dekabrın 23-də Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunun özünə də açıq məktub ünvanlayaraq bu təsisatı Ermənistandakı revanşist qrupun maraqlarını ifadə etməkdə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyini sarsıtmağa çalışmaqda ittiham edib. Qeyd olunub ki, Xocalı soyqırımı kimi kütləvi qırğınlara göz yuman Lemkin İnstitutu ilk növbədə elan etdiyi missiyaya xəyanət edir. Azərbaycan Milli QHT Forumu Lemkin İnstitutunu təxribatçı çağırışlarına görə Azərbaycan ictimaiyyətindən üzr istəməyə çağırıb.

Azərbaycan QHT-lərinin ABŞ Prezidentinə müraciətində deyilir ki, məhz onun sülh yaradan liderliyi sayəsində Cənubi Qafqaz regionu son 35 ilin ən dinc dövrünü yaşayır. Bu nailiyyət 2025-ci il avqustun 8-də Vaşinqton Birgə Bəyannaməsi vasitəsilə şəxsən Donald Tramp tərəfindən təmin edilib. Tərəflərin sülhə bu qədər yaxın olduqları zamanda ABŞ-nin "Lemkin İnstitutu" adlandırılan qurum Donald Trampın şəxsən təşviq etdiyi sülhü sarsıtmağa yönəlmiş kampaniyaya başlayıb. Hansı ki, o kampaniyaların heç bir əsası yoxdur.

QHT-lərin müraciətində ABŞ Prezidentinə əsaslandırılmış faktlar təqdim edilib. Həmin faktlarda göstərilir ki, Milad və Yeni ilin emosional ab-havasını fürsət bilən bu qrup həbsdəki məlum şəxslərin azadlığa buraxılması üçün təzyiq göstərməyə çağırış etsələr də, onlar bu ritorika ilə deyil, törətdikləri əməllərə görə qiymətləndirilməlidir. Məhz bu şəxslərin cinayətkar fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən beşdəbiri 30 ildən artıq müddət ərzində Ermənistanın işğalı altına düşüb, bir milyona yaxın azərbaycanlı etnik təmizləməyə məruz qalıb.

Dezinformasiya kampaniyaları aparanlar 30 ildən artıq davam etmiş işğal dövründə terrorizmin maliyyələşdirilməsi, təcavüzkar müharibənin aparılması və insanlıq əleyhinə cinayətlərin törədilməsi ilə bağlı ittiham olunan şəxsləri "girovlar" kimi qələmə verməyə çalışırlar. Onların əməlləri nəticəsində bir milyona yaxın azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, yüzlərlə mülki yaşayış məntəqəsi sistemli şəkildə məhv edilib. Saxlanılan şəxslərdən biri əvvəlki dövrdə USAID rəhbəri Samanta Pauer ilə sıx əlaqələri olan, Rusiya-ermənistanəsilli oliqarx Ruben Vardanyandır. O, Cənubi Qafqaz regionunda sülhün əldə edilməsinin qarşısını almaq məqsədilə Azərbaycanın əvvəllər işğal altında olmuş ərazilərində yaradılmış oyuncaq rejimə "dövlət naziri" kimi göndərilmişdi.

Azərbaycan bu məhkəmə proseslərini şəffaf şəkildə və beynəlxalq öhdəliklərinə uyğun olaraq həyata keçirir. Ruben Vardanyanla bağlı iş də daxil olmaqla, hüquqi icraatlar məhkəmə kollegiyaları tərəfindən aparılır və ictimaiyyət üçün açıqdır.

Amma adıçəkilən institut bu prosesi təqib kimi sırımağa çalışır. Əlbəttə ki, hər kəsin açıq şəkildə izləyə biləcəyi məhkəmə prosesində yaşananlar onu deməyə əsas verir ki, edilən cəhdlər tamamilə əsassızdır. Azərbaycan müsəlmanların, xristianların və yəhudilərin əsrlər boyu harmoniyada yaşadıqları dünyəvi ölkədir. Məsələn, ötən ay Bakı şəhərində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin rəsmi toplantısı keçirilib. Eyni zamanda tikintisi Azərbaycan dövləti tərəfindən maliyyələşdirilən ikinci katolik kilsə hazırda paytaxtda inşa olunmaqdadır. Bu faktlar bir daha Azərbaycanın dinlərarası dialoqa və tolerantlığa sadiqliyini nümayiş etdirir. Bu kimi çoxsaylı nümunələr var.

Ermənistan ilə Azərbaycan arasında baş vermiş münaqişə heç vaxt dini xarakter daşımayıb. Bəzi bədxahlar məhz ABŞ Prezidentinin şəxsi iştirakı sayəsində regionda əldə olunmuş sülhü sarsıtmağa cəhd edirlər. Vaşinqton razılaşmalarının ruhuna uyğun olaraq, Azərbaycan ilə Ermənistan arasında etimadın möhkəmləndirilməsinə yönəlmiş tədbirlərə başlanılıb və iqtisadi əlaqələr bərpa edilir.

Müraciətin sonunda qeyd edilir ki, ABŞ Prezidentinin liderliyi sayəsində dünyanın müxtəlif bölgələrində onilliklər boyu davam etmiş bir sıra münaqişələr artıq keçmişə çevrilib. QHT-lər inanırlar ki, Lemkin İnstitutu kimi pozucu qüvvələr Amerika ictimaiyyətini yanlış istiqamətləndirmək məqsədlərinə heç vaxt nail ola bilməyəcəklər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## 907-ci düzəlişin ləğv olunması ABŞ-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfələr verə bilər

**Dəyişən dünyada getdikcə beynəlxalq birliyin söz sahibi olan, aparıcı üzvlərindən birinə çevrilən Azərbaycan həmişə mehriban qonşuluq, qarşılıqlı əməkdaşlıq siyasəti yürüdüb. Başqa ölkələrlə yanaşı, ABŞ-Azərbaycan arasında da ikitərəfli əməkdaşlıq əlaqələri, xüsusən də siyasi, iqtisadi və strateji sahələrdə yüksələn xətlə inkişaf edir, qarşılıqlı anlaşmaya xidmət edən xoş münasibətlər qurulur. Azərbaycanın gündən-günə dünyada və regionda artan nüfuzu və ABŞ-nin strateji maraqları qurulan münasibətlərin dayaqlarını daha da möhkəmlədir.**



Amma təəssüflər olsun ki, 1992-ci ildə ABŞ Konqresində qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na elə həmin il əlavə olunmuş 907-ci düzəliş ABŞ-Azərbaycan əlaqələrinin inkişafına əngəl yaradır. ABŞ prezidentləri 2001-ci ildən başlayaraq hər il bu qanunun tətbiqini dayandırmışlar. Bu gün isə həmin düzəlişin tamamilə ləğv olunması istiqamətində mühüm işlər aparılır, zəruri addımlar atılır. Çünki Azərbaycan artıq ABŞ-nin ən etibarlı tərəfdaşlarından birinə çevrilib. Deməli, 907-ci düzəlişin ləğv edilməsi zamanın tələbidir.

Xatırladaq ki, "Azadlığa Dəstək Aktı" SSRİ-nin dağılmasından sonra Rusiya və müstəqil olmuş digər postsovet ölkələrində demokratik idarəetmə və azad bazar iqtisadiyyatının formalaşdırılmasına yardım etməyi nəzərdə tutur. Sonrakı illər bura humanitar, təhlükəsizlik və terrorizmlə mübarizə istiqamətləri də əlavə olunub. Təəssüflər olsun ki, elə həmin il Konqres akta Azərbaycanı yardım alan ölkələr siyahısından çıxarmağı nəzərdə tutan 907-ci düzəlişi əlavə edib. Bu düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə, həmçinin yerli özünüidarəetmə qurumlarına birbaşa yardımı qadağan edir. Düzəlişin ortaya çıxmasına, qəbul olunmasına səbəb isə inandırıcı olmayan bir arqument göstərilib. Guya ki, Azərbaycan hökuməti Qarabağda yaşayan erməniləri blokadada saxlayır. Heç bir əsaslı səbəb olmadan qəbul edilən 907-ci düzəliş 1992-ci ildən 2002-ci ilə qədər Azərbaycana ABŞ-dən birbaşa yardımın göstərilməsinin qarşısını alıb.

907-ci düzəlişin qəbul olunması nəticəsində yeni müstəqillik qazanmış və böyük çətinliklərlə üzləşən Azərbaycan səkkiz il ABŞ-dən yardımı ala bilməyib. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra 907-ci düzəliş əleyhinə fəaliyyət güclənib. Bu istiqamətdə mühüm işlər aparılıb.

Ulu Öndər Heydər Əliyev 27 iyul-7 avqust 1997-ci ildə ABŞ-yə rəsmi səfəri zamanı ABŞ-Azərbaycan münasibətlərinə böyük zərbə vuran 907-ci əlavənin ləğvinin zəruriliyini Prezident Klintona və Konqres üzvlərinin diqqətinə çatdırıb. 1 avqust 1997-ci ildə Heydər Əliyevlə söhbət zamanı Bill Klinton ABŞ Konqresinin 907-ci əlavəyə münasibətini dəyişəcəyini bildirib. O, əvvəlcə Azərbaycana yardımların təmin olunacağını, daha sonra həmin əlavənin ləğv ediləcəyini deyib.

Ulu Öndər Heydər Əliyevin Nümayəndələr Palatasında keçirdiyi görüşlər zamanı da ABŞ qanunvericiləri 907-ci düzəlişin əleyhinə olduqlarını bildiriblər. ABŞ erməni icması və lobbisinin müqaviməti nəticəsində həmin qanunun tam ləğvinə nail olunmasa da, 1997-2000-ci illərdə ABŞ Azərbaycana məhdud da olsa, müxtəlif yardımlar edib. 2000-ci ilin fevralında Heydər Əliyevin ABŞ-yə səfəri zamanı müdafiə naziri Uilyam Kohenlə 907-ci düzəlişin daha çox qarşısını aldığı hərbi əməkdaşlıq məsələlərindən danışılıb.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən üçtərəfli görüş Cənubi Qafqazda uzunmüddətli münaqişənin həllinə doğru atılan ən mühüm addımlardan biri kimi tarixə yazıldı. Keçirilən tarixi görüşün əsas nəticəsi sülh sazişinin paraflanması, regionda yeni nəqliyyat-logistika reallıqlarının formalaşdırılması və yeni əməkdaşlıq perspektivlərinin açılması oldu.

Görüş zamanı ABŞ administrasiyası tərəfindən uzun müddətdən bəri müzakirə olunan 907-ci düzəlişin dayandırılması ilə bağlı qərarın verilməsi də rəsmən elan edildi. Azərbaycan Prezidenti İlham Əliyev bu qərarı "33 il sonra ədalətin bərpası" kimi qiymətləndirdi.

907-ci düzəliş ABŞ tərəfindən hələ ki, ləğv edilməyib, sadəcə olaraq bir il müddətinə dondurulub. ABŞ qanunvericiliyinə görə, düzəliş yalnız onu qəbul edən orqan - Konqres tərəfindən ləğv edilə bilər. Prezidentin düzəlişi bir il müddətinə dondurmaq səlahiyyəti var.

Heç bir blokadanın olmadığı, Azərbaycanla Ermənistan arasında sülh, normallaşma prosesinin davam etdiyi, kommunikasiyaların açılması məsələsinin müzakirə olunduğu, ticarət əlaqələrinin bərpa edilməsi istiqamətində işlərin aparıldığı bir vaxtda heç bir əsası olmayan 907-ci düzəlişin ləğvi çox vacib məsələdir. Nəhayət, haqsızlığa, ədalətsizliyə son qoyulmalıdır.

Hazırda 907-ci düzəlişin ləğv edilməsi istiqamətində Konqresin özündə də müəyyən işlər aparılır. ABŞ Konqresinin üzvü Anna Paulina Luna bildirib ki, Azərbaycana verilən hərbi və maliyyə yardımlarını məhdudlaşdıran 907-ci düzəlişin tamamilə ləğv olunması vacibdir. Bu məqsədlə qanun layihəsini Nümayəndələr Palatasına təqdim edib. Qeyd edək ki, artıq bu barədə Konqresin saytında da məlumat yerləşdirilib. Luna bu addımın ABŞ-nin regional siyasətdə daha çevik hərəkət etməsinə imkan yaradacağını vurğulayıb. Onun sözlərinə görə, hazırkı məhdudiyyətlər mövcud reallıqlara uyğun deyil və tərəfdaşlıq əlaqələrinə əngəl törədir. Azərbaycanın enerji təhlükəsizliyi, regional stabillik və antiterror sahəsində ABŞ üçün strateji tərəfdaş olması nəzərə alınaraq, 907-ci düzəlişin saxlanması məqsədəuyğun deyil. Anna Paulina Luna dediklərinə onu da əlavə edib ki, qanun layihəsinin qəbul olunması Azərbaycan-ABŞ əlaqələrinin inkişafına töhfə verəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## "ABŞ 907-ci düzəlişi ləğv etməlidir"

**Əslində, bu gün biz Bakı ilə Vaşinqton arasında ikitərəfli münasibətlərin inkişafını görürük. Buna görə də, əslində, Azərbaycanın bundan sonra inkişafının hər hansı şəkildə məhdudlaşdırılması yolverilməzdir. Bu, çox güman ki, hüquqi cəhətdən bürokratik səhvdir.**

Bu fikri AZƏRTAC-a müsahibəsində ukraynalı politoloq Aleksandr Kovalenko bildirib.

Onun sözlərinə görə, Prezident Donald Tramp Bakı ilə münasibətlərə açıqdır. Son vaxtlar qeyd etdiyimiz kimi, onun Azərbaycan lideri İlham Əliyevlə kifayət qədər yaxşı əlaqəsi var.



"Bu baxımdan, əlbəttə ki, bu günə qədər faktiki olaraq köhnəlmiş və artıq sadəcə yersiz olan 907-ci düzəlişin ləğvi çox mühüm bir addım olacaq", - deyə o əlavə edib.

A.Kovalenkonun fikrincə, bu, zamana bağlı məsələdir: "İstənilən Qərb demokratiyası özünü mütərəqqi və inkişaf etmiş kimi göstərsə də, çox vacib bir mənfi cəhətə malikdir. Bu, bürokratik komponentdir və o, bəzən çox uzun müddətə uzana bilər. Düşünmürəm ki, bu, Azərbaycanın inkişafı, Bakı ilə ABŞ arasında əməkdaşlıq və Ermənistanla indi məhz müsbət istiqamətdə hərəkət edən ikitərəfli münasibətlərin bundan sonra da yaxşılaşması üçün hər hansı bir maneəyə çevriləcək. İrəvanın seçdiyi vektor düzgündür və o həm Azərbaycanın, həm də Ermənistanın maraqlarına uyğundur. Bu, Mərkəzi Asiya, Avropa və ABŞ arasında regionda daha qlobal inkişaf və müəyyən əsas təsir məsələsidir", - deyə ukraynalı ekspert vurğulayıb.

## *Türkiyə analitik mərkəzinin rəhbəri:* "907-ci düzəlişin ləğv edilməsi ABŞ ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq üçün stimuldur"

**ABŞ Konqresinin 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə qəbul etdiyi "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin ləğv edilməsi Vaşinqton ilə Bakı arasında daha sıx əməkdaşlığa yol açacaq. ABŞ Azərbaycanla, o cümlədən terrorizmlə mübarizə sahəsində fəal əməkdaşlıq edə biləcək.**

Bu barədə AZƏRTAC-a müsahibəsində Türkiyənin enerji strategiyaları və siyasətləri araşdırma Mərkəzinin (TESPAM) baş katibi Oğuzxan Akyener bəhs edib.

O, Azərbaycan ilə Ermənistan arasında sülh prosesində Orta dəhlizin mühüm halqası kimi Cənubi Qafqazın potensialının açılmasına töhfə verən irəliləyişlərə diqqət çəkib.

"907-ci düzəlişin ləğv edilməsi uzunmüddətli perspektiv layihələrə yönəlmiş bir çox xarici investor üçün də stimul olacaq", - deyə TESPAM rəhbəri Azərbaycanın əhəmiyyətli logistika və tranzit imkanlarına diqqət çəkərək bildirib.



Mərkəzin baş katibi ABŞ hakimiyyət nümayəndələrinin Azərbaycan və Ermənistan arasında sülh prosesinə xələl gətirilməsinin yolverilməzliyi ilə bağlı bəyanatlarını da xatırladıb.

"Vaşinqtonda sülh prosesinin təşviqində və Cənubi Qafqazda əlaqələrin normallaşdırılmasında maraqlı olduqlarını gizlətmirlər, TRIPP layihəsinin həyata keçirilməsinin əhəmiyyətini vurğulayırlar. Donald Tramp administrasiyası Azərbaycanı ABŞ-nin regionda tərəfdaşına və müttəfiqinə çevirməyə hazır olduğunu nümayiş etdirir ki, bu da təkcə Cənubi Qafqaza və Türkiyəyə deyil, bütün türk dünyasına fayda vəd edir", - deyə O.Akyener sözünü yekunlaşdırıb.

## "Bölgədəki reallıq qarşısında 907-ci düzəlişin qüvvədə qalması izaholunmazdır"

"Bu gün Azərbaycan ilə Ermənistan arasında sülh və normallaşma prosesi irəliləyir, kommunikasiya xətlərinin açılması və ticarət əlaqələrinin yenidən qurulması müzakirə olunur. Bu mənzərə qarşısında bölgədə iddia edildiyi kimi hansısa blokadadan söhbət belə gedə bilməz. Buna görə də Amerika Birləşmiş Ştatlarının (ABŞ) "Azadlığa dəstək aktı"na ədalətsiz şəkildə əlavə edilmiş 907-ci düzəlişin qüvvədə qalması artıq izaholunmaz bir ziddiyyət təşkil edir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Optimar" Araşdırma Mərkəzinin rəhbəri, siyasi ekspert Hilmi Daşdemir səsləndirib. O, bildirib ki, bu maddə



1990-cı illərin şərtlərində, birtərəfli narrativlər əsasında qəbul edilib. Halbuki bu gün Qarabağ məsələsi faktiki olaraq başa çatıb, Azərbaycan beynəlxalq hüquqa əsaslanan suverenliyini bərqərar edib. Bu sahədəki reallıq dəyişdiyi halda bu düzəlişin saxlanılması açıq-aydın ədalətsizlikdir.

"Doğrudur, ABŞ də bu vəziyyəti faktiki olaraq qəbul edib, Prezident Tramp da onun təsirini müvəqqəti dondurub. Lakin müvəqqəti həllər kifayət deyil. Əgər sülhdən danışılırsa, görülməli olan bu maddənin tamamilə ləğv edilməsidir. 907-ci düzəliş bu gün nə sülhə, nə də sabitliyə xidmət edir. Bu, yalnız keçmişin siyasi reflekslərini daşıyır. Sülh prosesinin ruhuna uyğun olan bu anakronik maddənin tarixə qovuşmasıdır", - deyə Hilmi Daşdemir bildirib.

## *Hulusi KILIÇ:* "907-ci düzəliş "tarixin zibilliyi"nə atılmalıdır"

**"ABŞ Konqresi tərəfindən 1992-ci ildə erməni lobbisinin təşəbbüsü ilə qəbul edilmiş "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş, nəhayət, "tarixin zibilliyi"nə atılmalıdır".**




Bu fikri Türkiyənin Azərbaycandakı keçmiş səfiri, Türkiyədə "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin nümayəndəsi Hulusi Kılıç AZƏRTAC-a müsahibəsində bildirib.

Onun sözlərinə görə, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə dialoq və səylər fonunda belə bir düzəlişin olması elementar məntiqə ziddir.

O qeyd edib ki, Bakıya münasibətdə qərəzli qərar ABŞ qanunvericiləri tərəfindən Azərbaycan ərazilərinin bir hissəsinin erməni işğalı altında olduğu, yüz minlərlə azərbaycanlının isə qaçqın və məcburi köçkünə çevrildiyi dövrdə qəbul edilib. "Təcavüz və işğalla qarşılaşan ölkəyə qarşı məhdudiyyətlərin tətbiq edilməsinin özü həddindən artıq subyektivliyin və ədalətsizliyin təzahürü oldu", - deyə H.Kılıç Qarabağ münaqişəsinin başa çatması ilə Bakı ilə İrəvan arasında möhkəm sülh üçün imkanların formalaşdığını, bunun isə 907-ci düzəlişin gündəmdə saxlanılmasını absurd etdiyini bildirib.

İMZA birliyinin nümayəndəsi Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünü xatırladıb. Bildirib ki, bu görüş çərçivəsində Ağ Evdə sülh sazişi paraflanıb və ABŞ Prezidentinin iştirakı ilə dövlət başçıları əlaqələrin normallaşdırılması prosesinə sadiq olduğunu bəyan ediblər.

H.Kılıç 907-ci düzəlişi həm Cənubi Qafqazda münasibətlərin normallaşmasına, həm də Azərbaycan ilə ABŞ arasında ikitərəfli əlaqələrə xələl gətirən "keçmişin rudimenti" adlandırıb. "Ağ Evin rəhbəri Donald Trampla Azərbaycan Prezidenti İlham Əliyev arasında dostluq münasibətləri hamıya məlumdur. Yaranmış vəziyyətdə ən doğru qərar Amerika lideri administrasiyası tərəfindən ABŞ Konqresinə 907-ci düzəlişin tam ləğv edilməsi təklifinin göndərilməsi görünür", - deyə o qeyd edib ki, anti-Azərbaycan düzəlişinin mövcudluğu da Cənubi Qafqazda mövqelərinin TRIPP layihəsi vasitəsilə möhkəmləndirilməsinə səy göstərən ABŞ-nin özünün maraqlarına ziddir.

H.Kılıçın sözlərinə görə, Amerika qanunvericiliyinə görə, ABŞ Prezidenti Vaşinqtonun siyasətinə zidd olan qərarların ləğvi təşəbbüsünü başlatmaq hüququna malikdir: "Donald Tramp bu hüquqdan ən qısa müddətdə istifadə etməli və Azərbaycana qarşı ədalətsizliyi, Cənubi Qafqazda sülhə təhdid amilini aradan qaldırmalıdır".

# Məktublar: problemlər, rəylər, təkliflər...



● QƏHRƏMANLAR

## Vətən kəlməsi ilə başlayan ömür

**Cahangir Dadaşov 1995-ci ilin payızında Sumqayıtda anadan olub. 39 saylı tam orta məktəbin şagirdi olan Cahangir hələ yeniyetməlik illərindən çevikliyi, vətənpərvərliyi ilə seçilib. Məktəb illəri onun üçün həm də xarakterinin formalaşdığı, gələcək həyat yolunun aydınlaşdığı illər olub.**



2016-cı ilin iyulunda Cahangirin həyatında tamam başqa bir səhifə açılıb. O, vətənə xidmət etməyə başlayıb. Nişançı, motoatıcı, kəşfiyyatçı kimi yetişən Cahangir hərbin sirlərini öyrənib.

2020-ci ilin payızında Azərbaycanın tarixi yenidən yazıldı. Xalqın taleyini dəyişən, millətin birliyini möhkəmləndirən 44 günlük Vətən müharibəsi başladı. Cahangir də minlərlə igid kimi vətən çağırışına ilk cavab verənlərdən oldu. O, Füzuli istiqamətində döyüşə atıldı, ayağından güllə yarası aldı, lakin iradəsi qırılmadı. O, müalicəsini qurtaran kimi yenidən döyüşlərə qatıldı.

Oktyabrın 30-da düşmən minaatanı partlayanda hər iki qulağında pərdələr zədələnsə də, o, yenə döyüş meydanını tərk etmədi. Sol ayağından qəlpə yarası aldı, yenə də inadından dönmədi.

Cahangirin fədakarlığı və igidliyi dövlət tərəfindən yüksək qiymətləndirilib. O, "Vətən müharibəsinin iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Döyüşdə fərqlənməyə görə", "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Ordusunun 100 illiyi" medalları ilə təltif edilib. Sinəsində gəzdirdiyi hər medal Cahangir üçün sadəcə metal parçası deyil. Onlar şücaətin, əzmin və vətən sevgisinin nişanəsidir.

Bu gün Cahangir Dadaşovun adı onun yaşadığı həyətdə, xidmət etdiyi bölmədə, döyüş yoldaşlarının yaddaşında qürurla çəkilir. O, ömür boyu daşıyacağı yaralarına baxmayaraq, bu gün də güclüdür, səbrli və məğrurdur. Onun keçdiyi yol bir gəncin həyat hekayəsidir. Bu hekayənin ilk sətri isə vətən kəlməsi ilə başlayır.

***İsmayıl ƏLİZADƏ,***
***Sumqayıt şəhər sakini***

● MƏMNUNLUQ

## Lazanın körpü problemi tez bir zamanda həll olundu

**Görənlər görüb, görməyənlər də bilirlər ki, Qusar dağlar qoynunda məskən salmış bir rayondur. Bölgənin iqlimi əsasən yağışlı, qarlıdır. Bu isə kənd təsərrüfatı rayonu olan Qusarın əhalisinə həm işdə, həm də məişətdə çətinlik yaradır. Bir sıra kəndlərin çətinliyi isə daha çox olur.**

Belə kəndlərdən biri də Lazadır. Ötən yay aylarından başlayan yağışlar kənddə bir çox fəsad törətdi. Lazanın ətraf ərazilərlə əlaqə yaradan körpüsünü sel apardı. Mənbəyini Şahnabad yaylağından götürən və Qusarçaya tökülən Laza çayının üzərindəki körpü dağılandan sonra kənd camaatı çətinliklə üzləşdi. Kəndin ətraf ərazilərlə əlaqəsi demək olar ki, tamam kəsildi. Camaat hansı bir işə görə kənddən kənara çıxmaq üçün çayın içindən keçməli olurdu. Odur ki, lazalılar rayon rəhbərləri ilə səyyar görüşdə belə bir problem yaşadıqlarını bildirdilər. Çox çəkmədi ki, körpünün inşası Qusar Rayon İcra Hakimiyyətinin müraciəti əsasında "Körpü-Bina-Tikinti" MMC-yə tapşırıldı. Yeni körpünün inşası qısa vaxtda tamamlandı.



Bu günlər körpünün rəsmi açılışı oldu. Açılış mərasimində rayon icra hakimiyyətinin başçısı Sahir Məmmədxanov, Laza və Sudur kəndlərinin sakinləri iştirak edirdilər. Çıxış edənlər əlaqədar təşkilatlara minnətdarlıqlarını çatdırdılar.

Göründüyü kimi, məmur məsuliyyəti çox işlərin həllinin açarıdır. Əhali və rəhbərlik arasında qarşılıqlı təmas varsa, problemlər də vaxtında öz həllini tapır.

***Xalid ƏZİZOV,***
***Quba rayonunun Laza kənd sakini***

● QAYĞI

## Qəlbin "bir isti addım"a ehtiyacı var

**Qubanın Tüləkəran İnzibati Ərazi Dairəsi bir neçə kəndi birləşdirir. Bu dairəyə daxil olan kəndlərin hər birində müasir təhsil ocaqları var. Son illər kəndlərin yolları da təmir edilib. Bu gün çox rahatlıqla istədiyin əraziyə yol almaq mümkündür.**

Amma bizi maddiyyatdan daha çox mənəvi tərəf düşündürür. Kəndlərimizdə imkanı yaxşı olanlarla yanaşı, imkansız ailələr də var. Quba Rayon İcra Hakimiyyəti və "Biganə qalma" sosial təşəbbüs qrupunun birgə təşkilatçılığı ilə rayonun Tüləkəran İnzibati Ərazi Dairəsi üzrə kəndlərində "Bir isti addım" aksiyası həyata keçirilib. Təşkilatçıların kəndlərdə apardıqları iş



nəticəsində imkansız ailələr müəyyənləşdirilərək belə ailələrdən olan 1-4-cü sinif şagirdlərinə, ümumilikdə 200 uşağa maddi yardım göstərilib. Aksiya zamanı uşaqlara qış mövsümü üçün ayaqqabılar, geyim ləvazimatı və müxtəlif hədiyyələr təqdim edilib. Tədbirin sonunda uşaqlar arasında bilik yarışması, əyləncəli proqram və oyunlar təşkil olunub.

Bütün dövrlərdə təhsilə göstərilən qayğı öz nəticəsini sonrakı zamanlarda göstərir. Odur ki, illər keçəcək, bu gün qayğı ilə əhatə edilən uşaqlar sabahın mühəndisi, müəllimi, dəyərli vətəndaşı olacaqlar. Onların hər biri sabah bu gün göstərilən qayğıkeşliyi, yardımı əməlləri ilə doğruldacaqlar.

***Əlimirzə MEHTİYEV,***
***Zakir NOVRUZOV,***
***Quba rayonunun Möhüc kənd sakinləri***

● RAZILIQ

## Küçəmiz işıqlığa çıxdı

**Biz Qazax şəhərinin Fərrux ağa Qayıbov küçəsində yaşayırıq. Küçəmizin işıqlandırılması uzun illər idi unudulmuşdu.**



Bu barədə rayon icra hakimiyyətinə müraciət etdik. Müraciətimizə əsasən, yerində baxış keçirildi və tədbirlər görülməsinə başlanıldı. Küçənin işıqlandırılması ilə bağlı məsələnin həlli istiqamətində aidiyyəti şəxslərə tapşırıqlar verildi. Qısa vaxt ərzində vətəndaşların küçənin işıqlandırılması ilə bağlı müraciətləri öz müsbət həllini tapdı.

Hörmətli redaksiya! Qəzetiniz vasitəsilə göstərilən diqqətə görə əlaqədar qurumlara minnətdarlığımızı çatdırmağı özümüzə borc bilirik.

***Vəli MURADOV,***
***Qazax şəhəri, Fərrux ağa Qayıbov küçəsinin sakini***

● FOTOETÜD

## Yeni ilin astanasında










**Yeni ilin yaxınlaşması ilə Bakı hər il olduğu kimi, bu dəfə də tamam başqa bir ovqatdadır. Şəhərin ritmi dəyişir, küçələrdə xoş əhval hiss olunur. 2026-cı ili qarşılamağa hazırlaşan Bakı yalnız təqvimdə bir rəqəmin dəyişməsinə deyil, həm də ümidlərin, arzuların və yeni başlanğıcların gəlməsinə hazırlaşır. Bu hazırlıq şəhərin hər guşəsində hiss olunur, ilk növbədə insanların üzündəki təbəssümdə.**

Bakı bulvarından tutmuş mərkəzi prospektlərə qədər şəhərin əsas küçələri Yeni il işıqları ilə bəzədilib. Axşam düşən kimi minlərlə lampanın eyni anda yanması şəhərə nağılvari bir görünüş verir. İşıqlandırma təkcə estetik məqsəd daşımır, həm də qış gecələrinə istilik və canlılıq qatır. Prospektlər boyunca asılan işıqlı kompozisiyalar, ağacların üzərinə dolanan parlaq lentlər və binaların fasadlarında yaradılan işıq effektləri Bakını bir fərqli ritmə salır. Xüsusilə Dənizkənarı bulvarda əks olunan işıqlar Xəzərin üzərində əsrarəngiz mənzərə yaradır və şəhərin qış simvoluna çevrilir.

Yeni ilin rəmzi sayılan şam ağacları həm uşaqların, həm də böyüklərin maraq mərkəzinə çevrilib. Parlaq oyuncaqlar, klassik və müasir üslubda seçilmiş bəzəklər, işıqlı ulduzlar bu ağaclara xüsusi cazibə qatır. Paytaxt sakinləri və qonaqlar onların önündə şəkil çəkdirir və bununla Yeni ili qarşılamağın sevincini yaşayırlar. Şaxta baba və Qar qızla şəkil çəkdirən uşaqların həyəcanı, sevinci ölçüyəgəlməzdir. Bulvarda qurulmuş süni buz meydançası da daha çox diqqətçəkən ərazilərdəndir. Böyüklü-kiçikli bu ekstrimi yaşamağa cəhd edənlərin sayı tükənmək bilmir.

Yeni il yarmarkaları isə şəhərə əlavə bir ruh gətirir. Müxtəlif meydanlarda və açıq məkanlarda təşkil olunan bu yarmarkalar Bakının qış həyatını canlandırır. Hər il olduğu kimi, Fəvvarələr meydanında "Nargis" fondunun təşkilatçılığı ilə fəaliyyət göstərən "Soyuq əllər, isti ürək" xeyriyyə yarmarkası, bu ildən etibarən Dənizkənarı Milli Park ərazisində yaradılan yarmarka daha çox diqqət çəkir. Çay və qəhvənin ətri, bişirilən şirniyyatların qoxusu, yerli ustaların hazırladığı suvenirlər, Yeni il dekorları, hədiyyəlik əşyalar şəhər sakinlərinə və qonaqlara fərqli seçimlər təqdim edir. Yarmarkalar sadəcə alış-veriş məkanı deyil, eyni zamanda insanların bir araya gəlib vaxt keçirdiyi, bayram ovqatlarını paylaşdığı sosial ünvan kimi xarakterizə olunur.

Mağazaların vitrinləri də Yeni ilə xüsusi hazırlanır. Şaxta baba fiqurları, süni qar effektləri, qırmızı və qızılı tonlarda seçilmiş bəzəklər şəhərin ticarət həyatına bayram havası qatır. Axşam saatlarında işıqlanan vitrinlər Bakının küçələrini daha canlı və cəlbedici edir.

2026-cı ili qarşılayan Bakı həm ənənəyə sadiq qalır, həm də müasir üslubu qoruyur. Şəhər klassik Yeni il simvollarını müasir dizayn və texnologiya ilə birləşdirir. Bir sözlə, Bakı 2026-cı ili ümidlə, işıqla və birlik hissi ilə qarşılayır.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● GÜNDƏM

## AzTV bəzi tarixi türk seriallarının yayımlanmasını niyə dayandırıb?




*Hörmətli redaksiya!*

Artıq illərdir telekanallarımızda tarixi türk seriallarının yayımlanması məni də bir tamaşaçı olaraq cəlb etmişdi və həmin filmlərin izləyicisi olmuşdum. Bu seriallar soyumuzun qədim tarixini, mədəniyyətini dünyaya tanıtmaq, gənc nəslin milli kimliyini gücləndirmək, eləcə də milli birliyi möhkəmləndirmək baxımından böyük əhəmiyyət kəsb edir və ölkənin dövlət televiziyası olan AzTV-də yayımlanması təqdirəlayiq haldır.

Adətən biz tamaşaçılar həftənin müəyyən günlərində və məlum saatlarda nümayiş etdirilən seriallara köklənir, hadisələrin sonundan, qəhrəmanların taleyindən axıradək xəbərdar olmağa çalışırıq. Başqa sözlə, şəxsi vaxtımızı həmin serialların nümayişinə uyğunlaşdırırıq.

Nədənsə, televiziya rəhbərliyi tamaşaçı marağını ya unudur, ya da buna əhəmiyyət vermir. Məsələn, uzun müddət nümayiş etdirilən "Quruluş Osman" türk serialı qəflətən, tamaşaçıya heç bir bildiriş və məlumat verilmədən dayandırıldı.

"Səlahəddin Əyyubi: Qüdsün fatehi" serialı da eyni aqibəti yaşadı.

"İstanbul. Paytaxt Əbdülhəmid" isə başqa tale yaşadı. AzTV-nin proqramından "Mədəniyyət" kanalına başqa "qrafik"lə keçirildi. Necə deyərlər, salamsız-kəlamsız. Fikrimcə, çoxsaylı tamaşaçı kütləsinə bu tarixi serialların davamının nə vaxt yayımlanacağı haqqında ətraflı məlumat verilməlidir. Bu, tamaşaçının haqqı olmaqla yanaşı, eyni zamanda TV-nin öz tamaşaçısına hörmətinin bir nümunəsi olardı.

***B.MİRZƏYEV,***
***Binəqədi kənd sakini, təqaüdçü***

● PROBLEM

## Kəndimiz susuz qalıb

**Yuxarı Öysüzlü kəndi Tovuzun böyük kəndlərindəndir. Kəndin 8 min nəfərə yaxın sakini var. Kənddə məktəb, körpələr evi-uşaq bağçası, həkim məntəqəsi, kitabxana, poçt və digər obyektlər fəaliyyət göstərir.**




Ancaq təəssüflər olsun ki, burada uzun illərdir su problemi həll olunmur. Biz, sakinlər də məcbur olub maşınlarla su alırıq. Ayda 50-60 manat vəsait xərcləsək də, ehtiyaclarımız ödənmir. Həyətlərimizdə ağaclar quruyur, mal-heyvanımız susuz qalır. Onu da bildirək ki, 7-8 il əvvəl ovaxtkı "Azərsu" ASC kəndə 7-8 kilometr məsafədən borularla su xətti çəkdi ki, kəndə su verilsin. Nədənsə bu iş sonradan dayandırıldı. İndi qalmışıq çıxılmaz vəziyyətdə.

Hörmətli redaksiya! Bəlkə siz bu işdə bizə kömək göstərəsiniz. Əlaqədar qurumların rəhbərlərinə çatdırasınız ki, başladıqları işi sona çatdırsınlar.

***Zakir TAĞIYEV,***
***Tovuz rayonu***
***Yuxarı Öysüzlü kəndinin sakini***

● GİLEY

## Küçəmiz illərdir bərbad vəziyyətdədir

**Dəfələrlə küçəmizin asfaltlanması ilə bağlı aidiyyəti qurumlara müraciət etmişik. 2019-cu ilin noyabrında və 2024-cü ilin aprelində Binəqədi Rayon İcra Hakimiyyətinə etdiyimiz müraciətlərin cavabında bildirilib ki, işlər mərhələli şəkildə həyata keçiriləcək.**

Lakin o "mərhələ" nədənsə gəlib bizə çatmır. Halbuki Biləcəri şosesində asfaltlanma işləri aparıldığı zaman bizim küçənin də həmin "mərhələ"yə daxil edilməsi nəzərdə tutulmuşdu. Nədənsə məhəlləmiz bu prosesdən kənarda qaldı. Bunu görən məhəllə sakinləri şəxsi vəsaitləri hesabına yol çəkərək asfalt saldılar. Amma sonrakı illərdə yeraltı su borusunda yaranmış sızma ilə əlaqədar



İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti tərəfindən yolda bir neçə dəfə qazıntı aparıldığından küçəmiz bərbad hala düşdü. Onu da qeyd edək ki, su borularının istismar müddəti çoxdan bitib.

Bu gün küçəmizin vəziyyəti, sözün əsl mənasında, keçilməz haldadır. Yağış yağanda vəziyyət daha bərbad olur. Tədbir isə görülmür.

"Azərbaycan" qəzeti vasitəsilə aidiyyəti qurumlardan bir daha xahiş edirik: bu problemi kağız üzərində deyil, real tədbir görməklə həll edin.

***Tünzalə XƏLİLOVA,***
***Binəqədi rayonu M.Ə.Rəsulzadə qəsəbəsi, "Stroy detal" küçəsinin sakini***







# Mədəniyyət







● Rəşid Behbudov - 110

# Səsi ilə dünyanı fəth etdi

**Azərbaycanın musiqi mədəniyyətinin parlaq simalarından biri - unudulmaz sənətkarımız Rəşid Behbudovun 110 illik yubileyi tamam oldu. Bu əlamətdar tarix Azərbaycanda və ölkə hüdudlarından kənarda böyük musiqi xadiminin xatirəsinə sevgi hissi ilə qeyd edilir. Rəşid Behbudov XX əsr milli incəsənət tariximizdə əbədi iz qoymuş sənətkarlardandır.**



O, 1915-ci il dekabrın 14-də Tiflisdə, əslən Şuşadan olan tanınmış xanəndə Məcid Behbudovun ailəsində dünyaya göz açıb. Anası Firuzə Vəkilova Qazaxın Yuxarı Salahlı kəndindən olan məşhur Vəkilovlar nəslinə mənsub idi. Atası xanəndəlik etdiyindən bu ailədə musiqiyə dərin bir bağlılıq vardı. Firuzə xanım isə çar ordusunun polkovniki Abbasqulu bəy Vəkilovun qızı kimi zadəgan ailəyə mənsub olduğu üçün dövrünə görə yaxşı təhsil almış, Tiflisdəki Müqəddəs Nina qadın gimnaziyasını bitirmişdi. Rus və fransız dillərini mükəmməl bilir, müəllim işləyirdi. O, Tiflisdə qadın müsəlman cəmiyyəti təşkil etmişdi. Orada gənc qızlara ədəb-ərkan, rus və fransız dillərini öyrədirdi. Firuzə Vəkilova dram dərnəyində tamaşalar da səhnələşdirmişdi.

Belə bir ailə mühitində böyüməsi böyük qardaşı, gələcəyin tanınmış rejissoru Ənvər Behbudov və bacısı tanınmış aktrisa Nəcibə Behbudova kimi ailənin sonbeşiyi Rəşid Behbudovun da gələcək sənət yolunun təməlini erkən yaşlardan formalaşdırmağa başlamışdı.

Uşaq yaşlarından məktəb xorunda oxuyan Rəşid Behbudov 1933-cü ildə Dəmiryolu Texnikumuna daxil olmuşdu. Təhsil aldığı illərdə tələbə orkestrində çıxış edərək səhnə təcrübəsini daha da zənginləşdirmişdi. Hərbi xidmət zamanı da musiqidən uzaq düşməmiş, ordu ansamblının solisti kimi fəaliyyət göstərmişdi. Xidmətini başa vurduqdan sonra Tiflisdəki estrada qruplarından birində solistliyə başlamışdı. Qısa müddətdən sonra Azərbaycan Dövlət Caz Orkestrinə dəvət olunmuşdu.

Ötən əsrin 30-cu illərində gənc müğənni artıq Azərbaycan Dövlət Opera və Balet Teatrında klassik operaların xor səhnələrində solo partiyalar oxuyurdu. 1939-cu ildə o, teatrın kollektivi ilə birlikdə Moskvada keçirilən Azərbaycan incəsənəti günlərində iştirak etdi. İkinci Dünya müharibəsi illərində əksər sənət adamlarımız kimi, Rəşid Behbudovun da həyatı oddan-alovdan keçdi. 1942-ci ildə Krım cəbhəsində çıxış etdi, həmin il İrana qastrol səfərində oldu.

## Dünyada tanınan "arşınmalçı"

1943-cü ilin sonunda Bakı kinostudiyasında çəkilən "Arşın mal alan" filmi Rəşid Behbudovun həyatında yeni bir səhifə açdı. Üzeyir bəy Hacıbəylinin eyniadlı operettası əsasında ekranlaşdırılmış bu filmdə o, Əsgər obrazını canlandırdı.

1945-ci ildə "Arşın mal alan" filminin nümayişindən sonra gənc müğənni bütün Sovetlər İttifaqında böyük şöhrət qazandı və tədricən bu şöhrət dünyaya yayıldı. Üzeyir bəy Hacıbəylinin musiqisi və Rəşid Behbudovun Əsgəri müxtəlif ölkələrdə Azərbaycan mədəniyyətinin simvoluna çevrildi.

O, Əsgər rolunda dərin məhəbbət hisslərini, gənclik ehtirasını, xoşbəxtlik arzusunu səmimi və dinamik şəkildə təqdim edərək milyonlarla tamaşaçının qəlbini fəth etmişdi. Sənətkarın öz xatirələrində göstərdiyi kimi, "Arşın mal alan" onu bir çox ölkədə əvvəlcədən tanıdan, tamaşaçı ilə səmimi bağ yaradan bir sənət körpüsü olmuşdu. 1946-cı ildə bu roluna görə həmin illərin ən yüksək dövlət təltiflərindən olan "Stalin" mükafatına layiq görüldü.

Sonrakı illərdə isə sənətkarın fəaliyyəti daha geniş miqyas aldı. O, 1946-1956-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-1960-cı illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti oldu. 1957-1959-cu illərdə Azərbaycan Dövlət Konsert Ansamblını yaradaraq ona rəhbərlik etməyə başladı. 1966-cı ildən isə caz, estrada, balet və pantomim janrlarını birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təsis etdi, ömrünün sonuna qədər bu teatrın bədii rəhbəri və solisti kimi fəaliyyət göstərdi.

Rəşid Behbudovun sənəti təkcə Azərbaycan, keçmiş SSRİ sərhədləri ilə məhdudlaşmırdı. O, SSRİ məkanında olduğu kimi, Argentina, Belçika, Çin, Hindistan, İran, İtaliya, Misir, Türkiyə və digər ölkələrdə də geniş repertuarla çıxış edərək Azərbaycan musiqisini dünyaya tanıdırdı. Xüsusilə xalq mahnılarımızın və milli bəstəkarların vokal əsərlərinin xarici auditoriyalarda sevilməsində onun xidmətləri əvəzsizdir. Sənətkar Hindistana səfər təəssüratlarını "Uzaq Hindistanda" adlı kitabında qələmə alıb.

## Müğənni və aktyor sənətinin zirvəsində

Geniş yaradıcılıq diapazonuna, nadir ifaçılıq və aktyorluq məharətinə malik olan Rəşid Behbudov təkcə qüdrətli səs sahibi deyildi, eyni zamanda obraz yaradan, səhnədə musiqini yaşayan və yaşadan böyük aktyor idi.

Yaradıcılığına diqqət yetirdikdə müğənnilik və aktyorluq istedadının onun sənətində necə üzvi şəkildə qovuşduğunu görürük. Bu sintez sənətkarın zəngin fantaziyası, dərin musiqi duyumu və səhnə mədəniyyəti ilə birləşərək qeyri-adi bədii nəticələr doğururdu. Zəngin repertuarı, ifa üslubunun özünəməxsusluğu, fəaliyyət sahələrinin genişliyi Rəşid Behbudovun yaradıcılıq simasını göz önündə canlandırır.

Rəşid Behbudov Azərbaycan və dünya xalqlarının mahnılarını, klassik və müasir bəstəkarların romanslarını, opera ariyalarını böyük ustalıqla ifa edirdi. Janrından və həcmindən asılı olmayaraq, hər bir əsərə eyni ciddiliklə yanaşması onun sənətkarlığının əsas göstəricilərindən idi. Estrada ifaçılığı ilə yanaşı, opera səhnəsində də özünü təsdiqləməsi sənətkarın mükəmməl vokal texnikaya malik olduğunu göstərirdi.

Onun musiqili səhnə fəaliyyətində iki obraz xüsusi mərhələ hesab olunur: bunlardan biri, qeyd etdiyimiz kimi, Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan"dakı Əsgər, digəri Fikrət Əmirovun "Sevil" operasındakı Balaş obrazıdır. Fərqli dövrlərdə, fərqli üslub və estetik prinsiplərlə yazılmış bu əsərlərdə Rəşid Behbudovun yaratdığı obrazlar onun təfsirində tamamilə yeni, canlı və inandırıcı məna kəsb etmiş, əsərlərin səhnə və ekran uğurunda həlledici rol oynamışdır.

Fikrət Əmirovun "Sevil" operasında yaratdığı çox mürəkkəb Balaş xarakteri onun opera artisti kimi ilk və ən parlaq çıxışı idi. Bəstəkarın məhz Behbudovun səsinə və yaradıcılıq imkanlarına uyğun yazdığı bu partiya müğənni və aktyor istedadının vəhdətini tam dolğunluğu ilə üzə çıxardı. 1959-cu ildə Moskvadakı Böyük Teatrın səhnəsində Balaş rolunda çıxışı sənətkara SSRİ Xalq artisti fəxri adını qazandırdı.

## Həyat ruhlu nəğmələr

Rəşid Behbudov estrada səhnəsini əsas fəaliyyət sahəsi kimi seçsə də, klassik opera ariyalarını da daim repertuarında saxlamışdı. Üzeyir bəy Hacıbəylinin "Koroğlu", Müslüm Maqomayevin "Nərgiz", Puççininin "Bohema", Çaykovskinin "Yevgeni Onegin" operalarından ariyaları konsertlərdə böyük zövqlə ifa edirdi. Onun səs yazıları və ayrı-ayrı filmlərdə qorunub saxlanılan ifaları sənətkarın vokal imkanlarının genişliyini bir daha nümayiş etdirirdi.

Rəşid Behbudovun səsində xalq musiqisindən gələn intonasiya sərbəstliyi ilə akademik üslub ustalıqla qovuşurdu. Bu isə onun ifalarına xüsusi canlılıq, obrazlarına həyati cizgilər gətirirdi. Nəticədə mahnılar nə sırf estrada, nə də tam akademik xarakter daşıyır, hər ikisinin sintezindən doğan orijinal bir üslub yaranırdı. Görkəmli bəstəkarımız Fikrət Əmirovun da vurğuladığı kimi, Rəşid Behbudovun səsindəki məlahət, aydın tələffüz, səhnə davranışındakı ölçü-biçi ifaçı ilə tamaşaçı arasında səmimi estetik ünsiyyət yaradırdı.

Müğənnilik və aktyorluq keyfiyyətlərinin sintezi Rəşid Behbudovun kino yaradıcılığında da aydın görünür. "Bəxtiyar", "Min birinci qastrol" filmlərində o həm baş rolun, həm də mahnıların ifaçısı kimi çıxış edərək obrazın daxili aləmini böyük ustalıqla açmağa nail olurdu.

Bu yaradıcılıq konsepsiyasının ən parlaq təcəssümü isə Rəşid Behbudovun yaratdığı və bu gün də onun milli mədəniyyətimizə ən dəyərli töhfələrindən biri kimi uğurla fəaliyyət göstərən Mahnı teatrıdır. Mahnının təkcə dinlənilən deyil, həm də "görünən" sənət nümunəsinə çevrildiyi bu teatr musiqi, poeziya, xoreoqrafiya və aktyor oyununun üzvi vəhdətini təqdim edirdi. Xalq sənətinin qədim ənənələrindən qaynaqlanan bu yanaşma müasir musiqili teatrın orijinal nümunəsi kimi böyük maraq doğurur.

Mahnı teatrının baş qəhrəmanı da məhz Rəşid Behbudovun özü idi. O, burada təkcə ifaçı deyil, həm də rejissor kimi çıxış edir, tamaşanın bütün bədii xəttini formalaşdırırdı. Peşəkar kollektiv, zəngin musiqi tərtibatı və parlaq səhnə həlli bu teatrı Azərbaycan mədəniyyətində unikal hadisəyə çevirmişdi.

## Nadir sənət fenomeni

Beləliklə, Rəşid Behbudovun yaradıcılıq siması müğənni və aktyor istedadının vəhdətində formalaşmış nadir sənət fenomenidir. Məhz bu vəhdət onun sənətini zamansız etmiş, Azərbaycan mədəniyyətinə yüksək estetik dəyərə malik nümunələr qazandırmışdır.

Rəşid Behbudovun ifa etdiyi mahnılar Azərbaycan musiqi mədəniyyətində özünəməxsus üslubu, dərin emosional təsir gücü və yüksək bədii-estetik səviyyəsi ilə seçilir. Onun mahnı yaradıcılığı təkcə gözəl səs imkanlarının deyil, həm də zəngin musiqi təfəkkürünün, aktyorluq duyumunun və milli musiqi ənənələrinə dərindən bağlılığın məhsuludur.

Rəşid Behbudovun bütün mahnılarında sözə münasibət xüsusi yer tutur. O, ifa etdiyi hər bir mahnının mətnini yalnız oxumur, onu yaşayır, sözün daxili mənasını dinləyiciyə çatdırır. Diksiyasının aydınlığı, vurğuların dəqiqliyi, sözlə musiqi arasındakı tarazlıq onun ifaçılıq üslubunun əsas cəhətlərindəndir. Bu xüsusiyyət Rəşid Behbudovun ifalarını sadə dinləmə obyektindən çıxarıb, bədii düşüncə aktına çevirir.

Oxuduğu bütün mahnıların uğurlu alınmasının ən mühüm səbəbi isə onun özünə qarşı son dərəcə tələbkarlığından, səhnə adamı kimi özünəhörmət hissindən irəli gəlirdi. Onun fəaliyyət tərzinə, iş üsuluna yaxşı bələd olan sənət yoldaşları xatırlayırlar ki, Rəşud Behbudov kiçik bir mahnı parçası üzərində bəzən 6 ay çalışır, tam istədiyi səviyyəyə çatmayana qədər onu dinləyicilərinə təqdim etmirdi. Məhz bu tələbkarlıq onun, demək olar ki, bütün ifalarına peşəkar kamillik gətirib.

Ölməz sənətkarımızın ifa etdiyi mahnılar dramatik inkişaf xəttinə malikdir. O, mahnını başlanğıc, kulminasiya və nəticəsi olan kiçik bir səhnə əsəri kimi təqdim edir. Burada aktyorluq istedadı xüsusi rol oynayır. Səs tembrinin dəyişməsi, pauzaların məqsədyönlü istifadəsi, intonasiya çalarları mahnının emosional xəritəsini formalaşdırır, dinləyicini hadisənin içərisinə çəkir.

Onun repertuarındakı mahnıların əksəriyyəti lirik-romantik ovqat üzərində qurulsa da, bu lirika passiv və statik deyil. Əksinə, Rəşid Behbudovun ifasında sevgi, həsrət, sevinc və kədər fəal emosional enerjiyə çevrilir. Bu da onun mahnılarını zaman və məkan məhdudiyyətindən çıxararaq, müxtəlif nəsillər üçün anlaşılan və doğma edir.

Rəşid Behbudovun mahnılarının özünəməxsusluğunu şərtləndirən mühüm cəhətlərdən biri də nəhəng sənətkarın çoxdilli ifaçılıq qabiliyyətidir. O, Azərbaycan mahnılarını müxtəlif dillərdə ifa etməklə onların milli ruhunu qorumuş, eyni zamanda bu musiqini dünya auditoriyasına yaxınlaşdırmışdır. Bu yanaşma Azərbaycan mahnısını hələ sərhədlərin qapalı olduğu SSRİ dövründə beynəlxalq mədəni dövriyyəyə çıxaran mühüm amillərdən olmuşdur.

Görkəmli musiqi xadiminin ifaçılıq tərzində sadəlik və yüksək sənətkarlıq harmoniyası diqqət çəkir. Onun mahnıları texniki baxımdan mürəkkəb olsa da, ifa zamanı bu mürəkkəblik hiss olunmur, hər şey sanki təbii və asan səslənir. Bu isə yalnız böyük ustalığın göstəricisidir.

Rəşid Behbudovun mahnıları Azərbaycan vokal sənətində unikal bir məktəb formalaşdırmışdır. Bu məktəbin əsas xüsusiyyəti səs, söz, musiqi və obrazın vəhdətidir. Məhz bu vəhdət sayəsində Rəşid Behbudovun ifa etdiyi mahnılar bu gün də öz təravətini, bədii gücünü və təsir imkanlarını qoruyub saxlayır.

Görkəmli müğənni və ictimai xadim Rəşid Behbudov 1989-cu il iyunun 9-da Moskva şəhərində vəfat edib. Onun zəngin yaradıcılığı bu gün də Azərbaycan musiqi mədəniyyətinin qızıl fondunda xüsusi yer tutur.

Rəşid Behbudovun sənəti hər zaman yüksək qiymətləndirilmiş, Azərbaycan, SSRİ və Dağıstanın xalq artisti, Gürcüstanın əməkdar incəsənət xadimi, SSRİ və Azərbaycanın dövlət mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı və sair kimi yüksək mükafatlara layiq görülmüşdü.

Bu gün də bütün dünyada Rəşid Behbudova olan sevgi, nəsillər keçdikcə onun bir-birindən gözəl mahnılarının yenə sevə-sevə dinlənilməsi ölməz sənətkarımızın istedadına, zəhmətinə verilən ən böyük dəyərdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● 28 Dekabr Beynəlxalq Kino Günüdür

# Zamanı sənədləşdirən sənət

**Kino bəşər tarixində ən təsirli təbliğat vasitələrindən biri olmaqla yanaşı, keçmişi gələcəyə daşıyan nadir sənət sahələrindəndir. O, yalnız estetik dəyər yaradan incəsənət növü deyil, eyni zamanda ictimai proseslərin və tarixi hadisələrin sənədləşdirilməsi baxımından misilsiz rol oynayır. Kinematoqrafiya öz mahiyyətinə görə reallığı bütün çılpaqlığı və konkretliyi ilə əks etdirir, onu gələcək nəsillər üçün qoruyub saxlayır. Məhz bu səbəbdən kino tarixşünaslıq üçün də qiymətli və etibarlı mənbə hesab olunur.**

Tamaşaçı filmə baxır və o, bitdikdən sonra gündəlik həyatına qayıdır. Lakin bu proses tamaşaçı üçün nə qədər sadə və ötəri görünsə də, filmin ərsəyə gəlməsi bir o qədər mürəkkəb, çətin, zəhmətli və uzun yoldan keçir. Ekranda gördüyümüz bir neçə dəqiqəlik səhnənin arxasında günlərlə, aylarla, bəzən illərlə davam edən gərgin əmək, böyük bir yaradıcı və texniki komandanın fədakarlığı dayanır. Tamaşaçı ekranda sadəcə aktyorları görür, lakin kadrarxasında onlarca, hətta yüzlərlə insanın zəhməti gizlənir. Bu, hər bir kadrında gərgin əmək, peşəkarlıq və məsuliyyət olan kino sənətinə böyük sevginin göstəricisidir.

Rejissorlar, operatorlar, səs mühəndisləri, işıqçılar, dekoratorlar, qrim ustaları, prodüserlər və digər texniki heyət üzvləri istənilən hava şəraitində, şaxtada, yağışda, çətin relyeflərdə qarşılarına çıxan bütün maneələrə baxmayaraq, tamaşaçıya keyfiyyətli məhsul təqdim etmək üçün var gücləri ilə çalışırlar. Onlar bəzən fiziki və mənəvi baxımdan son həddə qədər çalışaraq, sözün əsl mənasında, canlarını ortaya qoyurlar.



Beynəlxalq Kino Günü ərəfəsində kino çəkilişi prosesini yerində izləmək üçün yolumuzu "Mənə bənzər adam" filminin çəkiliş meydançasından saldıq...

## Bir nəslin yaşadığı travma

Azərbaycan Respublikasının Kino Agentliyi (ARKA) və "Rakurs Film-Media" MMC-nin birgə ərsəyə gətirdiyi "Mənə bənzər adam" tammetrajlı bədii filmi Birinci Qarabağ müharibəsindən sonra bir nəslin yaşadığı travma haqqında hekayədir. Minimalizmin ön planda olduğu filmdə insanın daxili dünyası, psixoloji mübarizəsi və reallığın çətinliklə də olsa, qəbul edilməsi əsas xətti təşkil edir.

Həmin illər televiziyada operator kimi çalışan baş qəhrəman uzun illər qürbətdə yaşadıqdan sonra torpaqlarımızın işğaldan azad olunmasını eşidib vətəninə qayıdır. Uzun illər zehnini məngənə kimi sıxan suallarına cavab tapmaq üçün həmin ərazilərə yollanaraq, itkin düşmüş insanların taleləri ilə maraqlanır, onların məzarlarını axtarır. Filmboyu qəhrəmanı müşayiət edən əsas qorxulardan biri unudulmaqdır. O, metaformik anlamda özünə bənzər insanları axtarır. Eyni taleyi yaşamış, eyni müharibədən keçmiş insanları...

Çəkilişlərin aparıldığı əraziyə gedərək bir epizodun ərsəyə gəlmə prosesinin canlı şahidi olduq. İlk baxışdan qısa və sadə görünən bu epizodun çəkilməsi üçün saatlarla vaxt sərf olunurdu. Hər detal - aktyorun mimikası, hərəkəti, kameranın bucağı, işıqlandırma, səs balansı dəfələrlə yoxlanılır, səhnə təkrar-təkrar lentə alınırdı. Məqsəd epizodu daha canlı, daha inandırıcı və texniki baxımdan qüsursuz etmək idi.

"Təkbətək", "Yuki üçün layla", "Sakitlik dənizi", "Mən hələ də sənin daşa dönməyini izləməliyəm" adlı qısametrajlı, "Balıqçının qızı" tammetrajlı bədii filmlərinin də rejissoru olan İsmayıl Səfərəli deyir ki, üzərində uzun müddətdir işlənilən layihənin çəkiliş prosesindəki ən çətin məqam mövzunun ağırlığı, məsuliyyəti, filmin atmosferini və qəhrəmanın daxili vəziyyətini tamaşaçıya ötürməkdir: "Bu, şəxsən mənim üçün ən önəmli faktordur. Çünki 1990-cı illərin əvvəllərində baş verən hadisələri yaxşı xatırlayıram və ölkəmizin o acı tarixindən doğan travmanı bütün həmvətənlilərimiz kimi mən də illərlə içimdə daşıyıram. Və bunu ssenari həmmüəllifi və rejissoru olduğum filmdə işıqlandırmaq imkanım oldu".

Rejissor Azərbaycan filmlərinin beynəlxalq arenada yetərincə tanınmamasının əsas səbəbini maliyyə dəstəyinin azlığında görür. Onun fikrincə, kino industriyasının inkişafı üçün bu sahəyə ciddi insan və kapital investisiyası, eləcə də intensiv istehsal prosesi vacibdir. Çünki intensiv istehsal təcrübəni, təcrübə isə keyfiyyəti artırır. O vurğulayır ki, kino komanda işidir və yaxşı filmin ərsəyə gəlməsi üçün düzgün kastinq də həlledici amillərdən biridir: "Bəzən görürsən ki, aktyor olduqca istedadlıdır, lakin obraz ona uyğun deyil. Bu zaman istənilən nəticəni də əldə etmək mümkün deyil".

## "Mənə bənzər adam"

"Mənə bənzər adam" filmində hadisələr iki zaman kəsimində cərəyan edir. Hadisələrin həm keçmişdə, həm də indiki zamanda baş verdiyi filmlərdə bu zaman fərqinin tamaşaçıya inandırıcı şəkildə çatdırılması böyük peşəkarlıq tələb edir. Bu prosesdə ən mühüm və eyni zamanda ən çətin sahələrdən biri məkanların hazırlanmasıdır. Çünki məkan yalnız hadisələrin baş verdiyi fiziki mühit deyil, həm də zamanın ruhunu, dövrün sosial, mədəni və estetik xüsusiyyətlərini əks etdirən mühüm dramaturji vasitədir.



Filmin rəssamı Turan Yusifova deyir ki, "Mənə bənzər adam" filmi üçün aylarla hazırlıqlar görülüb, eskizlər çəkilib, məkanlar seçilib: "Filmin çəkilişləri Qarabağ, Şamaxı, İsmayıllı, Qobustan və Bakıda aparılıb. Məkanın dekorasiyasından asılı olaraq bir neçə gün və ya həftə öncə kinonun çəkiləcəyi əraziyə gedib müvafiq hazırlıqlar görülüb. Məkanların hazırlanması zamanı təbii ki, müəyyən çətinliklərlə də üzləşmişik. Məsələn, bizə sovet dövrünə uyğun parlaq, zərli olmayan divar kağızları lazım idi. Nə qədər axtarsaq da, satışda tapa bilmədik. Biz də texnologiyadan faydalanıb printə üz tutduq".

Turan Yusifova keçmişi əks etdirən səhnələrin çəkilişi zamanı rastlaşdıqları digər bir çətinliyin də müasir dövrə aid elementlərin kadrdan çıxarılmasının olduğunu dedi: "Elektrik dirəkləri, müasir yol nişanları, plastik pəncərələr, kondisionerlər, reklam lövhələri və asfalt örtüklər kimi detallar keçmiş dövrün təsvirini pozur. Bu səbəbdən ya uyğun məkan tapmaq, ya da həmin elementləri dekorasiya ilə örtmək və ya sonradan kompüter qrafikası vasitəsilə silmək zərurəti yaranır".

## Qrim sənətinin həlledici rolu

Kino çəkilişində obrazın inandırıcılığı təkcə aktyor oyunu ilə deyil, onun vizual görünüşü ilə də formalaşır. Xüsusilə "Mənə bənzər adam"dakı baş qəhrəman kimi həyatın ağır sınaqlarından keçmiş, yorğun və əzabkeş bir obrazın yaradılmasında qrim sənətinin rolu həlledicidir. Belə obrazlarda qrim sadəcə gözəlləşdirmə vasitəsi deyil, xarakterin keçmişini, psixoloji durumunu və daxili ağrılarını üzə çıxaran əsas ifadə vasitəsidir. Qrim üzrə rəssam Adilə Alıyeva bildirir ki, ən böyük çətinliklərdən biri aktyorun üzündə yorğunluğu və həyat izlərini süni görünmədən əks etdirməkdir. Qırışların, gözaltı kölgələrin, sallanmış dərinin və solğun üz rənginin həddindən artıq vurğulanması obrazı karikaturaya çevirə bilər. Əksinə, kifayət qədər vurğulanmaması isə personajın həyat yükünü tamaşaçıya ötürməz. Qrim ustası bu balansı tapmaq üçün aktyorun real üz quruluşunu, mimikasını və yaş xüsusiyyətlərini dərindən öyrənməlidir.

Əziyyət çəkmiş insanın yorğunluğunun təkcə fiziki deyil, həm də psixoloji izlər buraxdığını qeyd edən Adilə Alıyeva bu izləri qrimlə ifadə etməyin xüsusilə çətin olduğunu bildirir: "Gözlərin dərinliyindəki boşluq hissi, baxışların sönüklüyü, dodaq kənarlarının aşağı düşməsi kimi detallar yalnız boya ilə deyil, aktyorun mimikası ilə uzlaşmalıdır. Qrim ustası bu nöqtədə rejissor və aktyorla sıx əməkdaşlıq etməlidir. Müasir dövrdə texnologiyanın da inkişafı ilə qrim ustalarının işi asanlaşıb. Əvvəllər lap çətin olub. Müəllimim bizə deyirdi ki, SSRİ vaxtı üzə qrim yalnız yaşıl rəngdə vurulurdu. Kamerada o dəri rəngi kimi görünürdü. İşığın qurulmağından asılı olaraq eyni makiyaj çox gözəl və ya əksinə çox bərbad da görünə bilər. Bu bir komanda işidir".

## Qayıdış hekayəsi

Bu film bir insanın doğulduğu torpağa həm fiziki, həm də mənəvi qayıdış hekayəsidir. Torpaqların işğaldan azad olunması baş qəhrəman üçün yalnız siyasi və coğrafi dəyişiklik deyil, daxili bir çağırış, uzun illər susdurulmuş yaddaşın oyanışıdır. Vətənə dönüş, əslində, keçmişlə üzləşmək, itirilənləri və özünü yenidən tapmaq cəhdidir.

Filmdə yalnız bir qəhrəmanın olması hekayənin yükünü daha da ağırlaşdırır. Tək bədən, tək səs, tək yaddaş və arxasında minlərlə talenin sükutu dayanır. Film müharibədən sonra insanın içində davam edən mübarizədən, yaddaşın susmayan səsindən və unudulmamaq istəyindən bəhs edir.

Bu çətin obrazı canlandıran Elnur Babayev üçün Azər obrazı yad deyil. Aktyorun sözlərinə görə, onların həyat yollarında oxşarlıqlar çoxdur. "Hər ikimiz sakit, azdanışan, təmkinliyik, qürbətdə yaşamışıq. Mən də düşmənin mənfur əməllərinin qurbanı olan insanlarla görüşmüşəm. 1990-cı illərdə qaçqınların Sabirabadda, Salyanda yerləşən çadır düşərgələrində fotoqraf, operator kimi işləmişəm. Onların gözlərindəki dəhşəti sözlə ifadə etmək mümkün deyil. Nələr yaşadıqlarını, nələr çəkdiklərini görmək üçün bircə dəfə gözlərinə baxmaq kifayət idi".

Bu, Elnur Babayevin ilk ekran işi olsa da, o, obrazı elə məharət və peşəkarlıqla canlandırırdı ki, sanki illərdir kamera qarşısındadır. Aktyorun sözlərinə görə, iki il əvvəl uzunillik dostu İsmayıl Səfərəli bu rolu ona təklif edəndə tərəddüd etsə də, sonda razılıq verib: "Kamera önü olduqca maraqlıdır. Amma bu qədər çətin olduğunu bilsəydim, müsbət cavab verməyə tələsməzdim", - deyə gülərək xatırlayır.

Elnurun sözlərinə görə, çəkilişlərin ən çətin mərhələsi İsmayıllıda baş tutub. İki gecə ard-arda səhərə qədər davam edən çəkilişlər həm fiziki, həm də mənəvi baxımdan son dərəcə ağır olub: "Təsəvvür edin, buz kimi şaxta, qaranlıq meşə və mükəmməl nəticə üçün dəfələrlə təkrar olunan kadrlar. Bu, insanı həm fiziki, həm mənəvi baxımdan tükəndirirdi".

Aktyor üçün ən unudulmaz an isə filmin son səhnəsinin çəkilişindən sonra yaşanıb: "Çəkiliş bitmişdi. Hər kəs öz işi ilə məşğul idi, avadanlıqlar yığılır, kadrlar yoxlanılırdı. Mən isə qaranlıqda, kənarda bir daşın üzərində oturmuşdum. Birdən kadrlardakı şəxsə baxdım. O, mən idim… amma eyni zamanda mən deyildim. Həyatı, özümü sorğuladım. Bu an mənim üçün son dərəcə təsirli və dərin bir mənəvi yaşantı idi".

Bəlkə də bu filmə baxan hər kəs ekrandakı qəhrəmanda bir az özünü görəcək. Hər kadrda tək bir insanın hekayəsi danışılır, amma bu hekayənin içində bütöv bir nəslin ağrısı, yaddaşı və susqunluğu yaşayır. Və kino məhz bu nöqtədə sənətdən daha artıq olur...

*Ülkər XASPOLADOVA ,*
*"Azərbaycan"*

# Ermənistan vətəndaşlarının məhkəməsində məhkəmə baxışı başa çatıb



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 26-da davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Məhkəmə iclasında təqsirləndirilən şəxs Davit İşxanyan son söz deyib.

O, çıxışında irəli sürülmüş ittihamlarla razılaşmadığını bildirib və ittiham tərəfinin mövqeyinə əks arqumentlərini səsləndirib.

D.İşxanyan insanların yaşadıqları ərazilərdən məcburi şəkildə çıxarılmasında, qanunsuz məskunlaşmada, minaların yerləşdirilməsində, təcavüzkar müharibənin planlaşdırılmasında, yeni hücum planlarının hazırlanmasında, soyqırımında, mülki əhalinin məhv edilməsində, müharibə qanunlarının pozulmasında, mülki əhalinin təqibində, insanların girov götürülməsində, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmədə, işgəncə verilməsində, mülki şəxslərin qətlində, əmlakların talan edilməsində, cinayətkar birliyin tərkibində olmaqda, silah-sursatın qanunsuz daşınmasında və s. cinayətlərdə iştirak etmədiyini iddia edib.

Təqsirləndirilən şəxs 1991-ci il noyabrın 20-də baş vermiş Qarakənd faciəsi barədə də danışıb. O, Azərbaycana məxsus, içərisində yüksəkvəzifəli şəxslərin olduğu vertolyotun partlaması hadisəsinin qəza olduğunu iddia edib.

D.İşxanyan çıxışında əsir və girovlarla bağlı ittiham aktında yer almış məqamlara da toxunub. O qeyd edib ki, azərbaycanlı əsir və girovlarla təması olmayıb.

"Özümü təqsirkar hesab etmirəm, mən hansısa cinayət törətməmişəm", - deyə D.İşxanyan çıxışının sonunda bildirib.

Sədrlik edən Z.Ağayev bununla da son söz çıxışlarının yekunlaşdığını deyib. O, tərəflərə (ittiham tərəfi, zərərçəkmiş tərəf və müdafiə tərəfi) müraciət edərək hökm layihəsi təqdim edib-etməyəcəklərini soruşub. Tərəflər hökm layihəsi təqdim etməyəcəklərini bildiriblər.

Bundan sonra sədrlik edən məhkəmə baxışının başa çatdığını elan edib.

Məhkəmə heyəti müşavirəyə gedib. Müşavirədən qayıtdıqdan sonra məhkəmə hökmü elan olunacaq.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni, Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Ruben Vardanyanın məhkəməsi dekabrın 30-da davam etdiriləcək

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə dekabrın 26-na təyin olunmuş məhkəmə prosesi təxirə salınıb.

AZƏRTAC xəbər verir ki, buna səbəb təqsirləndirilən şəxsin müdafiəçisi Emil Babışovun məhkəməyə müraciət edərək, özünün səhhətində yaranmış problemlə bağlı məhkəmənin təxirə salınmasını xahiş etməsidir.

Məhkəmə vəkilin müraciətini nəzərə alıb.

Növbəti məhkəmə iclası dekabrın 30-na təyin edilib.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN” qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## B İ L D İ R İ Ş

*"Caspian Energy Construction" Qapalı Səhmdar Cəmiyyəti bildirir ki, aşağıda göstərilən lisenziyalar itirilib:*

1. "Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması" fəaliyyəti üzrə Seriya № 261/2018, verilmə tarixi: 14.03.2018.
2. "Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması" fəaliyyəti üzrə Seriya № 300/2018, verilmə tarixi: 30.03.2018
3. "Maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması" fəaliyyəti üzrə Seriya № 44/2023, verilmə tarixi: 13.11.2023

**Yuxarıda qeyd olunan lisenziyalar itdiyi üçün etibarsız hesab olunur.**




# Bilmək istəyirəm

*2006-cı ilə qədər rəsmi əmək stajım mövcuddur. Sonrakı illərdə isə fərdi əmək fəaliyyəti ilə məşğul olmuşam və həmin dövr üzrə fərdi sosial sığorta hesabımda vəsait formalaşmayıb. Hazırda pensiya yaşına çatmışam, lakin mənə yaşa görə əmək pensiyası deyil, yalnız sosial müavinət təyin edilib. Bu hal qanunvericiliyə uyğundurmu? 2006-cı ilə qədər olan əmək stajım əmək pensiyasının təyinində nəzərə alınmalı deyilmi?*

***Ağa RÜSTƏMOV,***
***Bakı şəhəri***

- "Əmək pensiyaları haqqında" Qanuna və "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi" Qaydalarına əsasən, 2006-cı il yanvarın 1-dək olan əmək (sığorta) stajı əmək pensiyasının təyinində nəzərə alınmalıdır. Xüsusilə, 2019-2025-ci illərdə pensiya yaşına çatmış şəxslərə yaşa görə əmək pensiyası təyin edilərkən, onların 2006-cı il yanvarın 1-dək olan sığorta stajı 25 il kimi hesablanır və bu dövr üzrə faktiki stajınız varsa, həmin illər pensiya hüququnun müəyyən edilməsində nəzərə alınmalıdır. Həmin dövr üzrə qazanılmış pensiya hüquqları pensiya kapitalına çevrilir və fərdi şəxsi hesabınızda əks etdirilməlidir. Əgər yalnız sosial müavinət təyin edilibsə və 2006-cı ilə qədər kifayət qədər əmək stajınız varsa, bu, qanunvericiliyə uyğun deyil və qərardan şikayət vermək hüququnuz var. Praktikada, 2006-cı ilədək olan əmək stajı təsdiqedici sənədlərlə təqdim olunmalı və pensiya təyinatında nəzərə alınmalıdır.

*Bu il növbəti əmək məzuniyyətindən istifadə edə bilmədiyim üçün kompensasiya aldım. Amma 36 təqvim günü əvəzinə yalnız 30 təqvim günü əsas məzuniyyət hesablandı, əlavə məzuniyyət günləri nəzərə alınmadı. Bu, qanunla düzgündürmü?*

***Tamella QULİYEVA,***
***Sumqayıt şəhəri***

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, istifadə edilməmiş əmək məzuniyyətinə görə kompensasiya həm əsas, həm də əlavə məzuniyyət günləri üçün ödənilməlidir. Əsas məzuniyyət yalnız əlavə məzuniyyətlərlə birlikdə verilməli və onların müddətləri cəmlənməlidir. Əgər işçi növbəti əmək məzuniyyətindən tam istifadə etməyibsə, ona həm əsas, həm də əlavə məzuniyyət günlərinin hamısına görə kompensasiya ödənilməlidir. Yalnız əsas məzuniyyət günlərinə görə kompensasiya hesablanıb, əlavə məzuniyyət günləri nəzərə alınmayıbsa, bu qanunsuzdur və əlavə 6 gün üçün də kompensasiya ödənilməlidir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı
**NƏRMİNƏ ƏSƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı
**NƏRMİNƏ ƏSƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Onkologiya Mərkəzinin kollektivi mərkəzin əməkdaşı
**ELBRUS ŞÜKÜROVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Süleyman İsmayılov Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı
**NƏRMİNƏ ƏSƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlı verir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin professor-müəllim heyəti Azərbaycan Respublikası Milli Məclisinin sabiq sədri Oqtay Əsədova qızı
**NƏRMİNƏ ƏSƏDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsalığı verirlər.

Azərbaycan Hakimlər İttifaqının üzvləri Kürdəmir Rayon Məhkəməsinin sədri
**MAARİF KƏRİMOVUN**
vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı
**NƏRMİNƏ ƏSƏDOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlı verir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri İsa Nəcəfov, Xanlar Vəliyev məhkəmənin əməkdaşı Tahir Kazımova qardaşı
**ZAKİR KAZIMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan Apellyasiya Məhkəməsinin kollektivi Kürdəmir Rayon Məhkəməsinin sədri
**MAARİF KƏRİMOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4121
Sifariş 2605

Qiyməti 60 qəpik